Xalqın qəzeti!

# Xalq qəzeti

№ 183 (30877) 30 avqust 2025-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Böyük Qayıdış azad Qarabağa yeni həyat gətirir

*İlk növbədə işğalçıların məhv etdiyi infrastruktur bərpa edilir*




**Prezident İlham Əliyev Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə" telekanalına verdiyi müsahibədə Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesinə də toxunaraq keçmiş məcburi köçkünlərin uzun illər çox ağır şəraitdə yaşadıqlarını, hazırda isə onların işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində doğma yurdlarına qayıdışı prosesinə start verildiyini, artıq 50 mindən çox insanın həmin yaşayış sahələrində məskunlaşdığını və bu prosesin davamlı olduğunu bildirib.**

Dövlətimizin başçısı müsahibəsində məskunlaşma ilə bağlı iki əsas maneənin mövcudluğunu da diqqətə çatdırıb: "Birincisi, mina təhlükəsidir. Ermənilər işğal dövründə həmin ərazilərdə bir milyondan çox mina basdırmışdılar. 2020-ci ilin noyabrında İkinci Qarabağ müharibəsi başa çatdıqdan bu günədək, təxminən, 400 nəfər mina qurbanı olub. Minalar nəticəsində 70-dən çox insan həlak olub, qalanları isə ağır yaralanıb. Bu səbəbdən biz genişmiqyaslı bərpa işlərinə başlaya bilmirik, çünki, ilk növbədə, təhlükəsizlik təmin edilməlidir".

*(ardı 5-ci səhifədə)*

## Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında ANLAŞMA MEMORANDUMU

Azərbaycan Respublikasının Hökuməti və Amerika Birləşmiş Ştatlarının Hökuməti (bundan sonra – "İştirakçılar") aşağıdakı razılaşmaları əldə ediblər:

**I. Məqsəd**

Bu Anlaşma Memorandumunun (bundan sonra – "Memorandum") məqsədi İştirakçılar arasında strateji münasibətlərin möhkəmlənməsinə yönəlmiş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay müddətində hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılmasıdır.

İştirakçılar Strateji İşçi Qrupunda aşağıdakı üç sahəyə diqqət yönəltmək niyyətindədirlər:

Enerji, ticarət və tranzit daxil olmaqla regional bağlantılar;

Süni intellekt və rəqəmsal infrastruktur daxil olmaqla iqtisadi sərmayələr;

Müdafiə məhsullarının satışı və terrorizmə qarşı mübarizə daxil olmaqla təhlükəsizlik sahəsində əməkdaşlıq.

**II. Əməkdaşlıq sahələri**

İştirakçılar aşağıdakılar daxil olmaqla, lakin bununla məhdudlaşmayaraq, bir sıra sahələrdə əməkdaşlıq etmək niyyətindədirlər:

Enerji sahəsində sərmayələrin və regional bağlantılar üzrə infrastrukturun genişləndirilməsi;

Müdafiə və terrorizmə qarşı mübarizə sahəsində daha möhkəm əməkdaşlığın qurulması;

Regional iqtisadi və ticarət əməkdaşlığının inkişaf etdirilməsi;

Süni intellekt üzrə tərəfdaşlıqların və rəqəmsal infrastruktur sahəsində sərmayələrin inkişaf etdirilməsi.

**III. Ümumi müddəalar**

1. Müddət: Bu Memorandum İştirakçılar tərəfindən imzalandığı tarixdən qüvvəyə minir və bir il müddətində qüvvədə qalır. Memorandum İştirakçıların qarşılıqlı yazılı razılığı ilə uzadıla bilər. Hər bir İştirakçı istənilən vaxt bu Memorandumda iştirakını dayandıra bilər. İştirakı dayandıran tərəf digər İştirakçıya diplomatik kanallar vasitəsilə altmış (60) gün əvvəlcədən yazılı qaydada bildiriş verməlidir.

2. Layihələrin davam etmə müddəti: İştirakçılar tərəfindən başqa qərar verilmədiyi təqdirdə, bu Memoranduma xitam verilməsi iki İştirakçı arasında bu Memorandum çərçivəsində artıq başlanmış və tamamlanmamış layihələrə və fəaliyyətlərə təsir göstərmir.

3. Dəyişikliklər: İştirakçılar qarşılıqlı yazılı qərarla bu Memorandumu dəyişdirə bilərlər.

4. Memorandumun təsiri: Bu Memorandum beynəlxalq hüquq və ya daxili qanun üzrə heç bir hüquq və öhdəlik yaratmır. İştirakçılar bu Memorandumun maliyyə öhdəliyi daşımadığını xüsusi olaraq qəbul edirlər. İştirakçılar öz əlahiddə və unikal missiya və mandatlarını, məsuliyyət və hesabatlılıqlarını qoruyub saxlamaq niyyətindədirlər. Bu Memorandum çərçivəsində İştirakçılar arasında əməkdaşlığın tərəfdaşlıq və ya digər hüquqi şəxs və ya qurum kimi təfsir edilməsi nəzərdə tutulmur. Hər bir İştirakçının bu Memorandumla bağlı çəkdiyi bütün xərcləri özü tərəfindən qarşılaması gözlənilir. İştirakçılar bu Memorandumu İştirakçılar arasında bu Memorandum imzalanmazdan əvvəl və ya sonra bağlanmış razılaşmalara xələl gətirmədən icra etmək niyyətindədirlər. Bu Memorandumda heç nəyin eksklüziv işçi münasibəti kimi təfsir edilməsi nəzərdə tutulmur.

5. Vaşinqton şəhərində 8 avqust 2025-ci il tarixində ingilis dilində iki orijinal nüsxədə imzalanıb.

**Azərbaycan Respublikası Hökuməti adından**

**Amerika Birləşmiş Ştatları Hökuməti adından**

## 24 il əvvəl "Əsrin müqaviləsi"nin "Faza-1" layihəsinə start verilib

Səhifə ⇨ 7

## Ali Sovet 1991-ci il avqustun 30-da tarixi qərar qəbul etmişdi



Səhifə ⇨ 5

## Anadilli mətbuatımızın öncül rəsmi nəşri – "Xalq qəzeti"

**"Xalq qəzeti" mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət "Kommunist" adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur. Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında "Xalq qəzeti"nin xidmətləri xüsusi qeyd olunmalıdır".**

**Heydər ƏLİYEV**
**Ümummilli lider**






Səhifə ⇨ 8

## Plastiklər üstümüzə qayıdır

*Bu tullantılar müasir dünyanın susqun fəlakətinə çevrilib*



**Plastik tullantılar XXI əsrin ən təhlükəli ekoloji problemlərindən biridir. Bu materialın geniş yayılmasının başlıca səbəbləri onun ucuzluğu, çoxfunksiyalılığı və davamlılığı olub. Müasir sənaye, istehlak və gündəlik həyatın, demək olar ki, bütün sahələrində onlardan istifadə edilir. Lakin bu rahatlığın və gərəkliyin yaratdığı ekoloji problem olduqca ağırdır. Çünki plastik təbiətdə yüz illərlə parçalanmayan, ətraf mühiti və canlı orqanizmləri təhlükəyə atan zərərli materialdır. Bugünkü reallıq göstərir ki, onlar təkcə təbiətə deyil, insan sağlamlığına və iqlimə də ciddi təsir göstərir.**

*(ardı 9-cu səhifədə)*

# Azərbaycan Respublikası vətəndaşlarının 2025-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

**1.** 2007-ci ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1995–2006-cı illərdə doğulmuş, yaşı 30-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2025-ci il oktyabrın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

**2.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2025-ci il oktyabrın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 29 avqust 2025-ci il**

# "Qarabağ" futbol klubuna maliyyə dəstəyi göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** UEFA Çempionlar Liqasının liqa mərhələsinə vəsiqə qazanması ilə əlaqədar Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Qarabağ" futbol klubuna 5,0 (beş) milyon manat ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 29 avqust 2025-ci il**

# O.R.Hüseynzadəyə şiddətli töhmət elan edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Orxan Rüfət oğlu Hüseynzadəyə işində yol verdiyi ciddi nöqsanlara görə şiddətli töhmət elan edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 29 avqust 2025-ci il**

# Türkiyənin Zəfər bayramı və Silahlı Qüvvələr Günü qeyd edilib



**Avqustun 29-da Türkiyənin Azərbaycandakı səfirliyi ölkəsinin Zəfər bayramı və Silahlı Qüvvələr Günü münasibətilə rəsmi qəbul təşkil edib.**

Tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib. Daha sonra Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün Prezident Rəcəb Tayyib Ərdoğanın 30 Avqust - Zəfər bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Səfir türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi Zəfər qazandığını qeyd edərək ölkəsinin 103 il bundan əvvəl başlatdığı mübarizənin uğurla başa çatdığını vurğulayıb. Birol Akgün, həmçinin Azərbaycan və Ermənistan arasında əldə olunmuş sülh razılaşmalarını yüksək qiymətləndirərək alqışladıqlarını vurğulayıb.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev bildirib ki, Türkiyənin Qurtuluş savaşında qazandığı Zəfər qardaş ölkənin zəngin tarixinin ən şərəfli səhifələrindən biridir. O, diqqətə çatdırıb ki, hazırda Azərbaycan ilə Türkiyə arasında münasibətlər ən yüksək səviyyədədir. "Əlaqələrimizin bu səviyyəyə çatmasında Azərbaycanın və Türkiyənin prezidentlərinin müstəsna rolu var. Ölkələrimiz arasında olan tarixi, dini, iqtisadi, mədəni və digər əlaqələr hərbi sahədə əməkdaşlığımızın inkişafı üçün yeni imkanlar açır", - deyə general-polkovnik vurğulayıb.

***XQ***

# Baş prokuror paytaxtın Nəsimi rayonunda vətəndaşlarla görüşüb



**Avqustun 29-da Baş prokuror Kamran Əliyev Bakı şəhəri Nəsimi Rayon Prokurorluğunun inzibati binasında Nəsimi rayonundan və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**

Qəbulda iştirak edən 38 nəfər vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı, törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları və məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsinə dair məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

***XQ***

# İşğaldan azad olunmuş ərazilərdə tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında və sərəncamlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında tullantıların idarə edilməsi sisteminin müasir tələblərə uyğun inkişafının təmin edilməsi və bu fəaliyyətin işğaldan azad olunmuş ərazilərdə sistemli həyata keçirilməsi məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. işğaldan azad edilmiş ərazilərdə əmələ gələn bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması aşağıdakı publik hüquqi şəxslər tərəfindən həyata keçirilir:

1.1.1. Şuşa şəhəri və Şuşa rayonu üzrə – Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi;

1.1.2. Cəbrayıl, Qubadlı və Zəngilan rayonları üzrə – Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti;

1.1.3. Ağdam, Füzuli və Xocavənd rayonları üzrə – Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti;

1.1.4. Laçın rayonu üzrə – Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti;

1.1.5. Xankəndi şəhəri, Ağdərə və Xocalı rayonları üzrə – Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidməti;

1.1.6. Kəlbəcər rayonu üzrə – Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti.

1.2. "Təmiz şəhər" Açıq Səhmdar Cəmiyyətinin işğaldan azad edilmiş ərazilərdə əmələ gələn bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması ilə bağlı bütün əmlakı müvafiq olaraq bu Fərmanın 1.1.1 – 1.1.6-cı yarımbəndlərində qeyd olunan publik hüquqi şəxslərin balansına verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Fərmanın 1.1-ci bəndində göstərilən işlərin həyata keçirilməsinin maliyyələşdirilməsi üçün növbəti illərin dövlət büdcəsi layihələrində müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin;

2.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 1375 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 590 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28, № 3, maddə 228) ilə təsdiq edilmiş "Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin Nizamnaməsi"nin 3.1.1-7 – 3.1.1-15-ci yarımbəndləri müvafiq olaraq 3.1.1-8 – 3.1.1-16-cı yarımbəndlər hesab olunsun və aşağıdakı məzmunda 3.1.1-7-ci yarımbənd əlavə edilsin:

"3.1.1-7. rayon ərazisində və müvafiq ərazidə bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması işlərini həyata keçirmək;".

**4.** "Tullantıların idarə edilməsi sahəsində əlavə tədbirlər və "Məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 2 iyul tarixli 1735 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 724 (Cild I) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənddə "Bakı şəhərinin Qala qəsəbəsinin" sözləri "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun" sözləri ilə əvəz edilsin;

4.2. 1.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"1.2. işğaldan azad edilmiş ərazilərdə əmələ gələn bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi.";

4.3. 1.3-cü bənd ləğv edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1756 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 745 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28) ilə təsdiq edilmiş "Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.8-1-ci yarımbənd əlavə edilsin:

"3.1.8-1. müvafiq ərazidə bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması işlərini həyata keçirmək;".

**6.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 21 iyul tarixli 1757 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 7, maddə 746 (Cild I); 2024, № 4, maddə 373; 2025, № 1, maddə 28) ilə təsdiq edilmiş "Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.8-1-ci yarımbənd əlavə edilsin:

"3.1.8-1. müvafiq ərazidə bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması işlərini həyata keçirmək;".

**7.** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 may tarixli 2151 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 5, maddə 655 (Cild I); 2024, № 4, maddə 373, № 7, maddə 794; 2025, № 1, maddə 28) ilə təsdiq edilmiş "Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.8-1-ci yarımbənd əlavə edilsin:

"3.1.8-1. müvafiq ərazidə bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması işlərini həyata keçirmək;".

**8.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 aprel tarixli 25 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 4, maddə 372; 2025, № 1, maddə 28; Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 31 iyul tarixli 458 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.8-1-ci yarımbənd əlavə edilsin:

"3.1.8-1. müvafiq ərazidə bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması işlərini həyata keçirmək;".

**9.** Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 iyul tarixli 134 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 7, maddə 793; 2025, № 1, maddə 28) ilə təsdiq edilmiş "Kəlbəcər rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.8-1-ci yarımbənd əlavə edilsin:

"3.1.8-1. müvafiq ərazidə bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması işlərini həyata keçirmək;".

**10.** "Tullantılarla bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 8, maddə 750 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

10.1. 2-ci hissə üzrə:

10.1.1. 2.1-ci bənddə "Bakı şəhərinin Qala qəsəbəsinin" sözləri "Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun" sözləri ilə əvəz edilsin;

10.1.2. 2.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.2. işğaldan azad edilmiş ərazilərdə əmələ gələn bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yerləşdirilməsi və zərərsizləşdirilməsi.";

10.1.3. 2.3-cü bənd ləğv edilsin.

10.2. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bakı şəhərinin ərazisində ("Qala" Dövlət Tarix-Etnoqrafiya Qoruğunun ərazisi istisna olmaqla) əmələgəlmə mənbəyindən asılı olmayaraq bərk məişət tullantılarının, habelə digər təhlükəsiz bərk tullantıların yığılması və daşınması Bakı Şəhər İcra Hakimiyyətinə həvalə edilsin.".

**11.** "Məişət tullantıları ilə bağlı idarəetmə sahəsində bəzi məsələlərin tənzimlənməsi və "Bakı şəhərində məişət tullantıları ilə bağlı idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 avqust tarixli 2983 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 iyun tarixli 2701 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 6 (I kitab), maddə 631 (Cild I) 1-ci hissəsinə "şəhərinin" sözündən sonra "və Şuşa rayonunun" sözləri əlavə olunsun və həmin hissədən "bütün", "yığılmasını, daşınmasını," sözləri çıxarılsın.

**12.** Bu Fərman 2026-cı il yanvarın 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 29 avqust 2025-ci il**

# Azərbaycan və Ermənistanla imzalanmış sənədlər Dövlət Departamentinin saytında dərc edilib

**Amerika Birləşmiş Ştatları Ermənistan və Azərbaycanla imzalanmış sənədləri, eləcə də Prezident Trampın avqustun 8-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyanla birgə görüşünün yekun sənədini Dövlət Departamentinin saytında dərc edib.**




Dövlət Departamentinin verdiyi məlumata görə, sənədlərə Azərbaycan Prezidenti və Ermənistan Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərindəki görüşünün yekunlarına dair Birgə Bəyannamə, Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın hazırlanması üçün Strateji İşçi Qrupun yaradılması ilə bağlı Amerika Birləşmiş Ştatları Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında Anlaşma Memorandumu və Ermənistanla imzalanmış anlaşma memorandumları daxildir.

Azərbaycana aid sənədlərlə aşağıdakı linklər vasitəsilə tanış olmaq mümkündür.

https://www.state.gov/wp-content/uploads/2025/08/2025JointDeclaration.AzerbaijanArmenia.pdf

https://www.state.gov/wp-content/uploads/2025/08/2025MOUAzerbaijan.pdf

# Daxili işlər naziri Xaçmazda qəbul və sıra baxışı keçirib





**Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına və bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 28-də və 29-da Xaçmaz Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.**

Nazir əvvəlcə ümummilli lider Heydər Əliyevin Xaçmaz rayonundakı abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib.

Sonra rayon polis şöbəsinin inzibati binasında Xaçmaz, Quba, Qusar, Şabran, Siyəzən, Xızı və digər rayonlardan gələn 409 vətəndaşın müxtəlif məsələlərlə bağlı müraciətləri dinlənilib.

Nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. Vətən müharibəsinin 27 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 335 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# Aİ–Cənubi Qafqaz münasibətlərinin hədəfləri

## Dəyişən prioritetlər və yeni mərhələyə keçid

**Avropa İttifaqı ilə Cənubi Qafqaz ölkələrinin münasibətləri tarixi baxımdan daim dəyişkən olub. Bir tərəfdən, Brüssel regionu Şərq Tərəfdaşlığı çərçivəsində Avropa dəyərlərinin və iqtisadi əməkdaşlığın “yaxın qonşuluq zonasına” daxil etmək istəyib, digər tərəfdən Cənubi Qafqaz dövlətləri də öz milli maraqlarına uyğun olaraq Aİ-dən fərqli gözləntilər irəli sürüblər: Gürcüstan üçün əsas məsələ Avroatlantik inteqrasiya olub, Ermənistan daha çox təhlükəsizlik zəmanətlərinə ümid bəsləyib, Azərbaycan isə iqtisadi və enerji əməkdaşlığını prioritet seçib.**




Hazırkı mərhələdə bu münasibətlərin tonunu dəyişdirən əsas faktor Azərbaycanın yeni siyasi kursudur. Bakı artıq yalnız enerji təchizatçısı rolunda görünmür, əksinə, regional sabitlik, diplomatik vasitəçilik və nəqliyyat-kommunikasiya layihələri sahəsində də təşəbbüskar mövqe sərgiləyir. Rəsmi Bakı Aİ üçün yeni bir reallıq yara-



dır: Azərbaycan Avropanın yalnız iqtisadi maraqlarını təmin edən tərəfdaş deyil, həm də Cənubi Qafqazda siyasi dinamikanı formalaşdıran aparıcı oyunçuya çevrilib.

Bəs Aİ üçün Cənubi Qafqaz hansı dərəcədə prioritetdir və Azərbaycan bu prioritetlərin reallaşmasında hansı imkanları açır? Brüsselin Cənubi Qafqaza baxışı birbaşa onun qlobal strateji gündəliyindən qaynaqlanır. Avropa üçün region ilk növbədə enerji təhlükəsizliyi, alternativ marşrutların yaradılması və Şərq Tərəfdaşlığının dayanıqlılığı baxımından önəmlidir. Rusiya–Ukrayna müharibəsi Avropanı enerji xəritəsini yenidən çəkməyə məcbur edib və məhz bu şəraitdə Azərbaycan özünü “vacib alternativ mənbə” kimi təsdiqləyib.

Lakin buradakı incə məqam budur ki, Azərbaycanın təşəbbüsləri, sadəcə enerji tədarükü ilə məhdudlaşmır. Bakı həm də “yaşıl enerji” layihələri, elektrik və rəqəmsal kabel xətləri, nəqliyyat dəhlizlərinin şaxələndirilməsi vasitəsilə Avropa ilə daha çoxsahəli əməkdaşlıq platforması qurur. Beləliklə, Azərbaycan yalnız Brüsselin maraqlarına uyğunlaşan tərəfdaş yox, həm də yeni əməkdaşlıq çərçivəsi formalaşdıran aktor qismində çıxış edir.

*

Uzun müddət Aİ–Azərbaycan münasibətlərinin mərkəzində enerji amili dayanıb. Bakı Avropaya qaz ixracı və enerji infrastrukturu ilə Avropanın “təhlükəsiz enerji təchizatçısı” imicini möhkəmləndirib. Lakin son illərin prosesləri göstərir ki, Azərbaycan bu rolu sadəcə iqtisadi üstünlüyün aləti kimi saxlamır, əksinə, onun üzərinə siyasi tərəfdaşlıq məzmunu da əlavə edir.

Dəyişikliyin başlanğıcı 2022-ci ilin iyulunda imzalanmış Aİ–Azərbaycan arasında strateji enerji tərəfdaşlığı bəyannaməsi ilə qoyuldu. İlk baxışda sənəd qaz həcmlərinin artırılması, infrastrukturun genişləndirilməsi kimi texniki məsələləri əhatə edirdi. Amma mahiyyətcə bəyannamə daha genişdir: burada yaşıl keçid, alternativ enerji, enerji səmərəliliyi və iqtisadi modernizasiya ilə bağlı müddəalar yer alıb. Bütün bunlar Bakının Avropanın “yaşıl transformasiya” gündəliyinə qoşulmaq istədiyini göstərir.

Buradan sual yarana bilər ki, Azərbaycanın siyasi tərəfdaşlıq statusu nə dərəcədə realdır və bu, Aİ üçün nə ifadə edir? Cavab bir neçə istiqamətdə axtarıla bilər. Birincisi, Qarabağ münaqişəsindən sonrakı dövrdə Bakı həm Ermənistanla sülh müqaviləsi ideyasını gündəmdə saxladı, həm də regionda yeni əməkdaşlıq platformaları – xüsusilə nəqliyyat dəhlizlərinin açılması istiqamətində təşəbbüslər irəli sürdü. Sülh Aİ üçün vacibdir, çünki Brüssel “dondurulmuş münaqişələrin” sabitlik risklərini yaxşı bilir. İkincisi, Azərbaycan Qərb və Rusiya, həmçinin Avropa və Türkiyə arasında körpü rolunu oynayır və bu amil Aİ üçün Bakını vacib dialoq tərəfdaşına çevirir. Üçüncüsü isə Avropa şirkətləri Azərbaycanda təkcə enerji sektoruna deyil, həm də rəqəmsal infrastruktur, kənd təsərrüfatı və nəqliyyat sahələrinə investisiya marağı göstərirlər. Bu da münasibətlərin siyasi-iqtisadi dərinləşməsinə zəmin yaradır. Beləliklə, Azərbaycan artıq “enerji tranzit ölkəsi” stereotipindən çıxaraq strateji siyasi tərəfdaş mövqeyini gücləndirir. Prosesin uğuru həm Brüsselin Cənubi Qafqaza baxışından, həm də Bakının təşəbbüskar siyasətini davam etdirməsindən asılı olacaq.

*

Aİ-nin Cənubi Qafqaz siyasəti bir qayda olaraq bütün regionu əhatə etsə də praktiki müstəvidə Azərbaycan faktorunun Ermənistan və Gürcüstan üçün yaratdığı təsirlər aydın görünür. Brüssel hər üç ölkə ilə əməkdaşlığı paralel aparmağa çalışsa da Bakı təşəbbüsləri faktiki olaraq regiondakı inteqrasiya xəritəsini dəyişdirir.

Əvvəlcə Gürcüstan məsələsinə baxaq. Azərbaycan–Gürcüstan tərəfdaşlığı uzun illərdir ki, Avropanın enerji və nəqliyyat təhlükəsizliyinin dayaqlarından birinə çevrilib. Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri və Bakı–Tbilisi–Qars dəmir yolu layihələri Gürcüstanı Avropa ilə birbaşa inteqrasiyanın “körpü ölkəsi” edib. Burada Azərbaycan Gürcüstanın iqtisadi dayanıqlığını gücləndirən əsas aktordur. Brüssel üçün bu, Tbilisinin Avroatlantik meyillərinə əlavə dəstəkdir. Çünki Avropa enerji və ticarət marşrutlarının təhlükəsizliyi Tbilisinin Qərbə daha sıx bağlanmasını stimullaşdırır.

Bəs Azərbaycanın təşəbbüsləri Ermənistan üçün hansı yeni reallıqları yaradır? Cavab burada daha mürəkkəbdir. Qarabağ münaqişəsindən sonra Bakı ortaya yeni seçim məntiqi qoyub. Ermənistan ya qapalı sərhədlərin və regional təcridin yaratdığı dalana davam etməli, ya da əməkdaşlıq müstəvisinə qoşularaq həm Azərbaycanla, həm də Avropa ilə daha geniş inteqrasiya imkanları qazanmalıdır. Aİ baxımından bu, mühüm bir imkandır: Brüssel Ermənistanı siyasi və iqtisadi modernizasiyaya təşviq edə bilər, amma bunun reallaşması üçün İrəvanın normal qonşuluq siyasətinə keçidi qaçılmaz görünür.

Burada analitik məqam ondan ibarətdir ki, Azərbaycan faktiki olaraq Aİ üçün regional inteqrasiyanın açarı rolunu oynayır. Gürcüstanın Qərbə yaxınlaşması Bakının layihələri ilə daha sürətli gedir, Ermənistanın Avropaya inteqrasiya imkanları isə Bakının sülh və əməkdaşlıq təşəbbüslərinə reaksiyasından asılıdır. Başqa sözlə, Aİ–Cənubi Qafqaz münasibətlərində Azərbaycan sadəcə bir tərəfdaş deyil, həm də Brüsselin regiondakı siyasətini balanslaşdıran və yönləndirən əsas oyunçu mövqeyinə çıxır.

*

Azərbaycanın Aİ ilə münasibətlərində son illər formalaşdırdığı əsas siyasi çərçivə “pozitiv qarşılıqlı istəklər” məntiqinə söykənir. Bu nə deməkdir? Ənənəvi “sıfır cəmi” yanaşmasından fərqli olaraq, tərəflər əməkdaşlığı bir-birinin maraqlarını minimallaşdırmaq üzərində deyil, çarpaz faydanı maksimumlaşdırmaq üzərində qururlar. Sözügedən amil həm danışıq dilini yumşaldır, həm gündəliyi texniki sektoral layihələrdən siyasi strateji sinerjiyə doğru genişləndirir. Bu yanaşma Aİ və Azərbaycan üçün praktik olaraq nə qazandırır?

Burada 3 əsas üstünlük görünür. Birincisi, enerji təhlükəsizliyinin davamlı şaxələndirilməsi – qazın həcmi, elektrik ötürücü xətləri, “yaşıl enerji” layihələri (Xəzərdən bərpaolunan enerji potensialının Avropaya inteqrasiyası) kimi sahələr Brüssel üçün riskləri azaldır. İkincisi, regional sabitlik: Bakı sülh gündəliyini aktiv saxladıqca, Cənubi Qafqazda eskalasiya ehtimalı aşağı düşür, Aİ-nin Şərq Qonşuluğu siyasəti daha proqnozlaşdırıla bilən olur. Üçüncüsü, nəqliyyat-kommunikasiya dəhlizləri: Orta Dəhliz və paralel logistik həllər Avropanın Asiya ilə ticarət xəritəsində strateji manevr imkanlarını genişləndirir.

Azərbaycan tərəfi üçün də bu xəttin məntiqi aydındır. Birincisi, Avropa bazarlarına dərin çıxış və kapital/texnologiya transferi üçün institusional çərçivə möhkəmlənir. İkincisi, siyasi balans siyasəti güclənir: Bakı Aİ ilə əməkdaşlıq etməklə regional və qlobal güclər arasında manevr sahəsini geniş saxlayır. Üçüncüsü, modernizasiya gündəliyi – yaşıl keçid, rəqəmsal infrastruktur, sənayeləşmə və insan kapitalı layihələri üzrə Avropa standartlarına yaxınlaşma daxili transformasiyanı sürətləndirir.

Aİ-nin daxili siyasi dinamizmi (enerji keçidi, təhlükəsizlik arxitekturası, seçki tsiklləri) bu modelə necə təsir göstərir? Risklər realdır – enerji keçidinin sürəti, tənzimləyici çərçivələrin yenilənməsi və üzv dövlətlərin fərqli prioritetləri zaman-zaman layihələri ləngidə bilər. Lakin məhz “pozitiv qarşılıqlı istəklər” xətti bu fraqmentasiyanı kompensasiya edir: müxtəlif üzv ölkələrlə ikili səviyyədə (Almaniya, İtaliya, Rumıniya, Macarıstan və s.) paralel əməkdaşlıq kanalları açmaqla ümumi Aİ çərçivəsi tamamlanır, layihələrin dayanıqlığı artır.

Son olaraq, ictimai legitimlik ölçüsü də diqqətəlayiqdir. Yəni əməkdaşlıq cəmiyyətlərdə necə qəbul olunur? Şəffaflıq, sosial təsir qiymətləndirməsi və regional inklüzivliyin (Gürcüstan, potensial olaraq Ermənistan) təmin edilməsi ictimai dəstəyi yüksəldir. Bir sözlə, “pozitiv qarşılıqlı istəklər” yalnız elit razılaşmalara söykənməməli, həm də real sosial-iqtisadi fayda kimi hiss edilməlidir. Nəticə etibarilə, əgər tərəflər “pozitiv qarşılıqlı istəklər” xəttini davamlı siyasi kursa çevirə bilsələr, münasibətlər enerji əməkdaşlığının sərhədlərini aşaraq diplomatik sabitlik, iqtisadi modernizasiya və texnoloji inteqrasiyanın yeni üfüqlərini aça bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# İran–Azərbaycan: enerji əməkdaşlığında strateji ortaqlıq

**Azərbaycan və İran arasında münasibətlərin sabit və strateji əsas üzərində inkişafı son illərdə liderlər səviyyəsində qurulan qarşılıqlı anlayış və əməkdaşlıq sayəsində daha da möhkəmlənib. Prezident İlham Əliyevin balanslı və praqmatik regional siyasəti İranla münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçməsinə şərait yaradıb. Bu il İran Prezidenti Məsud Pezeşkianın Bakıya iki səfərində aparılan danışıqlar və imzalanan sənədlər ölkələrarası əlaqələrin perspektivinə işıq saldı.**



İkitərəfli münasibətlərin əsas istiqamətlərindən biri də energetika sahəsində qurulan əməkdaşlıqdır. Azərbaycan və İran arasında uzun illər davam edən enerji tərəfdaşlığı bu gün də strateji əhəmiyyətini qoruyub saxlayır. Son məlumata əsasən, Azərbaycan Naxçıvan Muxtar Respublikasına qaz tədarükü məqsədilə İranla mövcud mübadilə mexanizminin müddətini ortamüddətli əsasda uzadıb. Eyni zamanda bu çərçivədə Türkmənistan qazının istifadəsi də davam etdiriləcək. Sözügedən qərar yalnız Azərbaycanın enerji təhlükəsizliyinin təminatı baxımından deyil, həm də regionda iqtisadi və siyasi əməkdaşlığın dərinləşməsi kontekstində xüsusi önəm daşıyır.

2005-ci ildən qüvvədə olan qarşılıqlı qaz mübadiləsi sazişinə əsasən, Azərbaycan Astaradakı qaz-kompressor stansiyası vasitəsilə İrana qaz ötürür, İran isə bu qazın qarşılığında öz ərazisindən keçən nəqliyyat marşrutundan Culfa vasitəsilə Naxçıvana qaz nəql edir. Bu “swap” (dəyiş-düyüş) mexanizmi Azərbaycanın əsas hissəsindən coğrafi baxımdan təcrid olunmuş Naxçıvan üçün uzun illər enerji ilə təminatın sabitliyini və dayanıqlığını təmin edən əsas vasitə olub.

Naxçıvanın xüsusi geosiyasi mövqeyi, yəni Azərbaycanın əsas ərazisindən ayrı qalması və yalnız İran, Türkiyə və Ermənistanla həmsərhəd olması onun enerji təhlükəsizliyini daim ön planda saxlayır. Regionun təbii qazla təminatında İrandan keçən marşrutun əhəmiyyəti bu baxımdan həyati əhəmiyyət daşıyır. Bu mexanizm təkcə enerji tədarükü baxımından deyil, həm də regional əməkdaşlığın və qarşılıqlı etimadın formalaşmasında mühüm rol oynayıb.

Mövcud müqavilənin müddətinin 2025-ci ildə başa çatacağı nəzərə alınaraq, tərəflər öncədən danışıqlara başlayaraq yeni saziş imzalamağa razılaşıblar. Yeni razılaşmaya əsasən, Naxçıvana gündəlik 1 milyon kubmetrədək qaz nəql ediləcək. Müqayisə üçün qeyd edilməlidir ki, əvvəlki illərdə bu rəqəm gündəlik 6 milyon kubmetrə qədər yüksəlmişdi. Bu azalma Naxçıvanda alternativ enerji marşrutlarının yaradılması və tələbatın optimallaşdırılması ilə izah olunur.

Yeni sazişin daha sərfəli və çevik şərtlərlə həyata keçirilməsi isə həm iqtisadi, həm də logistik baxımdan tərəflər üçün əlavə üstünlüklər yaradır. Əvvəla, bu əməkdaşlıq Azərbaycan üçün Naxçıvanın enerji təminatında çevik manevr imkanlarını artırır. İrandan keçən “swap” mexanizmi Naxçıvana enerji çatdırılmasını real vaxt rejimində tənzimləməyə şərait yaradır ki, bu da xüsusilə qış aylarında və enerji tələbatının artdığı dövrlərdə vacibdir.

Digər tərəfdən, bu mexanizm İran üçün də əhəmiyyətlidir. İran qaz infrastrukturundan istifadə etməklə həm tranzit gəlirləri əldə edir, həm də qonşu dövlətlərlə enerji sahəsində qarşılıqlı faydalı əməkdaşlıq nümunəsi yaradır. Bu isə İranın regiondakı enerji oyunçusu kimi nüfuzunun artmasına xidmət edir.

Bununla belə, Azərbaycan və İran arasında bu tip enerji razılaşmaları təkcə konkret qaz tədarükü məsələləri ilə məhdudlaşmır. Bu, eyni zamanda geosiyasi əhəmiyyətə malik olan, sabitlik və qarşılıqlı etimada əsaslanan əməkdaşlıq modelidir. Yeni sazişin imzalanması bu əlaqələrin uzunmüddətli xarakter daşıdığını və tərəflərin gələcəyə strateji baxışla yanaşdığını göstərir.

Əməkdaşlığın digər mühüm elementi Türkmənistan qazının bu mexanizmdə iştirakı ilə bağlıdır. İran Türkmənistandan aldığı qazın bir hissəsini daxili ehtiyacları üçün istifadə edir, digər hissəsini isə Naxçıvana yönəldir. Azərbaycan isə bunun qarşılığında İrana qaz verir. Beləliklə, bölgədə enerji resurslarının səmərəli dövriyyəsi təmin olunur. Qeyd edək ki, Türkmənistan qazının dünya bazarlarına çıxışının məhdud olması, onun qiymətinin nisbətən aşağı olmasına səbəb olur. Bu isə Azərbaycan üçün həm iqtisadi, həm də strateji üstünlüklər yaradır. Azərbaycanın daxili qaz tələbatının bir hissəsi ucuz türkmən qazı ilə qarşılandığı üçün ölkənin enerji resurslarına qənaət etmək imkanı yaranır. Eyni zamanda yerli hasilat olan qaz daha yüksək qiymətlərlə dünya bazarlarına ixrac edilir ki, bu da Azərbaycanın ticarət balansına müsbət təsir göstərir və ölkənin enerji sektorunun davamlı inkişafına şərait yaradır.

Mövzu ilə bağlı **Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun şöbə müdiri, Mahir Zeynalov** XQ-yə bildirdi ki, “swap” mexanizminin üstünlüklərindən



biri də regionun enerji təhlükəsizliyinin artırılmasıdır: “Enerji tədarükünün müxtəlif mənbələrdən və fərqli marşrutlarla təmin olunması, mümkün təchizat pozuntularının və kəsintilərin riskini azaldır. Bu, xüsusilə enerji siyasətində risklərin diversifikasiyası baxımından vacibdir və regional sabitliyə müsbət təsir göstərir. Həmçinin bu əməkdaşlıq modeli regionun enerji infrastrukturunun qarşılıqlı inteqrasiyasına, yeni investisiya imkanlarının açılmasına və enerji bazarlarının inkişafına təkan verir.

Bölgədə enerji resurslarından səmərəli istifadə və dövriyyənin təmin edilməsi, iqtisadi inteqrasiya proseslərini sürətləndirir və diplomatik münasibətləri möhkəmləndirir. Azərbaycan, İran və Türkmənistan arasında bu cür innovativ və qarşılıqlı faydalı əməkdaşlıq modelləri, enerji sektorunda qarşılıqlı asılılıq yaratmaqla, uzunmüddətli strateji tərəfdaşlıq üçün güclü zəmin yaradır.

Nəticə etibarilə, “swap” mexanizmi enerji resurslarının optimal istifadəsi və iqtisadi faydaların maksimuma çatdırılması baxımından region üçün vacib bir modeldir. Bu, həmçinin Azərbaycan üçün həm daxili bazarın effektiv təminatında, həm də dünya enerji bazarlarında rəqabət qabiliyyətinin artırılmasında mühüm rol oynayır”.

Ekspert onu da qeyd etdi ki, Azərbaycan 2016-cı ildən bəri türkmən qazını birbaşa ala bilmədiyi üçün bu təchizatı İran vasitəsilə həyata keçirir: “Burada birbaşa ticarət deyil, “swap”, yəni, dəyiş-düyüş mexanizmi tətbiq olunur. Bundan başqa, Naxçıvan 2025-ci ilin mart ayından etibarən Türkiyənin İğdır bölgəsindən Sədərəyə uzanan yeni boru kəməri ilə qaz alır. Bu, sadəcə kəmər deyil, “bir millət-iki dövlət” arasında qardaşlığı, dostluğu möhkəmləndirən növbəti bağdır.

Gündəlik ötürmə gücü 2 milyon kubmetr olan bu xətt Naxçıvanın illik qaz tələbatını tam şəkildə ödəyə biləcək. Bu layihə enerji təchizatının şaxələndirilməsi baxımından mühüm addımdır. Həm İran, həm də Türkiyə üzərindən qaz ala biləcək Naxçıvan bundan sonra daha etibarlı enerji təminatına sahib olacaq. Bu, həm də Azərbaycanın regional enerji siyasətindəki manevr imkanlarını genişləndirir. Gələcəkdə kəmərlə əks istiqamətdə də axın mümkündür ki, bu da perspektivdə kəmərin Zəngəzur üzərindən yeni reallıq yaradacağı ehtimalını artırır”.

M.Zeynalov bildirdi ki, İran–Azərbaycan enerji əməkdaşlığı bu ikitərəfli münasibətlərin əsas sütunlarından birinə çevrilib. Bu əməkdaşlıq formatı regional həmrəylik, iqtisadi səmərəlilik və qarşılıqlı etimada əsaslanır. Liderlər səviyyəsində formalaşan anlayış və pozitiv ritorika isə əməkdaşlığın uzunmüddətli davamlılığını təmin edən əsas amillərdir.

***Ə.PÜNHAN***
***XQ***

# Sədr əl çəkir, həmsədr isə inad göstərir...

## *ATƏT-in ölü doğulmuş Minsk qrupu ilə bağlı son qərarı Rusiya verəcəkmi?*

**Bu, həmin Rusiyadır ki, Minsk qrupunun üç həmsədrindən biri kimi 30 ilə yaxın müddətdə tərəflər arasında silahlı qarşıdurma həddinə çatmış ərazi probleminin dinc yolla həllinə nail olmaq əvəzinə, danışıqlar prosesinin bütün mərhələlərində ermənilərə gizlincə dəstək vermiş, Cənubi Qafqazda gecpartlayan "barıt çəlləyi" kimi düşündüyü Qarabağ münaqişəsini uzun müddətə konservləşdirməkdən ötrü hər cür oyundan çıxmışdır. İndi bölgədə təsir dairəsi kiçilən, sülh prosesindən kənarlaşdırılan Moskva Ermənistan və Azərbaycan arasında yekun sülhə, deməli, sabitliyə və əməkdaşlığa səbəb olacaq sazişin imzalanmasına hər vəchlə mane olmağa çalışır. Keçmiş həmsədrin əl atdığı belə cəhdlərdən biri də ATƏT-in Minsk qrupunun ləğvini ləngitməkdir. Hətta ATƏT sədrinin dəftərxanası Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin məlum birgə müraciətinə pozitiv yanaşdığını, sentyabrın 1-də bu məsələyə baxılacağını rəsmən elan etsə də, həmsədrlərdən biri cığallığından əl çəkmək istəmir.**

Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi Aleksandr Likaşeviç Minsk qrupunun nə vaxt ləğv olunacağı ilə bağlı açıqlama verib. Moskvanın Avropanın bu qurumdakı elçisinin bəyanatına keçməzdən övvəl onu qeyd edək ki, 30 ildən artıq müddətdə Qarabağda "sülhyaratma" misiyası ilə səmərəsiz məşğul olan bu qrup 3 ildir ki, faktiki olaraq işləmir. Bu qrupun arxivə göndərilməsi yubanır...

ARAYIŞ: Minsk qrupu Dağlıq Qarabağ münaqişəsinin həlli üçün ATƏT-ə əsaslanan formatdır. 1990-cı illərin əvvəllərindən fəaliyyət göstərir. Onun üç həmsədri var idi: Rusiya, ABŞ və Fransa. Bundan başqa, daimi üzvlər: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Türkiyə, Finlandiya və İsveç. Qrupun vəzifəsi Bakı və İrəvan arasında dinc danışıqları təmin etmək, onlara sülh sazişi bağlamaqda kömək göstərmək, sonra isə regionda ATƏT-in sülhməramlı qüvvələrini yerləşdirmək olub. Həmsədrlərin sonuncu birgə bəyanatlarını 7 dekabr 2021-ci il tarixdə veriblər. 2022-ci ildən Minsk qrupu faktiki olaraq fəaliyyətsizdir.

*

"Rusiya Azərbaycan və Ermənistanın Qarabağ münaqişəsinin həllində iştirak etmiş Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının (ATƏT) Minsk qrupunun ləğvi ilə bağlı birgə qərarını dəstəkləyir". Bunu mediaya Rusiyanın ATƏT-dəki daimi nümayəndəsi Aleksandr Lukaşeviç bildirib. Onun sözlərinə görə, Minsk qrupunun 2025-ci ilin dekabrına qədər ləğv edilməsi planlaşdırılır.

A.Lukaşeviçin açıqlamasından məlum olur ki, söhbət üç qurumun – Minsk qrupunun, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin səlahiyyətlərinin və yüksək səviyyəli planlaşdırma qrupunun işinin dayandırılmasından gedir. Prosesi beynəlxalq hüquq baxımından şərh edən rusiyalı diplomat "tərəflərin ATƏT-in məlum qurumlarının saxlanmasının məqsədəuyğun olmaması ilə bağlı mövqeyini nəzərə alsaq, onların ləğvinin qarşısını almaq üçün heç bir əsas görmürük" desə də yekun qərarın vaxtının uzadılmasının səbəbini o qədər də ağlabatan tərzdə oxucuya çatdırmağı bacarmayıb.

Xatırladaq ki, avqustun 26-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ATƏT-in Minsk qrupunun buraxılması ilə bağlı qərarın sentyabrın 1-də mərkəzi ofisə veriləcəyini bildirib. Onun sözlərinə görə, bu mexanizm uzun müddətdir ki, faktiki olaraq sülh prosesindən çıxarılıb. Minsk qrupunun buraxılması Azərbaycanın Ermənistanla sülh sazişi bağlamaq üçün irəli sürdüyü iki şərtdən biridir.

Digər şərt isə ondan ibarətdir ki, Ermənistan "Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə iddiaları" aradan qaldırmaq üçün öz konstitusiyasına dəyişiklik etməlidir. Onu da yada salaq ki, C.Bayramov və onun erməni həmkarı A.Mirzoyan avqustun 8-də Vaşinqtonda Minsk qrupu ilə bağlı ATƏT-ə birgə müraciət imzalayıb, avqustun 11-də isə qurumun ünvanına göndəriblər.

*

İndi Kremlin ATƏT-dəki daimi nümayəndəsi A.Lukaşeviç deyir ki, Minsk qrupunun ləğvi proseduru aşağıdakı formada həyata keçirilməlidir: ATƏT-in Daimi Şurası (siyasi məsləhətləşmələr üzrə əsas qərar qəbul edən orqan) təşkilatın üzvlərinə bu məsələ ilə bağlı nazirlərin qərarını təsdiqləməyi "sakit şəkildə razılaşdırmağı" tövsiyə edib; sentyabrın 1-dək qrupun buraxılmasına heç kim etiraz etməzsə, qərar qəbul edilmiş hesab oluna bilər. Ardınca rus diplomat qeyd edir: "Amma nəzərə almaq vacibdir ki, bu qərarın icrası ilə bağlı inzibati və maliyyə tədbirlərinin həyata keçirilməsi bir neçə ay çəkəcək. ATƏT bu ilin dekabrından gec olmayaraq onların başa çatdırılmasını gözləyir. Bundan sonra Dağlıq Qarabağ nizamlanmasının asanlaşdırılmasına cavabdeh olan hər üç struktur öz fəaliyyətini dayandırmalıdır".

Beləliklə, ATƏT-in Minsk qrupunun həmsədri Rusiyanın bu qurumdakı təmsilçisi demək istəyir ki, son qərar, ən yaxşı halda, 4 aydan sonra xarici işlər nazirlərinin illik toplantısında qəbul edilə bilər. Böyük müddət deyil, gözləyərik. Təki ilin sonuna qədər Moskvada təzə "velosiped icad eləməsinlər".

***İmran BƏDİRXANLI***
***XQ***



### Ekspert rəyi

**Fərid ŞƏFİYEV,**
**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri**



– Məsələnin hüquqi tərəfi ondan ibarətdir ki, ATƏT-də bütün qərarlar konsensus əsasında qəbul olunur. Əgər hər hansı ölkənin etirazı varsa, deməli, qərar qəbul edilmir. Bəli, İrəvan və Bakı Minsk qrupunun ləğvi ilə bağlı ATƏT birgə müraciət ünvanlayıb. Sentyabrın 1-də bu məsələyə baxılacaq. Amma ortaya belə bir sual çıxır ki, Rusiya nəyə görə qərarın ilin sonunda, dekabr ayında veriləcəyini açıqlayıb? ATƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin görüşü yüksək statuslu toplantı hesab olunur. Belə görüşlər bir qayda olaraq dekabr ayında baş verir. Elə büdcə məsələləri də həmin toplantılarda müzakirəyə çıxarılır. Bundan başqa, hər həftənin üçüncü günü ATƏT-dəki xarici ölkələrin səfirləri səviyyəsində görüşlər təşkil edilir. Ola bilsin ki, o görüşdə bizim müraciətimizə baxılsın. Əgər biz sentyabrın 1-də müraciətimizi onlara çatdırsaq, ATƏT tərəfindən qəbul edilsə də, maliyyə, büdcə ilə bağlı yekun qərar konsensus formada verilir.

Rusiyanın qurumdakı daimi nümayəndəsinin dediyi kimi, ortada baxılacaq 3 məsələ var. Birincisi, ATƏT-in Minsk qrupudur. İkincisi, ATƏT sədrinin bölgə üzrə xüsusi nümayəndəlik institutu var. Doğrudur, xüsusi nümayəndə Andjey Kasprşik artıq neçə ildir ki, heç bir fəaliyyət göstərmir. O, formal olaraq kağız üzərində qalıb. Bir də yüksək səviyyəli planlama qrupu mövcuddur. Belə başa düşürəm ki, bunların hamısı rəsmi şəkildə xarici işlər nazirlərinin dekabrda baş tutacaq görüşündə öz həllini tapacaq.

### Ekspert rəyi

**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**



– Rusiyanın xarici işlər naziri Sergey Lavrov bir müddət bundan əvvəl demişdi ki, Minsk qrupu artıq heç bir effekt vermir. Yəni, Qarabağ problemi həll olunub, məsələ bağlanıb və Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Artıq vəziyyət dəyişib. Bakı və İrəvan ABŞ Prezidenti Donald Trampın moderatorluğu ilə Vaşinqtonda sülh sazişini parafladılar. Təbii ki, bundan sonra Rusiyanın mövqeyində müəyyən dəyişiklik baş verdi. O səbəbdən ki, Moskva faktiki olaraq sülh danışıqları prosesindən uzaqlaşdırılıb. Onun vasitəçilik etmək səlahiyyəti sıfıra bərabərdir. Digər tərəfdən, Kreml belə hesab edir ki, əgər o, müharibənin sona çatmasını təsdiqləyən 2020-ci il 10 noyabr üçtərəfli Bəyanatın həmmüəlliflərindən biridirsə, gərək prosesdə axıra qədər iştirak edəydi. Məsələnin başqa tərəfi ondan ibarətdir ki, Azərbaycan–Rusiya münasibətləri kifayət qədər gərgindir. Hamıya aydındır ki, bunun səbəbkarı Azərbaycan deyil. Münasibətlərdəki bu gərginlik atmosferi Kremlin siyasi kursuna da öz təsirini göstərir.

Mənə elə gəlir ki, Moskva əlindən gələni edəcək ki, ATƏT-in Minsk qrupunun ləğv olunması prosesi ləngisin. Bundan ötrü gətirəcəyi bəhanələrin hamısı əsassız olacaq. Onsuz da gec-tez bu qrup ləğv ediləcək. Onun fəaliyyəti de-fakto başa çatıb. Əlbəttə, bu məsələdə Rusiyanın bu cür davranışının yalnız bir səbəbi var ki, o da bizə bəllidir. Guya, bu üsulla sülh prosesində özünün də rolunun böyük olduğunu göstərməyə çalışacaq. Düşünürəm ki, Kremlin vasitəçilikdən tamamilə uzaqlaşdırılması fəsadsız ötüşməyəcək.

Onu da qeyd edim ki, Qarabağı könüllü şəkildə tərk edən ermənilər Minsk qrupunun saxlanılması tələbi ilə ATƏT sədrinə müraciət göndəriblər. Təbii ki, bunun özü də Ermənistandakı rusiyayönlü qüvvələr tərəfindən təşkil olunan aksiyadır.

---

# İrəvan üçün seçim anı yaxınlaşır

## *Paşinyanın bəyanatı ölkənin yeni geosiyasi kurs seçdiyinin göstəricisi sayıla bilər*

**Ermənistan Baş naziri Nikol Paşinyanın bugünlərdə keçirdiyi mətbuat konfransında ölkənin xarici siyasət kursu ilə bağlı iki tarixi bəyanatla çıxış etdiyini desək, yəqin ki, mübaliğəyə yol vermiş olmarıq. Bu bəyanatların birində o qeyd edib ki, Avropa İttifaqı (Aİ) və Avrasiya İqtisadi İttifaqına (Aİİ) eyni vaxtda üzvlük mümkün deyil və İrəvan gec-tez yekun seçimini etməli olacaq. O, dolayısı ilə ölkəsinin Aİİ-dən çıxa biləcəyini istisna etməyib: "Biz başa düşürük ki, Avropa İttifaqı və Aİİ-yə eyni vaxtda üzv olmaq mümkün deyil. Son seçim anı gələndə müvafiq qərar verəcəyik".**

Digər bəyanatında isə Paşinyan Ermənistan, Azərbaycan və Rusiya liderlərinin 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatının qüvvədən düşdüyünü bildirib. Bildirib ki, üçtərəfli Bəyanata qayıtmağa ehtiyac yoxdur. Çünki həmin sənəd keçmişdə qalıb: "10 noyabr 10 noyabrda qaldı".

Əslində, hayların baş naziri çoxdan məlum olan həqiqəti açıq etiraf edib: Ermənistan öz gələcək taleyini müəyyən edəcək seçim qarşısındadır. İrəvan istənilən halda tədricən Rusiya təsirindən qurtulmağa üstünlük verir. Bu, nəinki, sadəcə, gözlənilən, həm də tamamilə məntiqlidir. Çünki dövlət müstəqilliyini bərpa etdikdən sonrakı onilliklər ərzində Ermənistan Moskvadan ciddi asılılıq şəraitində yaşayıb. Bir sıra amillər bunu təsdiq etməkdədir. Əvvəla, ölkə ərazisində – ikinci böyük şəhər olan Gümrüdə hələ də Rusiya hərbi bazası var. 102 saylı baza Rusiya Silahlı Qüvvələrinin Cənub Hərbi Dairəsinin tabeliyindədir. Onun şəxsi heyətinin sayı bir neçə min nəfərdən ibarətdir.

Eyni zamanda, Ermənistanın İran və Türkiyə ilə sərhədi də Rusiya sərhədçiləri tərəfindən qorunur ki, bu, müstəqil, suveren dövlətə yaraşmayan haldır. Cəmi bir il öncəyədək "Zvartnots" beynəlxalq hava limanında da rusiyalı sərhədçilər xidmət edirdilər. 2024-cü il iyulun 31-də 1992-ci ildən limanın nəzarət-buraxılış məntəqəsində işləyən rus sərhədçiləri Ermənistan Respublikası Sərhəd Qoşunlarının əməkdaşları ilə əvəz olunublar. Yeri gəlmişkən, bu hadisədən bir il əvvəl rus sərhədçilərin Ermənistan tərəfinə xəbər vermədən Rusiya vətəndaşını saxlayıb, sonra deportasiya etdikləri məlum olmuşdu.

Aİİ-yə üzvlük isə siyasi təzyiq və şantajın nəticəsi idi: Serj Sarkisyan Avropaya inteqrasiya yolundan imtina etməyə və Kremlin ultimatumlarına təslim olmağa məcbur olmuşdu. Zənnimizcə, bu prosesin necə baş verdiyinə dair "ArmenianReport" saytının analitiki Samvel Ohanesyanın qeydlərini xatırlatmaq yerinə düşər. Ohanesyan bugünlərdə saytda yerləşdirilmiş "3 sentyabr"+"10 noyabr"="8 avqust" sərlövhəli məqaləsində yazır: "Yaxşı, əziz oxucular, payız yaxınlaşır. Şufutinskinin oxuduğu kimi "...və tezliklə 3 sentyabr". Ümid edirəm ki, bu tarixi xatırlayırsınız – 2013-cü il sentyabrın 3-də Serj Sarkisyan bizi fakt qarşısında qoydu. Əvvəlcədən bizə verdiyi vədə xilaf çıxaraq, Avropaya yox, Aİİ-yə gedəcəyimizi bildirdi. Aİİ-yə üzvlük Ermənistan üçün heç vaxt strateji seçim deyildi. 2013-cü il sentyabrın 3-də Sarkisyan fakt qarşısında qalaraq Avropa ilə yaxınlaşma perspektivindən imtina etdi və Rusiya rəhbərliyinin təzyiqlərinə boyun əydi. Həmin qərar Ermənistanın Aİ ilə assosiasiya sazişi imzalamaq imkanlarını birdəfəlik puç etdi. Bununla da Ermənistan Moskvanın iqtisadi orbitinə tam bağlandı, lakin bundan ciddi iqtisadi dividendlər əldə edə bilmədi. Əksinə, ölkənin inkişaf imkanları məhdudlaşdı, sərbəst xarici siyasət kursu yürütmək qabiliyyəti zəifləildi. Və budur, biz o vaxtdan indiyədək hər cür Çolpon-Atada dolaşırıq".

Məlumat üçün bildirək ki, 2013-cü il sentyabrın 3-də Rusiya və Ermənistan prezidentləri arasında yüksək səviyyəli danışıqlardan sonra S.Sarkisyan ölkəsinin Aİİ-nin Gömrük İttifaqına qoşulmaq qərarını açıqlayıb. Müəllif "Çolpon-Atada dolaşırıq" deyərkən 2013-cü ildə, hələ 2014-cü ildə Aİİ-nin yaradılması haqqında saziş faktiki imzalanmazdan əvvəl Qırğızıstanın İssık-Kul vilayətinin Çolpon-Ata şəhərində mühüm görüşlərin keçirildiyini nəzərdə tutur. Xüsusilə, 2013-cü il sentyabrın 18-də orada Rusiya, Qazaxıstan və Belarus liderlərinin görüşü keçirilib, Aİİ-nin formalaşdırılması məsələləri, o cümlədən vahid iqtisadi məkanın yaradılması və malların, xidmətlərin, kapitalın və əməyin sərbəst dövriyyəsi qarşısındakı maneələrin aradan qaldırılması müzakirə edilib.

*

Beləliklə, Ermənistan faktiki olaraq müstəqil dövlətin bir çox atributlarından məhrum, Moskvanın vassalı mövqeyində qalmışdı. Bir neçə il öncəyədək bəzi rusiyalı siyasətçilər kifayət qədər açıq şəkildə Ermənistanı "Rusiyanın Cənubi Qafqazdakı forpostu" adlandırırdılar. Əslində, onlar haqlı idilər. İndi isə vəziyyət dəyişir. Paşinyanın son bəyanatları Ermənistanın qarşısında dayanan strateji seçimləri açıq şəkildə ortaya qoydu. Əslində, bu bəyanatlar uzun illərdir hamıya məlum olan reallığın etirafıdır: Ermənistan həm Aİ, həm də Aİİ çərçivəsində paralel siyasət yürüdə bilməz. Yekun seçim anı yaxınlaşır və bütün əlamətlər onu göstərir ki, İrəvan Rusiya orbitindən uzaqlaşmaq xəttini tutub. Bu da təsadüfi deyil. Çünki qeyd etdiyimiz kimi, son 30 ildə Ermənistanın Rusiya ilə münasibətləri, sadəcə, müttəfiqlik çərçivəsində qalmayıb, faktiki olaraq asılılıq xarakteri daşıyıb.




Bu gün Paşinyanın Aİİ-dən çıxma ehtimalını açıq şəkildə dilə gətirməsi, faktiki olaraq, Ermənistan üçün tarixi dönüş nöqtəsi ola bilər. Çünki Rusiya ilə münasibətlər artıq əvvəlki illərdəki "qardaşlıq, strateji müttəfiqlik" ritorikasından uzaqdır. Moskva regionda öz nüfuzunu itirdikcə İrəvan daha çox Aİ-yə və ABŞ-a meyl edir.

Bu uzaqlaşmanın Ermənistan üçün faydalarına gəldikdə isə qeyd etmək lazımdır ki, əvvəla, ölkə öz suveren qərarvermə hüququnu bərpa edə bilər. Çünki Rusiya ilə hərbi-siyasi asılılıqdan çıxmaq İrəvanın beynəlxalq münasibətlərdə balanslı siyasət yürütməsinə imkan verəcək. İkincisi, Aİ ilə yaxınlaşma demokratik institutların güclənməsi, korrupsiya ilə mübarizə və iqtisadi inteqrasiya imkanlarını artıracaq. Ermənistan uzun müddət iqtisadiyyatında xarici sərmayənin azlığından əziyyət çəkib. Aİ ilə dərinləşən əməkdaşlıq isə yeni investisiya axınına və bazarların genişlənməsinə şərait yarada bilər.

Ancaq bu prosesin çətinlikləri də az deyil. Hamıya məlumdur ki, Aİ-yə üzvlük yolu uzun və çətindir. Ermənistan postsovet siyasi və iqtisadi strukturlarına həddən artıq köklənib və onun daxili institusional zəifliyi Avropaya inteqrasiyada sürətli irəliləyişlərə ümid etməyə imkan vermir. Digər tərəfdən Rusiya Ermənistanın orbitindən uzaqlaşmasını sakit qarşılamayacaq. Moskva, ən azı, üç istiqamətdə təzyiq mexanizmlərindən istifadə edə bilər. Bunlardan birincisi enerji asılılığıdır. Ermənistanın qaz və neft məhsullarına olan ehtiyacının böyük hissəsi Rusiya vasitəsilə təmin edilir. İkincisi hərbi sahədir. Ermənistan ordusu hələ də rus silahlarından asılıdır, baxmayaraq ki, son dövrdə bu silahların səmərəsizliyi və gecikmiş çatdırılması barədə çoxsaylı şikayətlər eşitməkdəyik. Üçüncüsü, informasiya müstəvisidir. Rusiya mediası və oradakı erməni diasporu vasitəsilə Ermənistan daxilində hökumət əleyhinə kampaniyaları gücləndirmək mümkündür. Üstəlik, Moskvanın təsirini yalnız təzyiq mexanizmləri ilə məhdudlaşdırmaq doğru olmazdı. Rusiya hələ də Ermənistanın böyük iqtisadi tərəfdaşıdır, ölkədə fəaliyyət göstərən bank və iri şirkətlər vasitəsilə maliyyə sisteminə ciddi təsir imkanlarına malikdir.

Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən Dövlət İdarəçilik Akademiyasının müşaviri, **politoloq Zaur Məmmədov** bildirdi ki, Ermənistanın hazırkı siyasi kursu ölkənin gələcək onilliklərini müəyyən edəcək strateji dönüş mərhələsidir. Onun sözlərinə görə, Paşinyanın son bəyanatları göstərir ki, İrəvan artıq seçimdən qaça bilmir: "Ölkə ya Rusiyanın təsir dairəsində qalmalı, ya da Avropa ilə dərinləşən əməkdaşlığa yönəlməlidir. Ənənəvi olaraq Moskvanın hərbi-siyasi orbitində olan Ermənistan indi öz suverenliyini tam bərpa etmək istəyindədir. Bunun nümunəsi kimi sərhədlərin rus hərbçilərindən alınması və Aİİ-dən çıxmaq ehtimalının açıq müzakirəsi göstərilə bilər. Bu kursun Ermənistan üçün həm yaratdığı imkanlar, həm də ciddi risklər var. İmkanlardan biri ölkənin Avropa strukturlarına inteqrasiyası və bununla həm iqtisadi, həm də siyasi islahatlara təkan verilməsidir. Xarici sərmayə, yeni texnologiyalar və müasir idarəçilik mexanizmlərinin qurulması Ermənistan üçün cəlbedici perspektivlərdir. Eyni zamanda, Avropa ilə yaxınlaşma İrəvanın regionda daha balanslı siyasət yürütməsinə şərait yarada bilər".



Politoloq qeyd etdi ki, lakin prosesin mənfi tərəfləri də nəzərə alınmalıdır. Rusiya bir sıra mühüm sahələrdə hələ də İrəvana təzyiq rıçaqlarına malikdir: "Bundan başqa, Ermənistan daxilindəki müxtəlif dairələr Moskva ilə bağlılığın davam etməsinin tərəfdarıdır. Bu, Paşinyan hökumətinin qərar qəbulunu çətinləşdirə bilər. Ən mühümü isə, Ermənistanın balansı qoruyaraq mərhələli şəkildə addımlaması vacibdir. Çünki tələsik və emosional qərarlar ölkəni yeni böhranlara sürükləyə bilər. Beləliklə, Ermənistan üçün əsas çağırış Rusiyadan uzaqlaşmaqla paralel şəkildə Qərblə əməkdaşlığı rasional çərçivədə qurmaqdır. Əgər bu siyasət ardıcıl və düşünülmüş şəkildə aparılsa, Ermənistan tarixi asılılıqdan qurtularaq regionda daha müstəqil aktora çevrilə bilər".

***Səxavət HƏMİD***
***XQ***

*Müstəqillik tariximizdən*

# Ali Sovet 1991-ci il avqustun 30-da tarixi qərar qəbul etmişdi

## *Xalq deputatı Heydər Əliyevin bir gün əvvəlki çıxışı isə ölkəni silkələmişdi*

**O zaman respublikamız və xalqımız olduqca çətin günlərini yaşayırdı. Sovet İttifaqı Kommunist Partiyası öz fəaliyyətini davam etdirə bilməsə də, Azərbaycanda həm bu partiyanın fəaliyyətinin bərpasına çalışanlar, həm də SSRİ-nin dağılmasının qarşısını almaq istəyənlər çox idi. Lap çox. Ancaq həmin arzuda olanlarla yanaşı, ölkənin dövlət müstəqilliyinin bərpasına, xalqın azadlıq mübarizəsinin vüsət almasına çalışanlar da var idi. Nə yaxşı ki, onların inandığı lider də var idi. Həmin lider xalq deputatı Heydər Əliyev idi.**



O qədər də uzaq tarix olmadığına görə hamının yadındadır ki, Heydər Əliyev imperiyanın qorunub saxlanmasına çalışan qüvvələrə, ilk növbədə Kommunist Partiyasına və Sovet dövlətinə açıq etirazını bildirərək, onların riyakar siyasətini cəsarətlə ifşa edirdi. Prezident kitabxanasının elektron resurslarında oxuyuruq ki, ulu öndər Heydər Əliyev 1991-ci il iyulun 19-da Kommunist Partiyası sıralarından çıxmışdı. O, SSRİ Nazirlər Kabineti partiya təşkilatına göndərdiyi ərizəsində yazırdı: "Azərbaycanın dövlət suverenliyi, ərazi bütövlüyü Konstitusiyaya zidd olaraq kobud şəkildə pozulub. Ermənistanla Azərbaycan arasında elan edilməmiş müharibə gedir. Bütün bunlar dırnaqarası "humanist ideologiyalı" sovet dövləti üçün adi haldır."

Bu o vaxt idi ki, Azərbaycan xalqının böyük əksəriyyəti azadlıq arzusuyla yaşayırdı. Ona görə də xalq imperiyanın bərpa cəhdlərinə Heydər Əliyevin bu qəti etirazını razılıqla qarşılayırdı. Adıçəkilən ünvandakı materialda oxuyuruq ki, məhz Heydər Əliyevin qətiyyəti nəticəsində 1991-ci il avqustun 26-da Naxçıvan ərazisində Azərbaycan Kommunist Partiyasının fəaliyyəti dayandırılmış, onun bütün strukturları ləğv edilmişdi. Həmin ilin yayında uğursuzluqla nəticələnmiş "avqust qiyamı" da o dövrkü iqtidarı qəflət yuxusundan oyada bilməmişdi.

Həmin çətin günlərdə iqtidarda olan Ayaz Mütəllibovun tərəfdarları Moskvapərəst mövqe tutur, mərkəzin göstərişlərini sözsüz yerinə yetirməkdə canfəşanlıq göstərirdilər. Milli xəyanət yolu tutmuş bu siyasətbazlar "Azərbaycanın müstəqillik bəyannaməsi"ni də ciddi qəbul etmək istəmirdilər. Bu məsələ ilə ələqədar keçirilmiş Ali Sovetin 1991-ci il 29-30 avqust tarixli iclaslarında Heydər Əliyev o dövrkü respublika rəhbərliyinin xəyanətkar siyasətinin əsl mahiyyətini açmışdı.

1991-ci il avqustun 30-da Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Ali Sovetin növbədənkənar sessiyasında qəbul etdiyi məlum sənədin ərsəyə gəlməsi o qədər də asan olmamışdı. Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etmək haqqında Bəyannamə" adlı tarixi sənəddə Azərbaycan Respublikasının 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyətinin varisi olduğu vurğulanırdı. Bununla yanaşı, parlament Azərbaycanın dövlət müstəqilliyinin konstitusion əsaslarını yaratmaq üçün ayrıca qanunun – Konstitusiya Aktının hazırlanması barədə qərar qəbul etmişdi. Həmin il oktyabrın 18-də isə Ali Sovet "Azərbaycan Respublikasının Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etmişdi.

Ancaq bunlardan əvvəl heç zaman unudulmayacaq başqa proseslər də baş vermişdi. Belə ki, 1990-cı ilin iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı və buradan başlanan milli dirçəliş prosesinin bütün Azərbaycan siyasi mühitində aparıcı hadisəyə çevrilməsi, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılması ilə müşayiət olunmağa başlamışdı. Ekspertlərin fikrincə, 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyası tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlərin müzakirə olunması, ölkəmizi müstəqilliyə aparan yolda tarixi qərarların qəbul edilməsi ilə əlamətdar olmuşdu.

Tarixçilər yazırlar ki, məhz Heydər Əliyevin təşəbbüsü ilə 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı olması barədə qərar qəbul etmişdi. Qərarda, həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin – bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdi. Sessiyada qəbul edilən cəsarətli qərarlardan biri də Naxçıvan Muxtar Respublikasının adından "sovet" və "sosialist" sözlərinin götürülməsi idi. Ancaq Azərbaycan Ali Soveti Naxçıvandan gələn həmin təşəbbüsə təxminən bir il sonra münasibət bildirmişdi.

Heydər Əliyevin təşəbbüsü ilə başlanan müstəqillik uğrunda mübarizənin tərəfdarları sürətlə artırdı. Nəticədə, 1991-ci il dekabrın 29-da keçirilən ümumxalq referendumunda xalqımız müstəqillik haqqında Konstitusiya Aktını yekdilliklə dəstəklədi. Referendum bülleteninə bir sual yazılmışdı: "Siz "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin qəbul etdiyi Konstitusiya Aktına tərəfdarsınızmı?" Qürurverici fakt idi ki, ölkə əhalisinin 95 faizi bu referendumda iştirak edərək dövlətimizin müstəqilliyinə, suverenliyinə və istiqlaliyyətinə səs vermişdi. Bununla da Azərbaycan Respublikasının müstəqillik haqqında Konstitusiya Aktı qüvvəyə minmiş və XX əsrin sonlarında, SSRİ-nin süqutu ilə başlanan yeni geosiyasi dövrdə ölkəmiz öz istiqlaliyyətini Azərbaycan Xalq Cümhuriyyətinin varisi olaraq bərpa etmişdi.

Çox təəssüf ki, dövlət müstəqilliyinin ilk illərində hakimiyyətdə olan qüvvələr Konstitusiya Aktının prinsiplərinə əməl edə bilmədilər. O zamanlar hakimiyyətdə olan siyasi dairələrin səriştəsizliyi az qala bu müstəqilliyin də itirilməsinə gətirib çıxaracaqdı. Bir-birini əvəz edən Mütəllibov və AXC-Müsavat iqtidarları əslində dövlətçilik deyil, hakimiyyətlərini qoruyub saxlamaq maraqlarından çıxış edir və beləliklə, hələ kövrək olan dövlət müstəqilliyini təhlükə altına salırdılar. Dəfələrlə təkrar edilmiş tarixi faktlardır ki, həmin dövrdə hakimiyyətdə olanlar yeni yaranan müstəqil dövlətçiliyin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə, ölkəni dünyada gedən bütün proseslərdən uzaq salaraq təklənməsinə, təcrid olunmasına xidmət göstərdilər.

**Azərbaycan Respublikası Ali Sovetinin deputatları tam əksəriyyəti kommunist olduqlarına görə, bütün kommunist partiyasının rəhbər orqanlarında fəaliyyət göstərən adamlar parlamentə deputat seçildiklərinə görə və Azərbaycan Kommunist Partiyası çox şeylərdə günahkar olduğuna görə mən hesab edirəm ki, Azərbaycan Respublikasının parlamenti buraxılmalıdır və yenidən seçkilər aparılmalıdır... Mən öz vicdanım qarşısında tamamilə cavabdeh olaraq çıxış edirəm.**

**Ümummilli lider**
**Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyasındakı çıxışından**
**29 avqust 1991-ci il**

Ancaq azadlıqsevər xalqımız bütün bunlara dözə bilməzdi və dözmədi. Ölkənin qabaqcıl ziyalıları və azadlıqsevər insanlar Naxçıvana, xalqımızın böyük oğlu Heydər Əliyevə üz tutdular və onu Bakıya dəvət etdilər. 1993-cü ilin iyunundan dövlətimizin idarəçilik sükanının arxasına keçən Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Əgər həmin məqamda Heydər Əliyev hakimiyyətə gəlməsəydi, kim bilir, dövlətimizi, xalqımızı daha hansı faciələr gözləyirdi!

Həmin sualın cavabını Azərbaycan Prezidenti İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsindəki zəfərimizdən bir həftə sonra – Zəngilan rayonuna səfəri zamanı vermişdi:

"Sadəcə olaraq, 1990-cı illərin əvvəllərində Azərbaycanın başında duranlar ordu quruculuğuna fikir verməmişdilər, ölkəmizi xaosa, anarxiyaya sürükləmişdilər. O illərdə bizim torpaqlarımız işğal altına düşəndə ovaxtkı hakimiyyət vətəndaş müharibəsi başlamışdı, AXC-Müsavat cütlüyü öz əsgərlərini əsir götürmüşdü, Gəncəni bombalamışdı. … Heydər Əliyev hakimiyyətə gələndən sonra bütün müsbət meyillər inkişaf etməyə başlamışdır. Bu gün bizim ordumuz dünya miqyasında güclü ordular sırasındadır. Biz bütün dünyaya göstərmişik ki, yenilməz xalq Azərbaycan xalqıdır, müzəffər ordu Azərbaycan Ordusudur".

*İttifaq MİRZƏBƏYLİ*

# Böyük Qayıdış azad Qarabağa yeni həyat gətirir

**(əvvəli 1-ci səhifədə)**

Bu fikrin davamı olaraq qeyd edək ki, Ermənistan işğal illərində azad edilmiş ərazilərdə bir milyondan çox mina basdırıb. Bu, həm beynəlxalq humanitar hüquqa, həm də elementar insanlıq prinsiplərinə zidd addımdır. Yuxarıda mina qurbanlarının sayını göstərən statistika isə təkcə adi rəqəm deyil, eyni zamanda, neçə – neçə ailə faciəsinin ifadəsidir. Bu səbəbdən Azərbaycan genişmiqyaslı bərpa işlərinə başlamazdan əvvəl təhlükəsizliyin təmin edilməsini prioritet istiqamət kimi qəbul edir.

Respublikamızın qarşısında duran mina problemi beynəlxalq ictimaiyyətin də diqqətini çəkir. Bir sıra dövlətlər və beynəlxalq təşkilatlar humanitar minatəmizləmə işlərində ölkəmizə dəstək göstərirlər. Lakin mövcud təhlükənin miqyası o qədər genişdir ki, prosesin başa çatdırılması uzun illər tələb olunur. Bu baxımdan, beynəlxalq əməkdaşlıq xüsusi önəm daşıyır.

Ölkə rəhbəri müsahibədə keçmiş məcburi köçkünlərin qayıdışını əngəlləyən ikinci problemin isə Qarabağda infrastrukturun tamamilə məhv edilməsi olduğunu vurğulayıb. Bu məqamda xatırladaq ki, işğal nəticəsində doğma torpaqlarından didərgin düşmüş minlərlə soydaşımız illərlə çətin şəraitdə yaşamağa məcbur olub. Onların arzusunu, ümidini yalnız bir amil – doğma kəndlərinə, şəhərlərinə qayıtmaq ümidi birləşdiririb. Prezident İlham Əliyev müsahibəsində bu reallığı xüsusi vurğulayaraq qeyd edib ki, artıq minlərlə insan azad olunmuş ərazilərə dönüb, yeni həyatlarını orada qurur.

Qarabağ və Şərqi Zəngəzurun şəhər və kəndləri işğal dövründə yerlə – yeksan olunub. Kanalizasiya, su təchizatı, elektrik xətləri, dəmir yolları, magistral yollar, bir sözlə, bütün infrastruktur tamamilə dağıdılıb. Buna görə də bərpanın ilk illərində vəsaitin böyük hissəsi məhz infrastruktur qurulmasına sərf edilib. Prezident İlham Əliyevin sözlərindən də aydın olur ki, 2-3 il ərzində əsas infrastruktur layihələrinin tam başa çatdırılması planlaşdırılır. Bu isə o deməkdir ki, yaxın perspektivdə azad olunmuş torpaqlarda yüz minlərlə insanın daimi məskunlaşması təmin ediləcək.

Məskunlaşmanın geniş miqyas alması bu gün azadlığına qovuşan torpaqlarımızda böyük quruculuq və bərpa layihələrinin icrasının getdikcə sürətləndiyini göstərir. Prezident İlham Əliyevin Qarabağ və Şərqi Zəngəzura səfərləri zamanı strateji infrastruktur obyektlərinin işə salınması, yenilərinin təməlinin qoyulması da bunun bariz ifadəsidir. Bu, eyni zamanda, düşmənin 30 il ərzində yağmaladığı, dağıdaraq viran qoyduğu yurd yerlərimizə yeni nəfəs gəldiyindən, şəhər və kəndlərimizdə həyatın yenidən dirçəldiyindən xəbər verir.

Hazırda 50 mindən çox insanın Qarabağa və Şərqi Zəngəzura köçürülməsi təkcə demoqrafik cəhətdən deyil, həm də milli ruhun dirçəlişi baxımından mühüm əhəmiyyət daşıyır. Bu, eyni zamanda, Azərbaycan dövlətinin siyasi iradəsini, sosial ədalət prinsiplərinə sadiqliyini nümayiş etdirir. Böyük Qayıdışa dair I Dövlət Proqramı isə sadəcə məcburi köçkünlərin yurdlarına qayıtması deyil, həm də Azərbaycanın ərazi bütövlüyü üzərində qurulan yeni həyat fəlsəfəsidir.

Adıçəkilən proqramın ən mühüm üstünlüklərindən biri də bu tarixi sənədin mərhələli şəkildə həyata keçirilməsidir. İlk mərhələdə yuxarıda xatırlatdığımız kimi, təhlükəsizlik və infrastruktur, ikinci mərhələdə yaşayış evlərinin tikintisi, üçüncü mərhələdə isə iqtisadi həyatın dirçəldilməsi prioritet hesab olunur.



Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunan ərazilərin mina və partlamamış hərbi sursatdan təmizlənməsi, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat – kommunikasiya xətlərinin bərpası istiqamətində mühüm layihələr həyata keçirilib, müasir texnologiyalar əsasında "ağıllı" şəhər və "ağıllı" kəndlər inşa olunub. Əhalinin dayanıqlı məskunlaşmasını, həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsini şərtləndirən aqrar sahənin inkişafı da diqqətdə saxlanılıb.

Bütün bu quruculuq layihələrinin reallaşdırılması nəticəsində Azərbaycanın 30 ilə yaxın bir dövr ərzində işğal altında qalan torpaqlarında bu gün bir coşğunluq yaşanır, yurd – yuva həsrəti ilə yaşayan keçmiş məcburi köçkünlər məskunlaşdırılır. Hazırda "ağıllı" kənd və "ağıllı" şəhər konsepsiyaları əsasında tikinti işləri uğurla həyata keçirilir. Zəngilanın Ağalı kəndi ilk pilot layihə əsasında müasir enerji təchizatı, ekoloji cəhətdən təmiz istehsal, dayanıqlı kənd təsərrüfatı və rəqəmsal idarəetmə modelləri tətbiq olunub. Bu təcrübənin gerçəkləşdirilməsi digər rayonlarda da diqqət mərkəzində saxlanılır.

Prezident İlham Əliyevin müsahibəsində qeyd etdiyi əsas hədəflərdən biri də keçmiş məcburi köçkünlərin yalnız mənzil şəraiti ilə təmin olunması deyil, həm də onların iş yerləri ilə təminatının reallaşdırılmasıdır. Çünki uzunmüddətli dayanıqlı məskunlaşma üçün sosial – iqtisadi baza vacibdir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılması da məhz bu məqsədə xidmət edir. Burada kənd təsərrüfatı, turizm, bərpa olunan enerji, dağ – mədən sənayesi və logistika kimi sahələrin inkişafı nəzərdə tutulur.

Yeni müəssisələrin yaradılması və infrastruktur bərpası bölgəyə həm yerli, həm də xarici investorların cəlb olunmasına şərait yaradır. Bununla yanaşı, Qarabağın dirçəlişi dünya ictimaiyyətinə sülh, yenidənqurma və humanitar əməkdaşlıq baxımından nümunə ola bilər. Azərbaycan göstərir ki, müharibədən sonra dağıdılmış torpaqlarda həyatın bərpası mümkündür və bu, regional sabitliyə müsbət təsir göstərir.

Yeri gəlmişkən, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı", eləcə də dövlətimizin başçısının imzaladığı müvafiq sərəncamlar əsasında Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında icra olunan layihələrin sayı 44-ə, avtomobil yollarının ümumi uzunluğu isə 3 min 40 kilometrə çatdırılıb. Ötən illər ərzində 7 yolun tikintisi yekunlaşdırılıb. Hazırda tikintisi həyata keçirilən 38 layihənin isə 2025-2026-cı illərdə tamamlanması nəzərdə tutulub. Bundan əlavə, 6 şəhərin (Şuşa, Füzulu, Qubadlı, Zəngilan, Kəlbəcər və Cəbrayıl) daxili yollarının, eləcə də 7 kəndə gedən avtomobil yollarının tikintisi davam etdirilib.

Prezident İlham Əliyevin "Əl-Ərəbiyyə"yə müsahibəsi bir daha təsdiq edir ki, Qarabağ və Şərqi Zəngəzur Azərbaycanın strateji prioritetidir. Azad olunmuş ərazilərdə həyata keçirilən işlər həm milli, həm də beynəlxalq miqyasda diqqət mərkəzindədir. Qarabağın yenidən dirçəldilməsi, keçmiş məcburi köçkünlərin yurdlarına qaytarılması və regionun inkişaf etdirilməsi Azərbaycanın dövlətçilik tarixində ən mühüm səhifələrdən birini təşkil edir. Böyük Qayıdış Proqramı isə sadəcə bir sənəd deyil, Azərbaycanın gələcək onilliklərdə sosial, iqtisadi və mədəni həyatının əsas dayağıdır. Bu qayıdış həm də ədalətin, milli qürurun və dövlətimizin gücünün simvoludur.

Beləliklə, Böyük Qayıdış Azərbaycanın milli birliyi, sosial həmrəyliyi və gələcək inkişaf strategiyası baxımından yeni mərhələnin başlanğıcıdır. Bu proses tarixi ədalətin bərpası, milli qürurun dirçəlişi və müstəqil dövlətimizin gücünün göstəricisidir. Yeri gəlmişkən, burada bir məqamı da vurğulamaq istərdik. Prezident İlham Əliyevin sözügedən müsahibəsi bir daha göstərdi ki, müasir Azərbaycanın gündəliyində ən vacib məsələlərdən biri məhz azad edilmiş ərazilərin dirçəldilməsi və keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qaytarılmasıdır. Dövlət başçısının sözlərindən də aydın görünür ki, hazırda işğaldan azad olunan yaşayış sahələrində həyata keçirilən Böyük Qayıdışa dair I Dövlət Proqramı təkcə ölkəmizin sosial – iqtisadi həyatında deyil, həm də regionun gələcək təhlükəsizlik və inkişaf perspektivlərində həlledici rol oynayır.

*Vaqif BİNYATOĞLU*
*XQ*

*30 Avqust Beynəlxalq İtkinlər Günüdür*

# Azərbaycan dövləti itkinlərimizin sorağındadır

## *Ermənistan isə 3 min 990 nəfər soydaşımızın taleyini açıqlamır*

**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası İşçi qrupu rəhbərinin müavini Eldar Səmədovun "Xalq qəzeti"nə müsahibəsini təqdim edirik.**

**– 30 Avqust Beynəlxalq İtkinlər Günüdür. Bu günün yaranması ilə bağlı oxucularımıza məlumat verə bilərsinizmi? I Qarabağ və Vətən müharibələrində vətəndaşlarımızın itkin düşdüyünü nəzərə alsaq, oxucularımız üçün bu məsələ çox aktualdır.**

– Qeyd etdiyiniz kimi, 30 avqust dünyada Beynəlxalq İtkinlər Günü kimi yad edilir. İtkinlər gününün təsis edilməsi ilə bağlı ilk təşəbbüs 30 avqust 2007-ci ildə Filippində itkin düşmüş şəxslərin ailə üzvləri tərəfindən irəli sürülmüşdür. Bir il sonra, 2008-ci ilin avqust ayında bu təşəbbüs dünya ictimaiyyəti tərəfindən ciddi dəstək almış və səbəbindən asılı olmayaraq, itkin düşmüş bütün şəxslərin anım gününün qeyd edilməsinin zəruriliyinə dair ümumi fikir formalaşdırılmışdır.



Problemin həssas və humanitar xarakterli olması nəzərə alınaraq, həmin dövrdə Birləşmiş Millətlər Təşkilatında (BMT) bu təşəbbüslə bağlı bir sıra müzakirələr və fikir mübadiləsi aparılmışdır. Aparılmış müzakirələrin və təhlillərin yekunu olaraq, BMT Baş Assambleyası tərəfindən 21 dekabr 2010-cu ildə qəbul edilmiş Qətnamə ilə hər ilin 30 avqust tarixinin Beynəlxalq İtkinlər Günü kimi qeyd edilməsi qərara alınmışdır.

İnsanların itkindüşmə səbəbləri müxtəlifdir. Lakin ötən dövrlərin tarixi göstərmişdir ki, ən çox itkindüşmə halları silahlı münaqişələr zamanı baş verir. Qeyd etdiyiniz kimi, I Qarabağ və 44 günlük Vətən müharibələrində vətəndaşlarımızın itkin düşməsi bunun bariz nümunəsidir.

Təəssüf ki, xüsusilə son illərdə dünyada silahlı münaqişələrin sayının artması ilə əlaqədar insanların itkindüşmə hallarında çoxalma müşahidə olunur.

Məlumdur ki, 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü əsassız ərazi iddiaları və həyata keçirdiyi işğal faktı ilə bağlı ölkəmiz silahlı münaqişəyə cəlb edilmiş və bunun da nəticəsində genişmiqyaslı humanitar fəlakətlə üzləşmişdir. Münaqişə davam etdiyi müddətdə mülki azərbaycanlı əhali kütləvi şəkildə qətlə yetirilmiş, əsir-girov götürüldükdən sonra qeyri-insani şəkildə saxlanılaraq dəhşətli işgəncələrə və məhrumiyyətlərə, humanizm prinsiplərindən kənar rəftara məruz qoyulmuşdur. Bütün bu hallar xeyli sayda soydaşımızın itkin düşməsinə və taleyinin bu günə kimi qeyri-müəyyən qalmasına səbəb olmuşdur.

**– Vətən müharibəsində əldə olunmuş böyük zəfərdən sonra vətəndaşların Dövlət Komissiyasına müraciətlərinin artdığı bildirilir. Bu müraciətlərdən sonra itkin düşmüş şəxslərlə bağlı siyahıda hansısa dəyişiklik olub? Hazırda Dövlət Komissiyasında Birinci Qarabağ müharibəsi zamanı neçə nəfər itkin düşmüş şəxs kimi qeydiyyatdadır?**

– Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən sonra Dövlət Komissiyasına I Qarabağ müharibəsində itkin düşmüş şəxslərin ailələrindən müraciətlər davam edir. Müraciətlər itkin düşmüş şəxs kimi qeydiyyata alınmış şəxslərin ailə üzvləri ilə yanaşı, qeydiyyatdan kənarda qalmış şəxslərin ailə üzvlərindən də daxil olur. Əlbəttə ki, Dövlət Komissiyası İşçi qrupunun əməkdaşları gündəlik iş prosesində müraciət edən vətəndaşları qəbul edir, onlarla davamlı şəkildə və müntəzəm işləyir.

Vətən torpaqlarının işğaldan azad edilməsi insanlarda itkin düşmüş yaxınlarının taleyinə aydınlıq gətirilməsi ilə bağlı böyük ümidlər yaradıb. Paralel olaraq, həm Dövlət Komissiyasına, eyni zamanda hüquq-mühafizə orqanlarına, xüsusilə Baş Prokurorluğa da müraciətlər daxil olur.

Bununla yanaşı, həm itkin düşmüş şəxs kimi Dövlət Komissiyasının qeydiyyatından kənarda qalmış şəxslərin müəyyən edilərək qeydiyyata alınması, həm də itkin düşmüş yaxınları barədə DNT analizinin aparılması üçün bioloji nümunə verməmiş vətəndaşlarımızın müəyyən olunaraq **onların nümunələrinin** götürülməsi məqsədilə İşçi qrupu tərəfindən müvafiq addımlar atılır, ictimaiyyətə müraciətlər ünvanlanır və araşdırmalar aparılır. İctimaiyyətə məlumdur ki, Vətən müharibəsindən əvvəl Dövlət Komissiyasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində **3 min 890** nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınmışdır. Hazırda isə **1 avqust 2025**-ci il tarixə olan məlumata əsasən, Dövlət Komissiyasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində **3 min 990 nəfər** itkin düşmüş şəxs kimi qeydiyyatdan keçir. Onlardan **3 min 984 nəfəri** I Qarabağ müharibəsində, **6 nəfəri** isə Vətən müharibəsində itkin düşmüşlər.

**3 min 990** nəfərdən **3 min 211** nəfəri hərbçi, **779** nəfəri mülki şəxslərdir. Mülki şəxslərdən **71** nəfəri yetkinlik yaşına çatmamış uşaq, **284** nəfəri qadın, **316** nəfəri qocadır.

Hazırda da Dövlət Komissiyası İşçi qrupu tərəfindən I Qarabağ müharibəsində vətəndaşlarımızın itkindüşmə faktı ilə bağlı bir neçə müraciət araşdırılır. Müraciətlərin davam etdiyini nəzərə alsaq, bunun son say olmayacağı istisna edilmir.

**– İndiyə qədər azad olunmuş ərazilərdə neçə kütləvi məzarlıq aşkar edilib və həmin kütləvi məzarlıqlardan neçə nəfərə aid insan qalığı tapılıb. Tapılmış insan qalıqları üzrə neçə itkin şəxsin eyniləşdirilməsi mümkün olub? Əlavə kütləvi məzarların aşkarlanması ehtimalı varmı?**

– Xüsusi olaraq vurğulamaq lazımdır ki, Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən dərhal sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən Dövlət Komissiyasının qarşısına Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş vətəndaşlarımızın taleyinə aydınlıq gətirilməsi istiqamətində təcili-təxirəsalınmaz tədbirlərin görülməsi kimi mühüm vəzifə qoyulmuşdur.

Artıq ictimaiyyətə məlumat verildiyi kimi, ilk kütləvi məzarlıqlar **2021**-ci ilin fevral ayının **17**-də Şuşa rayonunun Daşaltı qəsəbəsində aşkarlanmışdır. Orada aşkarlanmış iki kütləvi məzarlıqdan **28** nəfərə aid meyit qalığı ekshumasiya edilərək götürülmüşdür. Onu da qeyd edim ki, Daşaltı qəsəbəsində aşkarlanmış meyit qalıqları üzrə **14** itkin şəhidin eyniləşdirilməsi mümkün olmuşdur. Həmin şəxslər **26 yanvar 1992**-ci il tarixdə Daşaltı qəsəbəsi uğrunda döyüşlərdə şəhid olmuş Azərbaycan hərbçiləridir.

Sonrakı dövrdə isə işğaldan azad olunmuş ərazilərimizdə daha **28** kütləvi məzarlıq aşkar edilmiş, qazıntı işləri həyata keçirilmişdir. Bütövlükdə aşkar edilmiş **28** kütləvi məzarlıqdan Birinci Qarabağ müharibəsində itkin düşmüş **218** şəxsə aid olduğu ehtimal olunan meyit qalıqları aşkarlanaraq götürülmüşdür. Həmin meyit qalıqları üzrə **60** itkin-şəhidin şəxsiyyəti eyniləşdirilərək ailələrinə təhvil verilmişdir.

Ermənistan hərbçiləri tərəfindən Azərbaycan xalqına qarşı törədilmiş müharibə və insanlıq əleyhinə cinayətlərin xarakterini təhlil edərək işğaldan azad edilmiş ərazilərimizdə kütləvi məzarlıqların aşkarlanması istiqamətində fəaliyyət davam etdirilir.

Dövlət Komissiyasına bu barədə çoxsaylı məlumat və materiallar daxil olmaqdadır. Xüsusilə I Qarabağ müharibəsi dövründə döyüşlərdə iştirak etmiş, əsirlikdən azad olmuş şəxslər hazırda da məlumatları Dövlət Komissiyasına təqdim edirlər. Amma kütləvi məzarlıqların və digər məlum olan məzar yerlərinin müəyyən olunması ilə bağlı mütəxəssis heyəti xeyli saylı çətinliklərlə üzləşir. Bunun



əsas səbəblərindən biri ərazilərin minalar və partlamamış sursatlarla həddən artıq çirkləndirilməsidirsə, digəri isə ərazilərdə əlavə torpaq qatının yaranması və relyef dəyişikliklərinin baş verməsidir. Əlbəttə ki, verilmiş şahid ifadələrinə əsasən, mütəxəssislər tərəfindən axtarış və qazıntı işləri müntəzəm davam etdirilir. Lakin böyük təəssüf hissi ilə deməliyəm ki, verilmiş məlumatlar üzrə aparılmış qazıntılar bir çox hallarda nəticə vermir.

Ona görə ki, işğal dövründə ermənilər tərəfindən ərazidə vandalizm aktları həyata keçirilmiş, xüsusilə qəbiristanlıqlar və məzar yerləri məqsədyönlü şəkildə dağıdılmışdır. Bunun əsas səbəbi Azərbaycan xalqına qarşı törətdikləri cinayət aktlarının gizlədilməsindən ibarətdir. Bundan başqa, işğal altında olan torpaqlarda 30 ildən çox ekosid həyata keçirilmiş və Azərbaycanın ekologiyasına çox ciddi ziyan vurulmuşdur. Bu səbəbdən şahidlər vaxtilə onlara məlum olan məzar yerlərini dəqiq göstərməkdə çətinlik çəkirlər. Şübhəsiz ki, Birinci Qarabağ müharibəsinin gedişində azərbaycanlılara qarşı soyqırımı, terror və etnik təmizləmə həyata keçirilmiş, əsir-girovlara münasibətdə beynəlxalq humanitar hüququn norma və prinsipləri kobud şəkildə pozulmuşdur.

**– Oxucularımıza aydın olması üçün "kütləvi məzarlıq" anlayışına aydınlıq gətirə bilərsinizmi? "Kütləvi məzarlıq" dedikdə, nə başa düşməliyik?**

– Kütləvi məzarlıq ikidən çox insanın heç bir dini və insani qaydalara riayət edilmədən xaotik halda bir çuxurda basdırılmasına deyilir. İşğaldan azad edilmiş ərazilərimizdə aşkarlanmış **28** kütləvi məzarlığın hər birində 2-dən çox şəxsə aid insan qalığı aşkarlanmışdır.

Misal üçün yuxarıda qeyd etdiyim kimi, Şuşa rayonu, Daşaltı qəsəbəsində aşkarlanmış **2** kütləvi məzarlıqdan **28** nəfərə, Xocavənd rayonunun Edilli kəndi ərazisində aşkarlanmış **3** kütləvi məzarlıqdan



**27** nəfərə, Xocalı şəhərində aşkarlanmış kütləvi məzarlıqdan **18**, Ağdərə rayonunun Sırxavənd kəndindəki kütləvi məzarlıqlardan **15** nəfərə aid meyit qalıqları ekshumasiya edilmişdir.

**– Xocalı soyqırımı zamanı neçə nəfər itkin düşmüş şəxs kimi Dövlət Komissiyasında qeydiyyata alınıb?**

– Yuxarıda qeyd etdiyim kimi, Vətən müharibəsində əldə edilmiş böyük zəfərdən sonra Birinci Qarabağ müharibəsində vətəndaşlarımızın itkindüşmə faktı ilə bağlı Dövlət Komissiyasına yeni müraciətlərin sayı artıb. Bu müraciətlər eyni zamanda Xocalı soyqırımı zamanı yaxınları itkin düşmüş şəxslər tərəfindən də edilir. Misal üçün deyə bilərəm ki, 2024-cü ildə edilmiş müraciətlərin araşdırılması nəticəsində daha **13** vətəndaşımızın Xocalı soyqırımı zamanı itkin düşməsi faktı müəyyən edilmiş və onlar müvafiq qaydada itkin düşmüş şəxs kimi qeydiyyata alınmışlar.

01.08.2025-ci il tarixə olan məlumata əsasən, Xocalı soyqırımı zamanı **210** nəfər itkin düşmüş şəxs kimi Dövlət Komissiyasının qeydiyyatındadır. Onlardan **168** nəfəri **mülki**, **42** nəfəri **hərbçilərdir**. Mülki şəxslərdən **38** nəfər uşaq (**23** oğlan, **15** qız), **57** nəfər qadın (**15** nəfəri ahıl yaşlı qadın), **30** nəfər qocadır. İtkin düşmüş **210** nəfərdən **95** nəfərinin işğal zamanı əsir-girov götürülməsi və saxlanmasına dair şahid ifadələri var.

**– İtkin düşmüş şəxslərin ailələrindən bioloji nümunələrin götürülməsi işi artıq yekunlaşıb?**

– Qeyd etməliyəm ki, Dövlət Komissiyası **2014**-cü ildən etibarən itkin düşmüş şəxslərin ailə üzvlərindən bioloji nümunələrin toplanması işini həyata keçirir. Bu proses nəticəsində 01.08.2025-ci il tarixə olan məlumata əsasən, **3855** itkinin ailə üzvlərindən **11 387** bioloji nümunələr toplanıb sistemləşdirilmişdir.

Vurğulanmalıdır ki, Vətən müharibəsindən əvvəl bioloji nümunə verməyə tərəddüd etmiş insanlar, xaricdə olduğu üçün müraciət edə bilməyən şəxslər hazırkı prosesdə, eyni zamanda artıq itkin düşmüş şəxslərin bir qisminin taleyi müəyyən olunandan sonra ümidlənərək müraciət etməyə başlamışlar. Sözsüz ki, onlardan bioloji nümunələrin götürülməsi aşkarlanmış meyit qalıqlarının eyniləşdirilməsi üçün vacib xarakter daşıyır.

Ancaq qeyd etmək istəyirəm ki, bu sahədə çətinliklərimiz də var. Prosesə 2014-cü ildən başlanılmasına baxmayaraq, hələ də itkin ailələrinin bir qismi yumşaq ifadə etsək, bioloji nümunə verməkdən yayınır. Məsələ ilə bağlı dəfələrlə inzibati qaydada və mətbuat vasitəsilə vətəndaşlara müraciət edilmişdir. Mən fürsətdən istifadə edərək DNT nümunəsi verməmiş vətəndaşlarımıza bir daha müraciət etməyi zəruri hesab edirəm: "Hörmətli itkin ailələri, itkin düşmüş şəxslərin taleyinin müəyyən olunmasında çox vacib amil olduğu üçün Sizdən bir daha Dövlət Komissiyasına yaxınlaşaraq DNT nümunələri verməyinizi xahiş edirik".

Xüsusilə qeyd etmək lazımdır ki, toplanmış bioloji nümunələrinin DNT profilləri Dövlət Komissiyasının sədri, cənab Əli Nağıyevin müraciətinə əsasən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı ilə Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsində yaradılmış Genetik araşdırmalar mərkəzində arxivləşdirilir. İtkin ailələrindən DNT nümunələrinin götürülməsi və insan qalıqlarının eyniləşdirilməsi ilə bağlı molekulyar-genetik ekspertiza da DTX-nin Hərbi-tibb baş idarəsinin Genetik araşdırmalar mərkəzində həyata keçirilir.

**– Ümumilikdə, neçə itkinin kimliyi DNT nümunələri vasitəsilə müəyyən edilib? İtkinlərin kimliyini müəyyən etməyin başqa yolları da varmı?**

– Prosesin başladığı 2021-ci ildən ötən müddət ərzində meyit qalıqlarının məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsi olaraq, Birinci Qarabağ müharibəsində itkin düşmüş şəxslərdən 183 nəfərin şəxsiyyəti eyniləşdirilərək ictimaiyyətə açıqlanmış, ailələrinə təhvil verilərək qanunvericiliyin tələblərinə və milli-dini ənənələrə uyğun dəfn edilmişlər.

Sözsüz ki, eyniləşdirmə prosesində vacib aspekt molekulyar genetik laboratoriyanın verdiyi cavabdır. Əgər tapılmış qalıqlarda bioloji nümunə, başqa sözlə, DNT analizi üçün müvafiq material varsa, onun şəxsiyyətinin müəyyən olunması daha asan olur. Bununla yanaşı, itkin düşmüş şəxslərin eyniləşmə prosesində digər metodlardan da istifadə olunur. İtkinlərlə bağlı ilkin olaraq antemortem (ölümdən əvvəlki) məlumatlar toplanır. Məzarlar aşkarlanandan sonra isə postmortem (ölümdən sonrakı) məlumatlar toplanır ki, əvvəlki məlumatlarla tutuşdurulsun. Ümumilikdə isə şəxsiyyətin eyniləşdirilməsi çox mürəkkəb prosesdir, bu, uzun müddət, maddi və insan resursları tələb edir. Ekshumasiya prosesində tapılan meyit qalıqları müəyyən tələblərə cavab verməlidir. Təəssüf ki, aşkar etdiyimiz meyit qalıqlarının hamısı molekulyar-genetik analizlərin aparılması tələblərinə cavab vermir.

Ümumiyyətlə, antemortem məlumatların toplanması zamanı verilmiş bütün informasiyalar qeydiyyata alınır. Bu prosesdə itkinin ailə üzvlərinin, son dəfə onu görmüş və yanında olmuş şəxslərin verdiyi məlumatlar toplanır və sistemləşdirilir. Sonuncu dəfə itkinin əynindəki geyim, ayaqqabı, yaxud cibindəki daraq, qələm, qol saatı və s. kimi məlumatları nəzərdə tuturam. Əgər məzardan deyilən parametrlərə uyğun artefaktlar tapılırsa, itkin düşən şəxsin şəhidolma arealı da mütəxəssislərə məlumdursa, bu metodologiyalardan da istifadə olunur.

**– İtkin düşmüş şəxslərə aid məzar yerlərinin axtarışı, qazıntı, ekshumasiya, eyniləşdirmə və itkin-şəhidlərin dəfn proseslərində hansı dövlət qurumları iştirak edir?**

– Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası və onun icraçı orqanı olan İşçi qrupu



Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə **1993**-cü ildə yaradılmışdır. Hazırda Dövlət Komissiyasında **21** qurum təmsil olunur.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində itkin düşmüş şəxslərə aid məzar yerlərinin axtarışı, qazıntı, ekshumasiya, aşkarlanmış meyit qalıqlarının müvafiq qaydada qablaşdırılaraq daşınması, eyniləşdirilməsi və şəxsiyyəti müəyyən edilmiş itkin-şəhidlərin dəfn mərasimlərinin təşkili Dövlət Komissiyasının İşçi qrupu tərəfindən tənzimlənir və əlaqələndirilir.

Bu prosesdə Dövlət Təhlükəsizliyi Xidmətinin Hərbi-tibb baş idarəsinin Genetik araşdırmalar mərkəzi və digər aidiyyəti idarələri, Baş Prokurorluq, Səhiyyə Nazirliyi Məhkəmə-tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Daxili İşlər Nazirliyi, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti, Dövlət Sərhəd Xidməti, ANAMA, AMEA-nın Arxeologiya və Antropologiya İnstitutu və yerli icra hakimiyyətləri yaxından iştirak edirlər. Onu da qeyd edim ki, **2021**-ci ildə meyit qalıqlarının axtarışı, ekshumasiyası və eyniləşdirilməsi ilə bağlı aidiyyəti dövlət qurumlarının mütəxəssislərindən ibarət heyət yaradılmışdır. Bu heyət fəaliyyətini davam etdirir.

**– İtkin düşmüş şəxslərin ailələri ilə Dövlət Komissiyası arasında münasibətlər necə tənzimlənir, onlarla necə işləyirsiniz? Bu barədə məlumat verməyinizi xahiş edirik.**

– Dövlət Komissiyasının sədri, Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-polkovnik Əli Nağıyevin rəhbərliyi ilə əsir-girov və itkinlərin işi ilə bağlı bütün istiqamətlərdə olduğu kimi, itkin ailələri ilə iş sahəsinə diqqət artırılmışdır. Cənab Komissiya sədrinin tapşırığına uyğun olaraq İşçi qrupu itkin ailələri ilə gündəlik olaraq təmasda olur, problemin həssaslığı nəzərə alınaraq, vətəndaşların qaldırdığı məsələlərə fərdi yanaşma nümayiş etdirilir.

Vətəndaşların Dövlət Komissiyasına müraciətlərinin asanlaşdırılması üçün müasir texnoloji yeniliklərdən istifadə edilir. Vətəndaşlar Komissiyanın **info@human.gov.az** elektron poçt ünvanı, **010-232-33-77** mobil telefon nömrəsi və **81-61** qaynar xəttindən istifadə etməklə İşçi qrupu ilə asanlıqla əlaqə saxlaya və suallarına cavab ala bilərlər. O cümlədən DNT nümunələrinin verilməsi üçün bu əlaqə vasitələrindən asanlıqla istifadə olunur.

Ailələrlə iş prosesində problemin həssaslığı xüsusi olaraq nəzərə alınmalıdır. Yaxınlarını itirmiş şəxslər mənəvi-psixoloji sarsıntı keçirmiş insanlardır. Burada hər bir ailəyə fərdi yanaşma vacibdir. Bir çox hallarda biz vətəndaşın müraciətini gözləmirik. Yəni iş prosesində zərurət yaranırsa, İşçi qrupunun əməkdaşları vətəndaşlarla əlaqə yaradır və onlarla işləyirlər. Sözsüz ki, Dövlət Komissiyasının fəaliyyətinin mərkəzində itkin ailələri durur.

***Müsahibəni hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# 24 il əvvəl "Əsrin müqaviləsi"nin "Faza-1" layihəsinə start verilib

## *20 ildə isə "Mərkəzi Azəri" platformasından 154 milyon ton neft çıxarılıb*



**Azərbaycanın iqtisadi müstəqilliyi üçün möhkəm əsas yaradan "Əsrin müqaviləsi" təkcə gənc dövlətin enerji siyasətinin zəfəri deyildi, həm də gələcək uğurların başlanğıcı, ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə işləyib hazırladığı yeni neft strategiyasının təntənəsi idi. Həmin təməl üzərində qurulmuş enerji strategiyası 31 ildir ki, ölkəmizin iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun artmasına xidmət edir. Bu tarixi müqavilənin həyata keçməsinə isə pillə-pillə, gərgin zəhmət və böyük maliyyə hesabına nail olunub.**

Müqavilənin bəndlərinin reallaşması müxtəlif ölkələrdən olan insanları bir araya gətirdi. Onlar Xəzərin dərin qatlarındakı karbohidrogen ehtiyatlarını çıxarmaq üçün platformalar, terminallar tikdilər, boru kəməri çəkdilər. "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun geniş bir ərazini əhatə etməsi, eləcə də buradakı ehtiyatların zənginliyi səbəbindən əsrin nəhəng neft sazişinin bir neçə mərhələdə həyata keçirilməsi qərara alındı. Azərbaycan hökuməti və beynəlxalq konsorsium iştirakçılarının bu qərarı həm də "Əsrin müqaviləsi" çərçivəsində nəzərdə tutulmuş böyük neft hasilatına başlananadək zəruri ixrac sisteminin yaradılması ilə bağlı idi.

Məlum olduğu kimi, "Əsrin müqaviləsi"nin uğurla reallaşdırıldığı "İlkin neft" layihəsi çərçivəsində Azərbaycan Dövlət Neft Şirkətinin (ARDNŞ) balansında olan bir sıra infrastruktur obyektlərində modernləşdirmə işləri həyata keçirilib. Bu mərhələdə "Dədə Qorqud" qazma qurğusu əsaslı şəkildə yenidən qurulub, 24 quyunun qazılması üçün nəzərdə tutulmuş "Çıraq" platforması istismara verilib. Buradan sahilədək 176 kilometr uzunluğunda sualtı neft kəməri çəkilib, Səngəçalda dünya səviyyəli terminal inşa olunaraq ilk neftin qəbulu və onu ixrac sitemінə yönəltmək üçün hazır vəziyyətə gətirilib. 1997-ci ilin noyabrında isə burada neft hasilatına başlanılıb.

AÇG-nin işlənilməsi dövründə ən mürəkkəb və məsuliyyətli mərhələ sayılan "İlkin neft" layihəsi üzrə əldə olunmuş zəngin təcrübə sonralar "Azəri" yatağının və "Günəşli"nin dərinlikdə yerləşən hissəsinin də işlənməyə cəlb edilməsi üçün yol açıb. Beləliklə, 2001-ci il avqustun 30-da Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) Rəhbər Komitəsi "Azəri-Çıraq-Günəşli dəniz yataqlarının tammiqyaslı işlənilməsinin "Faza-1" layihəsini təsdiqləyib. Bununla bağlı müvafiq sənədi Azərbaycanın dövlət başçısı Heydər Əliyevin iştirakı ilə ARDNŞ prezidenti Natiq Əliyev və ABƏŞ-in rəhbəri Devid Vudvord imzalayıblar.

Xəzərin ən zəngin neft yataqlarından sayılan "Azəri" yatağının mərkəzi hissəsinin işlənilməsini nəzərdə tutan "Faza-1" layihəsi çərçivəsində, ilkin proqnozlara əsasən, 1 milyard 425 milyon barel və ya 193 milyon ton neftin hasilatı nəzərdə tutulub. Layihənin ümumi dəyəri 3,4 milyard dollar təşkil edib ki, bunun da 2,74 milyard dolları tikinti işlərinə, qalan hissəsi isə quyuların qazılmasına sərf olunub. Bundan əlavə, xaricdən ölkəmizə gətirilən material və avadanlıqların daşınmasına, təqribən, 700 milyon dollar xərclənib.

Qeyd edək ki, "Faza-1" layihəsi çərçivəsində AÇG-dən gündəlik neft hasilatının 133 min bareldən 375 min barelə çatdırılması nəzərdə tutulurdu. Bunun üçün isə dənizdə və quruda nəhəng tikinti-quraşdırma işlərinin həyata keçirilməsi tələb olunurdu. Bu məqsədlə 2001-ci il noyabrın 30-da Bakıda "Faza-1" layihəsinin həyata keçirilməsi çərçivəsində 5 xarici şirkətlə ümumi dəyəri 750 milyon dollar olan 6 böyük podrat müqaviləsi imzalanıb.

Həmin müqavilələrə əsasən, "Mərkəzi Azəri" platformasının üst modullarının tikintisi, eləcə də sualtı neft kəmərlərinin çəkilməsi ABŞ-ın "McDermott Caspian Constractors", platformanın dayaq blokunun, svayların və qazma əməliyyatları üçün qurğunun dayaq plitəsinin tikintisi; dənizdə nəqletmə və quraşdırma işləri; qazma avadanlığı ilə təminat; yaşayış bloklarının inşası isə müvafiq olaraq Fransanın "Boygues Offshore", İtaliyanın "Saipem", Fransanın "Eiffel" və İsveçin "Emtunqa İnternational" şirkətlərinə həvalə olunub.

"Mərkəzi Azəri" platformasının dayaq bloklarının tikintisi və platformanın modullarının montaj edilməsi Azərbaycan Dövlət Neft Şirkətinin "Şelflayihətikinti" İstehsalat Birliyinin (indiki Heydər Əliyev adına Dərin Özüllər Zavodu) meydançasında həyata keçirilib. Bununla yanaşı, layihə çərçivəsində dənizdə həyata keçirilən bir sıra əməliyyatlar zamanı ARDNŞ-in neft donanmasına aid olan borudüzən gəmilərdən, kran və barjalardan, həmçinin xidməti gəmilərdən istifadə edilib.

Xatırladaq ki, "Mərkəzi Azəri" Bakıdan 100 kilometr şərqdə, dənizin 128 metr dərinliyində yerləşən hasilat, qazma və yaşayış platformasıdır. 2005-ci ilin fevralından istismarda olan platforma "Azəri" yatağının mərkəzi hissəsindən neft hasil etmək üçün tikilib. Bundan əlavə, müqavilə sahəsində yaşayış, qazma, hasilat, texnoloji emal, kompressiya və laya qaz, su, şlam vurulması obyektlərini əhatə edən iri bir dəniz kompleksi yaratmaq məqsədilə kompressor və suvurma platforması inşa olunub.

Hər iki platforma körpü vasitəsilə bir-birinə birləşdirilib. Bütövlükdə isə, "Faza-1" layihəsinin obyektlərinə 48 quyu gövdəsinə malik hasilat, qazma və yaşayış platforması, buradan Səngəçal terminalına qədər 30 düymlük neft və 28 düymlük sualtı qaz boru kəmərləri, adıçəkilən terminalın genişləndirilməsi işləri daxildir.

"Azəri-Çıraq-Günəşli" yataqlar blokunun tammiqyaslı işlənmə layihəsinin birinci mərhələsi çərçivəsində tikinti-quraşdırma işləri 2004-cü ilin sonlarında başa çatdırılıb. 2005-ci il fevralın 14-də isə "Mərkəzi Azəri" platforması istismara verilib. Bununla da, "Əsrin müqaviləsi" çərçivəsində böyük neft hasilatına başlanılıb. 2025-ci il iyulun 1-dək "Mərkəzi Azəri" platformasından 1,142 milyard barel və ya 154 milyon ton neft çıxarılıb.

Burada illik maksimal neft hasilatı isə 2007-ci ildə qeydə alınıb. Həmin il platformadan gündəlik orta hasilat 244 min barel və ya illik 12 milyon ton olub. Sonrakı illərdə müqavilə sahəsində hasilatın aşağı düşməsi fonunda bu göstərici xeyli azalıb. "BP-Azərbaycan" şirkətinin məlumatına görə, cari ilin birinci yarısında "Mərkəzi Azəri" platformasında gündəlik neft hasilatı 86 min barel təşkil edib.



# Naxçıvanda taxıl biçini yekunlaşıb

**qəzetinə verilən məlumata görə, muxtar respublikada 2025-ci ilin taxıl biçini yekunlaşıb. Bu il muxtar respublika üzrə, ümumilikdə 17 582,7 hektar sahədə taxıl əkilib. Bunun 16 min 946,5 hektarını payızlıq, 636,2 hektarını isə yazlıq əkinlər təşkil edib.**

Əkin sahələrinin 8 275,8 hektarında buğda, 9 306,9 hektarında isə arpa yetişdirilib. Yekun nəticəyə görə, bu il ümumilikdə 37 648,8 ton məhsul əldə olunub. Bu məhsulun 18 136,9 tonu buğda, 19 511,9 tonu isə arpa olub. Muxtar respublika üzrə orta məhsuldarlıq 25,1 sentner/hektar təşkil edib. Ən yüksək məhsuldarlıq göstəricisi 36,8 sentner/hektar Sədərək rayonunda qeydə alınıb. Həmçinin bu il Naxçıvanda taxıl əkininə görə 5 512 fermerə 3,7 milyon manatdan çox subsidiya ödənilib.

Verilən məlumata görə, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyində mövsümün nəticələri və qarşıdan gələn əkin dövrünə hazırlıqla bağlı keçirilən iclasda komissiya yaradılıb. Yeni yaradılmış komissiya payızlıq əkinlərin proqnozlaşdırılması, istehsalçıların kənd təsərrüfatı texnikası, mineral gübrələr, pestisidlər və digər istehsal vasitələrinə olan tələbatının öyrənilməsi, aqrotexniki tədbirlərin vaxtında və düzgün şəkildə həyata keçirilməsi, eləcə də Naxçıvanın torpaq-iqlim şəraitinə uyğun toxum sortları ilə təminat işlərini tənzimləyəcək.

Bununla yanaşı, suvarma işlərinin səmərəli təşkili və əkinlərin optimal müddətdə aparılması da komissiyanın əsas fəaliyyət istiqamətləri sırasında yer alır. Komissiyanın fəaliyyəti çərçivəsində görüşlər keçiriləcək, əkin prosesinin gedişi ilə bağlı operativ və məqsədyönlü tədbirlərin icrası təmin ediləcək.

# Şərq – Qərb nəqliyyat dəhlizində daşımalar artıb

**2025-ci ilin yanvar-iyun aylarında Şərq – Qərb nəqliyyat dəhlizinin Azərbaycan hissəsi üzrə yük dövriyyəsinin həcmi 3,292 milyard ton-kilometr təşkil edib. Bu da əvvəlki ilin eyni dövrü ilə müqayisədə 42,3 milyon ton-kilometr və ya 1,3 faiz çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, Şərq – Qərb nəqliyyat dəhlizi üzrə yük dövriyyəsinin 2,117 milyard ton-kilometr hissəsini tranzit yüklər təşkil edib. Bu isə ötən ilin ilk 6 ayındakı göstəriciyə nisbətən 36,9 milyon ton-kilometr və ya 1,8 faiz artım deməkdir.

Yeri gəlmişkən, cari ilin birinci yarısında Azərbaycan ərazisindən keçən dəhlizlər çərçivəsində dəmir yolu və dəniz nəqliyyatı ilə yük daşımalarından 260,804 milyon manat gəlir əldə olunub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 15,4 milyon manat və ya 5,6 faiz azdır.

# 7 aylıq qeyri-neft ixracı – 2 milyard dollar

## *Bu, ilin əvvəlindən xarici bazara çıxışın 11,4 faiz artması deməkdir*

**Son illər qeyri – neft sektorunun inkişafı istiqamətində bir sıra layihələr həyata keçirilib. Bunun nəticəsində özəl bölmənin inkişafı sürətlənib, sahibkarlığın hüquqi bazası formalaşdırılıb, iqtisadi sərbəstlik diqqət mərkəzində saxlanılıb.**

Gömrük prosedurlarının sadələşdirilməsi, ticarət maneələrinin azaldılması və tranzit daşımaların optimallaşdırılması kimi mühüm tədbirlər də gerçəkləşdirilib. Eyni zamanda, yüksək keyfiyyətli məhsul istehsalı məqsədilə respublikamıza ən müasir texnika və avadanlıqlar gətirilib. Müəssisələrdə texnoloji proses günün tələbləri səviyyəsində tamamilə yenidən qurulub.

Respublikada Ümumdünya Ticarət Təşkilatının prinsiplərinə ciddi əməl olunması, daxili bazarın qorunması, haqsız rəqabətə qarşı mübarizənin diqqət mərkəzində saxlanılması və rəqabətin inkişafı ilə bağlı tədbirlər həyata keçirilməsi, eyni zamanda, istehlak mallarının keyfiyyətinə və təhlükəsizliyinə nəzarətin artırılması sahibkarların, eləcə də istehlakçıların mövqelərini gücləndirib. Şübhəsiz ki, standartlaşdırma və metrologiya kimi mühüm sahələrin beynəlxalq tələblərə uyğunlaşdırılması da milli istehsalçıların xarici bazarlara çıxışını stimullaşdırıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı "İxrac icmalı"nın avqust sayına əsasən, bu ilin yanvar-iyul aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,4 faiz artaraq 2 milyard ABŞ dolları təşkil edib. Bu dövrdə yeyinti məhsullarının ixracı 23,9 faiz çoxalaraq 689 milyon dollara çatıb.

Hesabat dövründə ixraca yönəldilən şəkər 2024-cü ilin müvafiq dövrünə nisbətən 10 milyon dollar və ya 55 faiz, meyvə-tərəvəz 123 milyon dollar və ya 32 faiz, kimya sənayesi məhsulları 45 milyon dollar və ya 30 faiz, qara metallar və onlardan hazırlanan məmulatlar 8 milyon dollar və ya 19 faiz, pambıq iplik 2,6 milyon dollar və ya 18 faiz, çay 317 min dollar və ya 9 faiz artıb.

Cari ilin 7 ayında aqrar məhsulların ixracı 28 faiz artaraq 551 milyon dollar, aqrar-sənaye məhsullarının ixracı isə 7 faiz artaraq 179 milyon dollara bərabər olub. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 22 faiz artaraq 730 milyon dollar təşkil edib. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl (178,8 milyon dollar) birinci olub. Bu siyahıda pomidor (tomat) (156,9 milyon dollar) ikinci, pambıq lifi (108,1 milyon dollar) isə üçüncü yerdə qərarlaşıb.

2025-ci ilin iyul ayı ərzində ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında şaftalı (48,5 milyon dolları) birinci olub. Bu siyahıda qızıl (33,9 milyon dollar) ikinci, daş kömür qatranının yüksək temperaturlu qovulmanın təmizlənməmiş digər yüngül yağları və məhsulları (13,8 milyon dollar) isə üçüncü yerə yüksəlib.




Hesabat dövründə Rusiya Federasiyasına 716,6 milyon dollar, Türkiyəyə 339,7 milyon dollar, İsveçrəyə 186,6 milyon dollar, Gürcüstana 183,4 milyon dollar, Ukraynaya isə 109,9 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub. Təkcə bu ilin iyul ayında Rusiya Federasiyasına 130,6 milyon dollar, Türkiyəyə 52,5 milyon dollar, İsveçrəyə 34,3 milyon dollar, Gürcüstana 28,7 milyon dollar, Ukraynaya isə 14,1 milyon dollar dəyərində qeyri-neft sektoruna aid məhsul göndərilib.

Bildirilib ki, 2025-ci ilin yanvar-iyul ayları üzrə hazırlanmış qeyri – dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "PRIME COTTON" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin ölkəmizdəki nümayəndəliyi, "Export Stream", "Baku Steel Company", "UYTROP" "P-AQRO", "Sahdag SY", "Avrora", "HOPER", eləcə də "Azərbaycan Şəkər İstehsalat Birliyi" təmsil olunub.

Qeyd edilib ki, cari ilin yanvar -iyul aylarında Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") tərəfindən dünyanın 41 ölkəsinə 10 milyon dollar dəyərində peyk-telekommunikasiya xidmətləri ixrac edilib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir isə onun ümumi gəlirlərinin 66 faizinə yüksəlib. 2025-ci ilin iyul ayında isə "Azərkosmos"un dünyanın 35 ölkəsinə 1,6 milyon dollar dəyərində xidmət ixracı olub. Hesabat dövründə peyk-telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində isə 2,7 milyon dollar ilə Birləşmiş Krallıq, 2,1 milyon dollar ilə Lüksemburq, 498,9 min dollar ilə Nigeriya, 461 min dollar ilə Türkiyə, 417,5 min dollar ilə Misir qərarlaşıb.

Belə göstəricilərin əldə olunmasında təbii ki, yazının əvvəlində sadalanan amillərlə yanaşı, digər səbəblər də mühüm rol oynayıb. Məsələn, respublikamız "Ümumiləşdirilmiş Preferensiyalar Sistemi+" Proqramına ("GSP+") qoşulandan sonra ixrac potensialı nəzərəçarpacaq dərəcədə güclənib, ixrac mallarının çeşidi artıb. Bu, ölkəmizə Aİ bazarlarına güzəştli şərtlərlə ixrac imkanı yaradıb. Belə bir layihənin gerçəkləşdirilməsi həm də ixrac potensialının genişləndirilməsinə və ixrac strukturunun diversifikasiyasına önəmli təsir göstərib. Bütün bunlarla bərabər, ixrac potensialının güclənməsini son illər Vergi Məcəlləsinə edilən düzəlişlər, sənaye məhəllələrinin, texnoparkların, azad iqtisadi zonaların salınması da sürətləndirib.

Yuxarıda qeyd edilənlərlə bərabər, ölkəmizdə investisiya mühitinin cəlbediciliyinin artırılması üçün müəyyən layihələrin gerçəkləşdirilməsi ümumi prosesə təkan verib. Bu gün yerli istehsalatda istifadə olunan çoxsaylı məhsulların idxal rüsumundan azad edilməsi yerli istehsalın maya dəyərinin azaldılmasına, yerli malların xarici bazarlarda rəqabət qabiliyyətinin artırılmasına müsbət təsir göstərməsi də deyilən fikrin bariz ifadəsidir.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Anadilli mətbuatımızın öncül rəsmi nəşri – “Xalq qəzeti”

## *Bu gün işıq üzü görən 30 min 877-ci sayı ilə qocaman qəzetin tarixində 107-ci il başlanır*

**Azərbaycan milli mətbuatımızın yaranmasın 150 illik yubileyindən, əsryarımlıq bu şərəfli tarixdən 40 gün sonra ölkəmizin ən uzunömürlü gündəlik ictimai-siyasi nəşri olan “Xalq qəzeti”nin 106 yaşı da tamam oldu. İlk sayı Azərbaycan Xalq Cümhuriyyəti zamanı, milli mətbuatımızın mövcudluğunun 44-cü ilində – 1919-cu il avqustun 29-da “Kommunist” adı ilə işıq üzü görmüş bu qəzet 7 onillik bir dövrdə xalqımızın acılı-şirinli taleyinin, faciəli-təntənəli günlərinin, milli yaddaşa sadiqliyinin, eləcə də yurdumuza qarşı xəyanətlərin ən əhatəli salnaməsi sayılır.**

Tarixinin 72 ilinin tamamında müstəqilliyimizin bərpasının mətbu qaranquşlarından biri kimi fəaliyyətini “Xalq qəzeti” adı altında davam etdirən redaksiya 1991-ci ilin 27 avqustundan “Xalqın qəzeti” məsləkini yaradıcılıq devizinə çevirib. 72 illik avanqard nəşrin hüquqi varisi olan kollektiv 34 ildir ki, ümummilli nəşr kimi suveren dövlətimizə və azadlıq qazanmış xalqımıza xidmət göstərir.

2 əsrin 11 onilliyində, 2 müxtəlif ictimai sistemdə xalqımızın və dövlətçiliyimizin mətbu salnaməsinə çevrilmiş bu rəsmi statuslu, ümumxalq yönlü qəzetin 106 il davamlı işıq üzü görməsi milli mətbuatımızda ikinci bir qəzetə nəsib olmayıb. Bu nadirlik yalnız media tariximiz üçün deyil, bütövlükdə, ölkənin milli-mənəvi dəyərlər çevrəsinin önəmli faktıdır. Dövlət müstəqilliyimizin 34 il əvvəl qəzetin taleyində yaratdığı əsaslı dönüş, redaksiyanın qarşısında açdığı yeni mərhələ hərtərəfli yeniləşmə, söz azadlığı anlayışının gerçəkləşməsi ilə müşayiət olunub.

1994-cü ildə 75 illik yubileyi münasibətilə redaksiya kollektivinə təbrik məktubunda ümummilli lider Heydər Əliyev qəzetin ötən dövrdəki fəaliyyətinə doğru-düzgün qiyməti belə ifadə etmişdi: “Xalq qəzeti” mənalı yaradıcılıq yolu keçmiş, özünəməxsus üslub və sənətkarlıq xüsusiyyətləri olan nəşrlərimizdəndir. Uzun müddət “Kommunist” adı ilə nəşr edilən bu qəzet bütün sovet dövrü ərzində Azərbaycanın ictimai, iqtisadi və mədəni həyatının güzgüsü olmuşdur. Respublikada qəzetçilik ənənələrinin formalaşmasında, jurnalistikamızın inkişafında “Xalq qəzeti”nin xidmətləri xüsusi qeyd olunmalıdır”. Ulu öndər bu yüksək qiyməti ilə milli-mədəni sərvətə çevrilmiş qəzetin tarixi xidmətlərinə kölgə salmaq istəyən populist və avantürist şəxslərin bədxah münasibətini obyektiv olaraq cavablandırmışdı.




Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusunun dediyi “Bugünkü çoxsəsli, rəngarəng Azərbaycan mətbuatının bir çox görkəmli nümayəndələri bu qəzetin yaradıcılıq məktəbini keçmişdir” sözləri təkcə “Xalq qəzeti”nin milli jurnalistikamıza xidmətinin uca tutulması deyil, həm də yeni şəraitdə varisliyin zəruriliyinin təsdiqi idi. Belə bir ideya-siyasi baxış əsas verir ki, bu gün inamla deyək: “Xalq qəzeti” əsrdən uzun media marafonu keçən bir ümummilli qəzet kimi tarixinin 107-ci ilinə milli maraqlara və dövlətçilik məfkurəsinə yüksək peşəkarlıqla xidmət etməklə gəlib.

Keçilən tarixi yola günün tələb və çağırış meyarları ilə nəzər salanda “Xalq qəzeti”nin Azərbaycanın 106 illik möhtəşəm media salnaməsi olduğunu bir daha yəqin edirik. Bu qənaət qəzetin ötən dövrdə, xüsusən müstəqillik illərində həqiqi xalq tribunası olmaq səlahiyyətini inamla gerçəkləşdirməsinin təsdiqidir. “Xalq qəzeti”nin bu tarixi missiyası onun milli jurnalistikamızın tarixindəki mövqeyi və rolu məsələsini də gündəmə gətirir.

Böyük Həsən bəy Zərdabi demokratik düşüncə tariximizin ən öyünclü səhifələrindən birini təşkil edən milli-məfkurəvi fəaliyyətinə “məktəb – mətbuat – teatr” triadasını qurub gerçəkləşdirməklə başlamışdı. Milli mətbuatımızın atası, görkəmli maarifçi-demokrat mübarizə meydanında bu fəaliyyətləri ard-arda deyil, məhz yan-yana qoymuşdu. Məktəb xalqı savadlandırmaqla mətbuat və teatrın inkişafına kömək etməli; mətbuat ictimai maarifləndirmə ilə təhsil və teatrın meydanını genişləndirməli; teatr isə ictimai mövzuları və canlı çıxışları ilə xalqa tərəqqi yolunu göstərməli idi.

Qəzetin 106 illik tarixi onun milli maarifləndirmədən tutmuş, demokratik inkişafa və dövlətçiliyin bərpasına qədər geniş arealda xalqın önündə getməsini, sivil inkişafa işıq salmasını, milli maraqlara davamlı və sədaqətlə xidmət etməsini çağdaş nəsillərə iri planda təqdim edir. Bu gün fəxrlə demək olar ki, mürəkkəb ictimai-siyasi şəraitdə, həmçinin bir müddət “Kommunist” adı ilə nəşr olunduğuna baxmayaraq, “Xalq qəzeti” Azərbaycanın milli maraqlarına və dövlətçilik məfkurəsinə sədaqətlə xidmət etmiş mətbuat orqanıdır.






Media tariximizə yeni baxış “Xalq qəzeti”nin varisi olduğu “Kommunist” qəzetinin Azərbaycan Xalq Cümhuriyyətinin ilk aylarında ərsəyə gəlmiş ilk rəsmi mətbu nəşrimiz “Azərbaycan”ın bazasında və onun davamı olaraq buraxıldığını aşkara çıxarıb. “Kommunist” qəzetinin sovet ideologiyasının sərt tələblərini açıq-gizli şəkildə pozaraq milli maraqları üstün tutmağa çalışması da məhz bununla izah olunur.

Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra onun parlamentinin gündəlik qəzetinin - ilk rəsmi milli nəşr olmuş “Azərbaycan” qəzetinin kollektivi işdə saxlanılmaqla (redaktor Üzeyir Hacıbəyli istisna olmaqla) onun bazasında “Kommunist” qəzeti fəaliyyətə başlayıb. Hakim kommunist rejiminin basqı və qadağalarına baxmayaraq, milli demokratik mətbuatımızın yetirmələri, jurnalistikamızın sonrakı nəsil davamçıları milli qəzetçilik təcrübəsini, milli dövlətçilik yaddaşının qorunması ilə bağlı səyləri bu nəşrin fəaliyyətində davam etdirmək üçün nə mümkündürsə ediblər. Bu işdə əvvəllər “Azərbaycan” qəzetində çalışmış, milli məfkurə daşıyıcıları olan ziyalılar, publisistlər daha fəal rol oynayıblar.

Yeri gəlmişkən xatırladaq ki, mətbuat tarixindən bilgisi kifayət qədər yüksək olmayan bəzi qələm sahibləri bu tarixi gerçəyi zorən təbibliklə inkar etməyə çalışır, redaksiyamızı, guya, “Azərbaycan” qəzetinin tarixini təhrif etməkdə suçlayırlar. Belə olmasaydı, ötən ilin bu günlərində kollektivimizin 105 illik yubiley əhvalına bədxahlıqla acı qatılmazdı. Bu təəssüfləndirici cəhdlə oponentlərimiz heç vaxt söyləmədiklərimizi adımıza çıxmış, söylədiklərimizi isə qərəzin əyri güzgüsündə təhrif etmişdilər. Hansı maraqlasa, həmkarlıq etikası, peşə-davranış kodeksi prinsipləri bir kənara qoyulmuş, dəridən-qabıqdan çıxmaqla sübut etməyə çalışmışdılar ki, guya,“Xalq qəzeti” redaksiyası özünü “Azərbaycan” qəzetinin varisi sayır.

Yox və yenə də yox. “Azərbaycan” qəzeti yenidən nəşrə başladığı son 34 ildə “1918-ci ildə” yaradıldığını bəyan edir. “Kommunist” qəzetinin nəşr tarixi isə 1929-cu ildə 10 illik yubiley keçirilməklə “1919-cu il”də ilk və tək nömrəsinin işıq üzü görməsi ilə təsdiqlənib. Bu gün də qəzet öz tarixini 1919-cu ildən hesablayır. Belə olan halda “Xalq qəzeti” necə 1 il əvvəl nəşrə başlamış “Azərbaycan” qəzetinin tarixinə şərik çıxa bilər?

“Azərbaycan” qəzetinin nəşri bir də zəmanə dəyişəndə – 71 il sonra bərpa edildi. “Kommunist” qəzeti” isə 72 il sonra “Xalq qəzeti” adı ilə çıxmağa başladı. Burada qarışıq salınası nə var? Həqiqəti təhrif etmək üçünsə min bir saxta dəlil-sübut tapılır.

Qayıdaq “Kommunist” qəzetinin fəaliyyətinin ilk dövründə qorunub saxlanılan milli təmayülə. Xalq Daxili İşlər Komissarı vəzifəsində çalışmış Həmid Sultanov 1922-ci il martın 2-də “Kommunist” qəzetində Azərbaycanın sərvətlərinin Rusiyaya daşınıb aparılması və əvvəllər bunun müqabilində Bakıya ərzaq adı altında boş vaqonlar gətirilməsi barədə yazı çap etdirib. Martın 3-də həmin məqaləyə görə Həmid Sultanov Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun xüsusi iclasında vəzifədən azad edilərək həbs olunub.

Gizli müsavatçı-publisist Mirzəbala Məmmədzadə qəzetin bir neçə nömrəsində ali təhsilin milliləşdirilməsi mülahizələri ilə çıxış etmişdi. Təəssüf ki, “Kommunist” qəzetinin bu milli təmayülünü Sergey Kirov, Levon Mirzoyan kimi yad simaların rəhbərlik etdikləri, Əliheydər Qarayev kimi milli hisslərdən məhrum yerli rəhbər kadrlardan dəstək alan Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi daim qamçılamışdı. “Kommunist” qəzetindəki “millətçilik yuvası”nı dağıtmaq üçün dəfələrlə yüksək səviyyədə ciddi tədbirlər görülmüşdü.

O dövrdə redaksiyada çalışan milli varlığa bağlı ziyalılar qəzetin milli-xəlqi istiqamətini qoruyub saxlamaq üçün bütün imkanlardan istifadə ediblər. Təəssüf ki, 1922-ci ildə SSRİ yaradıldıqdan və Nəriman Nərimanov Moskvaya aparıldıqdan sonra qəzetin nisbi sərbəstliyinə də son qoyulub, redaksiya yuxarının direktivləri və sərt nəzarəti altında fəaliyyət göstərməli olub.

1924-cü ilin aprelində Mərkəzi Komitənin ikinci katibi Əyyub Xanbudaqov “Kommunist” qəzetində “Milli məsələyə dair” məqalə ilə çıxış edərək partiyanın milli siyasətini ciddi tənqid edib, milli kadrların hazırlanmasının qarşısının alındığını, yerli kadrların vəzifəyə təyinatında ayrı-seçkiliyə yol verildiyini bildirib. Məqalə Bakı Partiya Komitəsinin növbəti konfransında müzakirə edilib. Xanbudaqov cəzalandırılıb və Əliheydər Qarayevə tapşırılıb ki, “Kommunist” qəzetində kök salmış “millətçilər, sovet hakimiyyətinin düşmənləri” aşkar edilərək ifşa olunsun. Nəticədə, qəzetin redaksiyasında çalışan görkəmli ziyalılarımız – Əbdürrəhim bəy Haqverdiyev, Ağababa Yusifzadə, Cəfər Cabbarlı, Mir Seyfəddin Kirmanşahlı kimi qələm sahibləri Əliheydər Qarayevin güdazına gediblər. Belə faktların sayı-hesabı yoxdur.

Bütün bunlara baxmayaraq, “Kommunist” qəzeti 1920–30-cu illərdə həyata keçirilən mədəni inqilab, sənayeləşmə, kənd təsərrüfatının kollektivləşdirilməsi proqramlarına Azərbaycanda ideya-siyasi təminat yaradılmasında, adamların quruculuq işlərinə səfərbər edilməsində fəal rol oynayıb. Savadsızlığın ləğvi, qadın azadlığı kimi hərəkatlarda da “Kommunist” qəzeti kütlələrə dəyişdirici təsir göstərib.

Qəzet əlifba islahatının həyata keçirilməsində, Şərq xalqlarının və Türkoloji qurultayların keçirilməsində informasiya-təbliğat ruporu olmuşdu. Bir sözlə, Elmlər Akademiyasının, ədəbi-bədii təşkilatların hələ formalaşmadığı o illərdə “Kommunist” qəzetinin redaksiyası milli elmi-mədəni qüvvələri öz ətrafında toplayan başlıca mənəvi mərkəz olub. Qəzet, eyni zamanda, milli jurnalist kadrları yetişdirən, yönləndirən yaradıcılıq məktəbə çevrilib.

Ümumiyyətlə, uzun onilliklər boyu “Kommunist” qəzeti respublikanın ən yaxşı jurnalistlərinin qüvvəsi, təəssübkeş ziyalıların fəal iştirakı ilə nəşr edilib. Onun ideya-siyasi və peşəkarlıq səviyyəsi sahə və bölgə dövri nəşrləri üçün örnək kimi qəbul olunub. Qəzetin həyatındakı bir sıra yeniliklər, milli mətbuatımızın ümumi tarixinə önəmli fakt və hadisələr kimi daxildir.

Müasir qəzet üslubu, əsasən, “Kommunist” qəzetinin səhifələrində cilalanıb, zənginləşib. Ərəb əlifbasından istifadə edən ölkələr arasında ilk mexaniki mətnyığan linotip maşın 1925-ci ildə ABŞ-da “Kommunist” qəzetinin sifarişi ilə hazırlanıb. Yaponiya kommunistlərinin lideri Sen Katayama o dövrdə SSRİ-yə səfəri zamanı Bakıya gələrkən redaksiyada olub və sonralar qəzetə xaricdən müxbirlik edib. Qəzetin Böyük Britaniya üzrə müxbiri, Britaniya parlamentinin üzvü Valton Nyubold redaksiyaya vaxtaşırı maraqlı məqalələr göndərib.

Mətbuat sahəsində çalışan məşhur tərcüməçilər uzun illər “Kommunist” qəzetində formalaşıblar. Respublikada fəhlə-kəndli müxbirlər hərəkatının və professional jurnalist təhsilinin əsasını qoyanların bir qismi də “Kommunist”in təcrübəli işçiləri olublar.

Qəzetə ilk onillikdə redaktorluq etmiş Əliheydər Qarayev, Ruhulla Axundov, Böyükağa Talıblı, Ağababa Yusifzadə, Həbib Cəbiyev, tanınmış yazarlar Xəlil İbrahim, Fərhad Ağazadə, qəzetlə əməkdaşlıq edən neçə-neçə siyasətçi, ziyalı millətçi damğası ilə qətlə yetiriliblər. Qəzetin fəaliyyəti ilə sıx bağlı olan Üzeyir Hacıbəyli, Məmməd Səid Ordubadi, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza, Mirzə İbrahimov, Mir Cəlal, İlyas Əfəndiyev, Nəbi Xəzri, Yusif Səmədoğlu kimi yazıçı və şairlər uzun illər qəzetdə dərc olunmuş yazıları ilə milli-mənəvi dəyərlərimizi yaşadıblar, onun sağlam yöndə inkişafını təmin ediblər.

Bu nəsillərin istedadlı nümayəndələri II Dünya müharibəsi illərində və sonrakı onilliklərdə aktual çıxışları ilə qəzeti xalq həyatı ilə yaxınlaşdıraraq onun nüfuzunu yüksəldiblər. Əli Vəliyev, Rza Quliyev, İsrafil Nəzərov, Ağababa Rzayev, Rəşid Mahmudov, Ramiz Əhmədov, Cəmil Əlibəyov, Tofiq Rüstəmov kimi yetkin redaktorların rəhbərliyi ilə milli mətbuatımızın ənənələri qəzetin səhifələrində yaşadılıb, zənginləşdirilib.

Bu gərgin yaradıcılıq yolunun 1950 – 1960-cı illərində qəzetin səhifələrində milli təmayül yenidən güclənib. Nəşrin professionallığı dünya jurnalistikasının yaradıcılıq və texniki uğurlarını mənimsəməklə daim yüksəlib. Mövzu genişliyi, janr əlvanlığı, operativlik, coğrafi əhatə dairəsi “Kommunist”i ölkənin lider qəzeti kimi populyarlaşdırıb. Qəzetin ana dilimizə qayğıkeş münasibəti, ənənə və novatorluqda normativliyi və varisliyi əsas götürməsi onu mükəmməl bir məktəbə çevirib.

Bu qəzetin ilk “azərbaycançı” kollektivi və sonrakı dövrdə milli təmayülü qoruyub yaşadan yaradıcı heyətləri maarifçi-demokratik mətbuatımızın ənənələrini davam etdiriblər, Azərbaycanın yeni rəsmi mətbuat məktəbini formalaşdırıb zənginləşdiriblər. Təsadüfi deyil ki, “Kommunist”ə 1937-ci ilədək rəhbərlik etmiş redaktorların hamısı “milli təmayülə sədaqətə” görə millətçilik damğası ilə repressiya olunub, redaksiya həmişə ciddi ideoloji nəzarət altında saxlanıb.

Belə bir şəraitdə “Kommunist” qəzetinin milli-demokratik mətbuatımızın ənənələrinə daxilən sadiq qalan yaradıcı qüvvələri mübarizəni alt qata keçirərək xalq işinə sədaqətlərini iqtisadi quruculuğa, mədəni inqilaba, elmin və milli ədəbi-bədii yaradıcılığın inkişafına yönəltdilər. Redaksiyanın ideoloji istiqaməti ilə yanaşı davam edən milli təmayülə bağlılıq xətti sonrakı nəsillərə ötürüldü. Artıq əsrin 50–60-cı illərində “Kommunist” qəzeti respublikanın yerli maraqlarını ön plana çəkib, milli inkişafa daha böyük maraq və həvəslə xidmət göstərib.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə hakimiyyətə gəlişi isə qəzetin tarixində milliləşmənin yeni mərhələsini açıb. Ötən əsrin 70–80-ci illərində respublikada gedən geniş quruculuq və milli-mədəni yüksəliş dövründə qəzetin kollektivi Heydər Əliyevin liderlik nümunəsindən güc alıb, həmin proseslərin əhatəli xronikasını yaradıb. Müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi Heydər Əliyevin indiki intibah və tərəqqiyə özül olmuş tarixi fəaliyyəti də “Xalq qəzeti”-nin tarixində parlaq səhifələr yaradıb.

Qəzet respublikamızda canlı, təcrübi jurnalistika məktəbi kimi ən yaxşı yazarların bir neçə nəslini yetişdirib, öz nümunəsi ilə digər mərkəzi dövri nəşrlərin, bölgə mətbuatının lokomotivi rolunu oynayıb. Redaksiyanın divarları arasında çağdaş jurnalistikamız üçün də gərəkli olan təcrübə və yaradıcılıq ənənələri yaşadılıb.

Sovet dövründə Azərbaycanın “bir nömrəli dövri nəşri” sayılan “Kommunist”in yubileyləri “milli mətbuatımızın böyük hadisəsi”, “kommunist mətbuatının avanqardı”, “xalq tribunasının bayramı” kimi qeyd olunub. Qəzetin 1969-cu il sentyabrın 18-də Azərbaycan Dövlət Akademik Dram Teatrında keçirilmiş 50 illik yubiley mərasimində sovet dövlətinin yüksək mükafatlarından olan Qırmızı Əmək Bayrağı ordenini qəzetin bayrağına Azərbaycana yeni rəhbər seçilmiş Heydər Əliyev sancıb. Bu mərasim həm də respublikanın siyasi tarixinə milli gerçəkliyimizin diqqətçəkən hadisələrindən biri kimi daxil olub: yeni respublika rəhbəri müxtəlif ölkələrin və xalqların təmsilçilərinin iştirak etdiyi yığıncaqda o vaxtın mövcud qaydalarına uyğun olaraq rus dilində deyil, ana dilimizdə çıxış edib.

Ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra onun himayəsi ilə qəzet təkcə həyatın işıqlı tərəflərini deyil, həm də cəmiyyətdəki neqativ halları, problemləri cəsarətlə açıb göstərməyə başlayıb. 1970 – 1980-ci illərdə “Kommunist”in tirajı 500 – 600 min nüsxəyə çatıb və qəzet hər evə, hər ailəyə, bütün kollektivlərə çatdırılıb.

XX əsrin sonlarında – SSRİ-nin süqutu prosesində qəzetin kollektivi milli-azadlıq hərəkatını dəstəkləyib, Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizənin önündə gedib. Kommunist rejiminin son dövründə qəzetdə imperiya mərkəzini və onun yerli vassallarını razı salmayan, xalqın haqq səsini yayan yazılar dərc olunub. 1988-ci ildə erməni millətçi-separatçılarının Azərbaycana ərazi iddiası ilə siyasi-hərbi təcavüzə başlaması, keçmiş SSRİ-nin kommunist rəhbərliyinin ermənipərəst Mixail Qorbaçovun himayəsi ilə bu ədalətsizliyin qarşısını almaması bütün xalqımız kimi, “Kommunist” qəzetinin redaksiyasının da sovet sisteminə bağlılığını heçə endirib.

20 Yanvar qırğınından sonra kommunist ideologiyasına xidmətdən rəsmi surətdə imtina edən yaradıcı heyət qəzetin adını dəyişməyə cəhd etsə də, Moskvaya bağlı siyasi rəhbərlik və hərbi vəziyyət bu addımı ilyarım ləngidib. 1991-ci ilin yayında Sovet imperiyasının və onun kommunist rejiminin süqutunu həlledici mərhələyə yaxınlaşdırmış “QKÇP” olayları zamanı qəzet redaksiyasının kollektivi avqustun 23-də respublikada bundan sonra da 24 gün mövcud olmuş Azərbaycan Kommunist Partiyasının orqanı olmaqdan imtina etdi. Yaradıcı kollektiv nəşrin təsisçiliyini öz üzərinə götürdü.

O vaxtkı baş redaktor Tofiq Rüstəmovun təklifi ilə xalqa və azad sözə xidmət məramı ilə 71 il Azərbaycan mətbuatının avanqardı olmuş “Kommunist” fəaliyyətini “Xalq qəzeti” adı ilə, müstəqil ictimai-siyasi nəşr kimi davam etdirməyi qərara alıb. 1920-ci ilin 28 aprelində xalqdan ayrı salınmış ilk dövlət qəzetimizin fəaliyyətini davam etdirən bir nəşr, nəhayət, “Xalq qəzeti” adı ilə xalqa xidmət amalına qovuşub – xalqın qəzeti olub.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edildiyi günlərdə xalqla respublika rəhbərliyi arasında rəsmi informasiya körpüsü olmuş “Xalq qəzeti” sonrakı 2 il yarımda baş verən siyasi təbəddülatlar, uğursuzluqlar dövründə dövlət suverenliyinə və mətbuat azadlığı prinsiplərinə sadiq qalıb. 1993-cü ilin böhranlı yayında kollektiv öz mövqeyi və qələmi ilə ümummilli lider Heydər Əliyevin xilaskarlıq missiyası ilə hakimiyyətə qayıdışını təkidlə tələb edən xalqımızla bir yerdə olub.

Yeni mərhələdə qəzetin rəsmi statusunu bərpa etmiş, onun gündəlik fəaliyyətini davam etdirməsi üçün zəruri tədbirləri gerçəkləşdirmiş Ulu öndər 75 yaşlı “Xalq qəzeti”nin xalqın söz tribunası, ölkənin ictimai rəy ruporu olmaq missiyasını layiqincə yerinə yetirdiyini vurğulayaraq bildirmişdi: “Müstəqilliyimizin qazanılmasından sonra da “Xalq qəzeti” respublikanın ictimai həyatında baş verən hadisələrə cəsarətlə müdaxilə etmiş, bir çox problemlərin aşkarlanmasında mühüm rol oynamışdır. Amansız təcavüzkara qarşı apardığımız ədalətli mübarizə qəzetin daimi mövzusuna çevrilmişdir. Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır”.

Qəzetin tarixində yeni məsul mərhələ, bax, belə başlaıb. Müstəqil Azərbaycanda 1993–1995-ci illərdə həyata keçirilmiş tarixi tədbirlərə, ölkənin xaos və böhrandan çıxarılması prosesinə fəal informasiya dəstəyi vermiş “Xalq qəzeti” Ulu öndərin etimad və himayəsi ilə 1995-ci ilin noyabrından Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin və redaksiya kollektivinin həmtəsisçiliyi ilə nəşr olunub.

Ümummilli lider o günləri belə səciyyələndirirdi: “Bu gün qəzet müstəqil Azərbaycanda hüquqi və demokratik dövlət quruculuğu işində güclü səfərbəredici rol oynayır”. Qəzetin son 22 ildəki 7 mindən artıq sayı Ulu öndərin layiqli davamçısı İlham Əliyevin Azərbaycana rəhbərliyi dövründə işıq üzü görüb. Bu mərhələ ölkəmizdəki hərtərəfli tərəqqinin geniş əks etdirilməsi ilə yanaşı, həm də qəzetin özünün inkişafında irəliyə doğru yeni addımlarla əlamətdardır.

Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2025-ci il tarixli fərmanı ilə yeni reallıqlar nəzərə alınmaqla, Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində olan “Respublika” qəzeti və “Xalq qəzeti” redaksiyalarının birləşmə formasında yenidən təşkili yolu ilə Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin tabeliyində “Xalq” qəzetinin redaksiyası” Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılıb. Bu gün tarixinin 107-ci ilinə qədəm qoyan qocaman qəzetin fəaliyyətində yeni bir mərhələ açan bu addım redaksiyanın maddi-texniki bazasının, buraxılış texnologiyasının yeniləşməsinə, yaradıcı mühitin gücləndirilməsinə xidmət edir.

Qəzetin yeni redaksiyası söz azadlığı prinsiplərinin ardıcıl bərqərar olması, nəşrin öz populyarlığını, mötəbər media qurumu kimi cəmiyyətdə öncüllüyünü qoruyub saxlaması üçün yaradılmış şəraitə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirir. Kollektiv bundan sonra da demokratik cəmiyyət quruculuğunun informasiya təminatçısı olmaq, xalqımızın köklü maraqlarını cavablandırmaq üçün yüksək amal və peşəkarlıqla çalışacaq.

***Tahir AYDINOĞLU,***
***Əməkdar jurnalist***

# Heydər Əliyev Mərkəzində Çin dili kurslarının iştirakçılarına sertifikatlar təqdim olunub





**Heydər Əliyev Mərkəzində distant formada keçirilən növbəti Çin dili kurslarının birinci mərhələsini uğurla başa vuran 20 tələbəyə sertifikatlar təqdim olunub.**

Tədbirdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Qeyd edək ki, Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2019-cu ildən Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC), Azərbaycan Dillər Universitetinin nəzdindəki Konfutsi İnstitutunun və Pekin Xarici Dillər Universitetinin birgə tərəfdaşlığı ilə UNEC-də distant Çin dili kursları təşkil olunur. Üçüncü qəbul üzrə tədris UNEC-də 2024-cü ilin dekabrından başlayıb.

Sertifikatların təqdim olunması mərasimində çıxış edən Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov bildirib ki, 2019-cu ildə Heydər Əliyev Fondunun təşəbbüsü və Leyla Əliyevanın rəhbərliyi ilə başlanılan distant Çin dili kursları qısa müddətdə böyük marağa səbəb olub. O deyib ki, müraciətlərin sayı hər mərhələdə dəfələrlə artıb. Rektor vurğulayıb ki, kursların distant formada keçirilməsi həm ölkə daxilində, həm də xaricdə yaşayan azərbaycanlılar üçün geniş imkanlar açır.

Azərbaycan Dillər Universitetinin rektoru Kamal Abdulla çıxışında bildirib ki, qədim zamanlardan Çindən Qərbə doğru gedən karvanlar təkcə ipək deyil, mədəniyyət, ədəbiyyat və sənət də aparırdılar. Onun sözlərinə görə, Azərbaycan da bu mədəni mübadilənin bir parçası olub, buradan da Çinə ədəbi və mədəni nümunələr gedib çıxıb. Bu səbəbdən dünya ədəbiyyatına baxanda Şərq və Qərb ənənələrinin qarışıq, zəngin mənzərəsi ilə qarşılaşırıq. Rektor vurğulayıb ki, Çin mədəniyyəti, dili, ədəbiyyatı, Konfutsi və Lao Tszının yaratdıqları böyük fəlsəfi irs tələbələr üçün öyrənilməli dəyərlərdir.



Tədbirdə çıxış edən kursun məzunları Turanə Kamalova və Aydan Qurbanova diqqətə çatdırıblar ki, distant Çin dili kursları onların həyatında yeni imkanlar açıb və gələcək fəaliyyətlərinə müsbət təsir göstərib. Qeyd ediblər ki, bu proqram sayəsində həm şəxsi inkişaf, həm də peşəkar fəaliyyət üçün vacib biliklər qazanıblar.

Çıxışlarda, həmçinin bildirilib ki, dərslərə Azərbaycanın müxtəlif regionlarından, eləcə də Çində və digər xarici ölkələrdə yaşayan azərbaycanlılar da qoşula bilirlər. Şəhid ailələri, qazilər və onların ailə üzvləri, eləcə də sosial cəhətdən həssas əhali qruplarından olan şəxslərin təhsil haqları Heydər Əliyev Fondu tərəfindən qarşılanır. Tədris müxtəlif yaş qruplarını əhatə edir. İndiyədək ən gənc tələbənin 14 yaşı, ən yaşlı tələbənin isə 74 yaşı olub.

Heydər Əliyev Mərkəzində keçirilən tədbir zamanı həm də kurs iştirakçılarının ifalarında Çin mədəniyyətini tərənnüm edən bədii proqram təqdim olunub.

***XQ***

---

*XQ-nin araşdırması*

# Plastiklər üstümüzə qayıdır

**(əvvəli 1-ci səhifədə)**

Plastik məhsulların və tullantıların miqyası isə durmadan artır. Statistik göstəricilər bu tullantıların nə qədər sürətlə artdığını və gələcəkdə hansı fəsadlara səbəb ola biləcəyini aydın şəkildə ortaya qoyur. Əgər 1950-ci illərdə dünya üzrə cəmi 1,5 milyon ton plastik istehsal olunurdusa, bu rəqəm 2023-cü ildə artıq 400 milyon tonu keçmişdi. Hazırda dünyada ildə 500 milyon tondan çox plastik istehsal olunur və proqnozlara əsasən, 2050-ci ildə bu rəqəm 1 milyard tona çatacaq.

İstehsal olunan bütün plastiklərin isə, təxminən, 36 faizi qablaşdırmaya yönəldilir. Buraya birdəfəlik plastik qida və içki qabları daxildir. Onların da 85 faizi sonradan rəsmi və qeyri-qanuni zibilxanalara atılır.

Kənd təsərrüfatında da plastik məhsulların geniş istifadə olunur. Toxum torbalarından tutmuş kübrə tornalarına kimi bir çox məqsədlə istifadə olunur. Balıqçılıq sənayesi isə başqa bir əsas mənbədir. Son tədqiqatlar göstərir ki, təkcə sənaye balıq ovu alətlərindən okeanlara hər il 100 milyon funtdan çox plastik axır. Moda sənayesi plastikin başqa bir iri istehlakçısıdır.

Geyim materiallarının təxminən 60 faizi plastik tərkiblidir; polyester, akril və neylon bu sahədə əsas yer tutur. Plastik torbalar da ayrıca problem kimi qarşımıza çıxır. Hər bir ailə ildə təxminən 500 ədəd plastik torbadan istifadə edir. Bu torbaların təbiətdə tam parçalanması üçün 500 ildən çox vaxt tələb olunur. Dünyada hər dəqiqə 1 milyon plastik torbanın atıldığı nəzərə alınsa, bu, fəlakətin miqyasını daha da aydın göstərir.

Bu vəziyyət yalnız istehsal baxımından deyil, tullantı yükünün miqyası baxımından da ciddi təhlükə yaradır. Mütəxəssislər hesab edir ki, bu tullantıların yalnız 20 faizi təkrar emal olunur. Onu da qeyd etmək lazımdır ki, hazırda plastik tullantıların idarə olunmasında Qlobal Şimal və Qlobal Cənub ölkələri arasında ciddi fərqlər mövcuddur. Yüksək gəlirli ölkələrdə tullantılar toplanıb təkrar emala göndərilsə də, aşağı və orta gəlirli ölkələrdə çox vaxt küçələrə atılır. Hər il yoxsul ölkələrdə insanların təqsiri üzündən 52,1 milyon ton plastik tullantı əmələ gəlir ki, bu da qlobal həcmin beşdə birinə bərabərdir (ildə 260 milyon tondan artıq tullantı). Üstəlik, bu ölkələrin əksəriyyətində zibillərin yığılması və daşınması ilə bağlı ciddi problemlər mövcuddur. Yəni nəinki zibil çıxarılmır, hətta onu atmaq üçün xüsusi qablar belə yoxdur.

Plastik çirklənmənin ən yüksək olduğu ilk üç ölkə Hindistan (ildə 9,3 milyon ton), Nigeriya (ildə 3,5 milyon ton) və İndoneziyadır (ildə 3,4 milyon ton). Bu ölkələrdə plastik məhsulları iqtisadiyyatın əsas hissəsinə çevirməklə təbii və ənənəvi materialları sıxışdırıb. Məsələn, Taylandda banan yarpaqları və Hindistanda metal nahar qutuları kimi ənənəvi materiallar artıq sıxışdırılıb və yerini plastik məhsullara verib. Bu vəziyyət Azərbaycanda da müşahidə olunur, burada da ucuz plastik qablar, torbalar və digər birdəfəlik məhsullar bazarda geniş yayılıb. İstifadə olunduqdan sonra bu məhsulların dənizə axıdılması və yandırılması geniş yayılıb. Hətta bəzi yerlərdə tullantıların ev həyətlərində və küçələrdə yandırılması adi hal alıb. Hesablamalara görə, plastik tullantıların, təxminən, 57 faizi yandırılır, qalan 43 faizi isə təbiətdə qalır və tədricən parçalanır Bu zaman havaya karbon dioksid, metan, azot oksidi və dioksin kimi zəhərli maddələr yayılır. Onlar atmosferə yayıldıqda qlobal istiləşməyə, hava çirkliliyinə və insan sağlamlığında ciddi problemlərə səbəb olur.

Tullantıların torpağa basdırılması və dənizə axıdılması da da ciddi ekoloji və iqtisadi problemlər yaradır. Onu da qeyd edək ki, plastik və polietilen məhsulların tam parçalanaraq yox olması üçün torpaqda, təxminən, 800, dənizdə isə 400 ilə qədər vaxt tələb olunur. Bu müddət ərzində plastik materiallar daha kiçik hissəciklərə parçalanır və torpağa, suya və havaya yayılır. Məsələn, bu hissəciklər torpağın dərin qatlarına keçərək bitkilərin normal inkişafını ləngidir, nəticədə məhsuldarlıq azalır. Bu proses kənd təsərrüfatı sektoruna birbaşa zərbə vurur.



Eyni zamanda, okeanlar və dənizlər də tullantıların ən çox toplandığı ərazilərdir. Dünyanın üç böyük okeanında (Sakit, Atlantik və Hind okeanlarında) plastik tullantılardan ibarət beş nəhəng ada formalaşıb. Bu adalar minlərlə kvadrat kilometr sahəni əhatə edir və buradakı plastiklər dəniz canlılarının həyatına birbaşa təhlükə yaradır. Dəniz quşları, tısbağalar, balinalar və digər canlılar plastik parçaları qida kimi qəbul edir və bu səbəbdən hər il on minlərlə canlı həyatını itirir. Bu gün balinanın mədəsində plastik butulkalara rast gəlinməsi adi haldır. Tısbağaların su hövzələrinə atılmış torlara ilişərək ölməsi də kimsəni təəccübləndirmir. Bundan başqa, bu tullantılar dənizdə oksigen dövranını pozur, flora və faunanın inkişafını məhdudlaşdırır və su mühitində ekoloji tarazlığı pozur.

Bununla bağlı **Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun əməkdaşı Gülxar Rzayeva** XQ-yə bildirdi ki, tullantılar yalnız ətraf mühitin ekoloji tarazlığını pozmaqla kifayətlənmir, eyni zamanda antisanitar vəziyyətin yaranmasına səbəb olur: "Dənizinə atılan plastiklər günəş şüaları, dalğalar və bakteriyaların təsiri ilə mikro-plastiklərə parçalanır. Bu mikro-plastiklər dənizdə yaşayan canlı orqanizmlər tərəfindən qəbul olunur və onların orqanizmlərində müxtəlif fəsadlar yaradır. Nəticədə, insanlar tərəfindən qida kimi istifadə olunan bu canlılar sağlamlığa mənfi təsir göstərir. Beləliklə, ətraf mühitə olan laqeyd və məsuliyyətsiz yanaşma nəticə etibarilə yenidən insana zərər vurur".

Onun sözlərinə görə, 5 mm-dən də kiçik plastik hissəciklər təkərlərdən tutmuş kosmetik məhsullara qədər bir çox məmulatda mövcuddur: "Mikroplastiklərin əsas mənbələrindən biri sintetik parçalardır. Geyimlərin yuyulması zamanı mikrofiber adlanan xırda plastik liflər ayrılır. Təkcə bu proses nəticəsində hər il 500 min ton mikrofiber dünya okeanlarına axır. Bu miqdar təxminən üç milyard polyester köynəyə bərabərdir. Oradan da dəniz heyvanlarının bədəninə düşür".

Plastik tullantıların təsiri yalnız təbiətlə məhdudlaşmır, insan sağlamlığı üçün də ciddi təhdid təşkil edir. İnsan orqanizminə zərərli maddələrin 80 faizi plastik tullantılardan daxil olur. Son illərdə Niderland, Belçika, Yaponiya və ABŞ-da aparılan tədqiqatlar mikroplastiklərin insan qanında, ağciyərlərində, böyrəklərində və hətta beyində aşkarlanmasını sübut edib. Bu hissəciklər hormonal sistemin fəaliyyətini pozur, xərçəng riskini artırır və immun sistemini zəiflədir. Xüsusilə plastik məmulatların tərkibində olan bisfenol-A maddəsi təhlükəlidir. Bu maddə suda zəif həll olsa da, zamanla suya qarışa bilir və orqanizmə daxil olaraq müxtəlif xəstəliklərə, o cümlədən süd vəzi və prostat xərçənginə səbəb olur. Digər təhlükəli maddə isə dioksindir. Bu maddə plastik materiallar yanarkən, isti su və ya birbaşa isti ilə təmasda olarkən yaranır. O tənəffüs və başqa xəstəliklərə də səbəb olur.

Beləliklə, tədqiqatlara görə, mikro və nanoplastik hissəciklər immun sisteminə ziyan vurur, damar divarlarında yığıla bilər və iltihab proseslərini gücləndirir.

Plastik tullantılarla bağlı beynəlxalq səviyyədə bir çox təşəbbüslər irəli sürülsə də, real nəticələr hələ ki, əldə olunmayıb. Birləşmiş Millətlər Təşkilatının təşəbbüsü ilə plastik tullantılara qarşı hazırlanması nəzərdə tutulan qlobal saziş üzərində üç il ərzində aparılan danışıqlar nəticəsiz qalıb. Sonuncu dəfə Cenevrədə keçirilən görüşdə iştirak edən 180 ölkənin nümayəndələri yekun sənədin mətni ilə bağlı razılığa gələ bilməyib. Konfrans rəhbərliyi tərəfindən təqdim olunan layihə təklifləri nümayəndələrin əksəriyyəti tərəfindən rədd edilib. Əsas mübahisə sənəddə əvvəlcədən yer alan, lakin son mərhələdə çıxarılan ekoloji hədəflər üzərində cəmləşib.

Bu danışıqlarda fəal şəkildə iştirak edən və "High Ambition Coalition" adlanan koalisiya 100-dən çox ölkəni əhatə edir. Onların əsas tələbləri plastik istehsalının azaldılması, birdəfəlik plastik məhsulların tamamilə qadağan olunması və dövri iqtisadiyyata keçid məsələləridir. Bu mövqe Avropa İttifaqı, Cənubi Amerika, Afrika və Asiyanın bir sıra ölkələri tərəfindən dəstəklənir. Lakin digər tərəfdə dayanan və plastik sənayesindən ciddi iqtisadi gəlir əldə edən Səudiyyə Ərəbistanı, İran və Rusiya kimi ölkələr istehsal məhdudiyyətlərinə qarşı çıxır və problemin tullantıların idarə olunması sahəsində islahatlarla həll edilə biləcəyini iddia edirlər. Nəticədə bu fikir ayrılıqları səbəbilə danışıqlar dalana dirənib və ortaq məxrəcə gəlmək mümkün olmur.

Ötən ilin dekabrında Cənubi Koreyanın Busan şəhərində keçirilən və saziş üzrə son raund olması planlaşdırılan görüş də nəticəsiz qalmışdı.

Bununla belə, dünyanın bəzi ölkələri isə artıq öz ərazilərində konkret tədbirlər görməyə başlayıb. Avropa İttifaqı 2030-cu ilə qədər yalnız təkrar istifadə edilə bilən plastik qablaşdırmalardan istifadəyə keçmək niyyətindədir. Avstraliyanın bir sıra şəhərlərində plastik butulka və torbalara qadağalar tətbiq olunub. Türkiyə, Çin, Gürcüstan kimi ölkələrdə plastik torbalar ödənişli olub, alternativ materiallardan istifadə təşviq edilir.

Birdəfəlik plastiklərin qadağan olunması, xüsusilə plastik çəngəl, bıçaq, qab-qacaq, torba və su butulkalarının mərhələli şəkildə bazardan çıxarılması, tullantıların çeşidlənməsi və təkrar emal infrastrukturunun qurulması, maarifləndirmə işlərinin aparılması istiqamətində işlər görülür.

Bütün bu tədbirlərə baxmayaraq, təkrar emal infrastrukturu bir çox ölkələrdə ya mövcud deyil, ya da yetərli səviyyədə deyil. Alternativ məhsullar isə həm bahalıdır, həm də bazarda kifayət qədər yayılmayıb.

Azərbaycan da bu problemə laqeyd qalmayıb. 2021-ci ildən etibarən 15 mikrondan nazik plastik torbaların istifadəsi qadağan edilib. Ticarət şəbəkələrində parça və kağız alternativlərinə keçid təşviq olunur. "Tullantılar haqqında" qanun çərçivəsində təkrar emal müəssisələrinə dəstək artırılır. Xəzər dənizinə çaylar vasitəsilə daxil olan plastik tullantıların qarşısının alınması üçün tədbirlər həyata keçirilir. Dənizsahili və meçəlik ərazilər tullantılardan təmizlənir.

Gülxar Rzayeva bildirdi ki, maarifləndirmə işləri və iməciliklər vasitəsilə vətəndaş cəmiyyəti də bu prosesə cəlb olunmalıdır. Bu daha effektli nəticə verər. G.Rzayevanın sözlərinə görə, plastik tullantıların təkrar emalı da ətraf mühitin çirklənməsinin qarşısını almaqda mühüm rol oynaya bilər: "Plastik tullantıların təkrar emalı bu materialları yenidən istifadə edilə bilən faydalı əşyalara çevirmək məqsədi daşıyan mühüm bir prosesdir. Bu proses altı əsas mərhələdən ibarətdir: toplama, çeşidləmə, yuyulma, parçalama, əritmə və yenidən formalaşdırma. Onun təkrar emalı bir sıra vacib üstünlüklərə malikdir. İlk növbədə, bu proses təbii resurslara olan tələbatı azaldır, çünki yeni plastik istehsalına ehtiyac qalmır. Eyni zamanda, ətraf mühitə atılan tullantıların miqdarı azalır, bu isə torpaq, hava və suyun çirklənməsinin qarşısını almağa kömək edir. Təkrar emal həmçinin enerji baxımından daha qənaətlidir və sıfırdan plastik istehsalı ilə müqayisədə daha az enerji tələb edir. Bundan əlavə, bu proses iqtisadi baxımdan da sərfəlidir və müxtəlif sahələrdə istifadə olunan məhsulların maya dəyərini azaldır".

Son zamanlarda plastik materiallarla qidalanan 201-F6 adlı yeni bakteriya növü aşkar edilməsi də ümidləri artırıb. Bu bakteriyalar plastik məhsulları hazırlamaq üçün geniş istifadə edilən polietilentereftalat maddəsi ilə qidalanır. Bu zaman material ekoloji cəhətdən təhlükəsiz olan tereftal turşusuna və etilenqlikola bölünür. Bu prosesin yeganə mənfi cəhəti isə plastik materialı həzm etmək üçün mikroorqanizmə çox vaxt tələb olunmasıdır. Mütəxəssislər zaman keçdikcə bu çatışmazlığın da aradan qalxacağına əmindirlər.

Ümumilikdə, plastik tullantıların təkrar emalı həm ətraf mühitin mühafizəsi, həm də davamlı iqtisadi inkişaf baxımından əhəmiyyətlidir. Bu proses, eyni zamanda, dairəvi iqtisadiyyat modelini dəstəkləyərək israfın qarşısını alır və gələcək nəsillər üçün daha sağlam bir ekosistemin qorunmasına şərait yaradır".

Bütün bu səylərə baxmayaraq, plastik tullantılarla mübarizə yalnız dövlətlərin və beynəlxalq təşkilatların işi ilə həll olunmayacaq. Bu, həm də vətəndaş məsuliyyəti tələb edən bir məsələdir. Fərdi davranışlar, plastik torbalardan imtina, çoxistifadəli məhsullara üstünlük verilməsi, təkrar emala töhfə verilməsi bu problemin həllində əsas rol oynaya bilər.

Bəli, plastik tullantılar susqun bir fəlakət kimi bizi izləyir. Əgər bu gün hərəkətə keçməsək, sabah çox gec ola bilər. Bu təhlükənin qarşısını almaq üçün həm fərdi, həm ictimai, həm də beynəlxalq səviyyədə dərhal və davamlı tədbirlərə ehtiyac var. Effektiv həll yolları tapılmasa, bu problem yaxın gələcəkdə təkcə ekoloji deyil, həm də sosial və iqtisadi fəlakətlərə səbəb olacaq.

***Ə.PÜNHAN***
***XQ***

**Mütəxəssis rəyi**



**Ənvər ƏLİYEV,**
**Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun ekocoğrafiya şöbəsinin müdiri**

Hazırda dünya ölkələrində plastik kütlədən müxtəlif əşyalar hazırlanır. Birdəfəlik istifadə üçün yararlı olan həmin məhsullar əksər hallarda təbiətə atılır. İnsanların laqeydliyi nəticəsində kütləvi toplaşma yerlərində, çimərliklərdə, ictimai-iaşə müəssisələrində il ərzində milyardlarla ton plastik və polietilen məhsul yığılır. Plastik və polietilen məhsulların təbiətdə yarımparçalanma dövrü bir əsr, bəzən isə 400–500 il davam edir. Ona görə də həmin məhsullar təbiətə çox ciddi ziyan vurur.

Dünyanın bir çox ölkələrində plastik və polietilen məhsulların təbiətə ziyan vurmasının qarşısını almaq üçün bir sıra tədbirlər görülür və çox yaxşı nəticələr əldə edilir. Belə ki, plastik və polietilen materialların müxtəlif əvəzediciləri var. Plastik butulka və stəkanları şüşədən, kağızdan hazırlanmış məhsullarla, polietilen torbaları isə müxtəlif zövqlə fərqli ölçüdə və dizaynda hazırlanan çantalarla əvəzləmək mümkündür. Bəzi mağazalarda hətta həmin torbalar pulsuz da təqdim edilir. Ekoloji cəhətdən təmiz olan torbalar ya bir dəfə, ya da uzun müddət istifadə üçün yararlı olur. Bir sıra qabaqcıl ölkələrdə tətbiq edilən bu üsul yaxşı nəticələr verir.

Bundan əlavə, plastik tullantılarla çirklənmənin qarşısını almağın ən yaxşı üsulu onları faydalı bir məhsula çevirməkdir. Bunun üçün bəzi ölkələrdə hətta müəyyən məntəqələr mövcuddur. Norveçdə mövcud olan belə bir məntəqədə xüsusi texnologiyalarla plastik kütlələrdən hidrogen alınmasına başlanılıb. Məlumdur ki, hidrogen də gələcəkdə yanacaq kimi daxiliyanma mühərriklərində istifadə oluna bilər.

İnanıram ki, insanların məişət mədəniyyəti də plastik və polietilen məhsullarla çirklənmənin qarşısını ala bilər. Belə ki, bütün tullantıların çeşidlənərək xüsusi ayrılmış qablara atılması kimi variantlar təbiəti plastik çirklənmədən azad edə bilər. Bu zaman plastik tullantılar preslənir, daşınır və gələcəkdə növbəti istehsal xammalı kimi istifadə olunur. Tullantıların poliqonlara çeşidlənərək deyil, qarışıq formada atılmasının ziyanları isə kifayət qədər böyükdür. Tullantıların yandırılması zamanı atmosferə külli miqdarda acı, tünd, zəhərli maddələr atılır ki, bunlar da insan sağlamlığına mənfi təsir göstərir.

Artıq bir neçə ildir ki, Azərbaycanda qalınlığı 15 mikrona kimi olan polietilen torbaların istehsalı və istehlakı qadağandır. Eyni zamanda, daşıma vasitəsi kimi verilən polietilen torbalar ödənişlidir. Lakin burada ən mühüm məqam vətəndaşların buna yanaşmasıdır. Düşünürəm ki, vətəndaşlar da tullantıları çeşidlənmiş qablara atmaq qaydasına əməl etsələr, plastik və polietilen məhsulların əvəzləyicilərinə üstünlük versələr, o zaman, problemin öhdəsindən gəlmək olar.

*Bəxtiyar Vahabzadə – 100*

# “Şeir deyən uşağ”ın söylədikləri...

**Türk ədəbiyyatının böyük nümayəndəsi, unudulmaz Xalq şairimiz Bəxtiyar Vahabzadənin 1 əsrlik yubileyi münasibətilə təkcə ölkəmizdə deyil, bütün Turan dünyasında çoxsaylı tədbirlər keçirilir. Məlum olduğu kimi, Prezident İlham Əliyev şairin yubileyinin qeyd edilməsi haqqında 21 fevral 2025-ci il tarixli Sərəncam imzalayıb. TÜRKSOY-un qərarı ilə isə bu il “Bəxtiyar Vahabzadənin Anım İli” elan olunub. Bütün bunlar istiqlal şairinin xatirəsinə yüksək qiymət verildiyinin təzahürüdür.**

Bir neçə il bundan əvvəl Naxçıvanda sərhəd hərəkatı ilə bağlı yazı hazırlayırdım. Hərəkat iştirakçıları mənə bir şəkil göstərdilər. Culfada – Araz çayının kənarında çəkilmiş həmin fotoşəkildə iştirakçılarla bərabər, azyaşlı bir uşağın da olması diqqətimi çəkdi. Sonradan həmin uşağı soraqlayıb tapdım və haqqında da yazdım. Bu, Ramil Sadiqov idi. Hazırda Naxçıvanda dövlət qurumlarının birində çalışır. Kiçik yaşlarından ədəbiyyata olan böyük sevgisi ilə seçilib.




– Qeyd etdiyiniz fotoşəkil 1989-cu ildə çəkilib, – deyə o bildirir. – O zaman mənim 13 yaşım vardı. Sərhəd hərəkatı ilə bağlı mitinqlərdə iştirak edir, şüarlar səsləndirirdik. Arazın bu tayında quraşdırılmış səsgücləndiricilər vasitəsilə o taydakı soydaşlarımıza da çatırdı. Məni isə bu hərəkata bağlayan əsl səbəb həmin tədbirlərdə gözəl şeir deməyim idi. Ən çox səsləndirdiyim isə Bəxtiyar Vahabzadənin məşhur “Gülüstan” poeması idi. Bu poema məzmuna görə bir xalqın iki yerə bölünməsindən bəhs edir, buna görə də poemanı bədii qiraətlə, intonasiya ilə deməyim hər kəsin diqqətini cəlb edirdi. Həm bu taydan, həm də o taydan poemanı diqqətlə dinləyənlərin alqış sədaları hər tərəfə yayılırdı.

**– “Gülüstan” poeması həcminə görə elə də kiçik deyil, axı. Necə yadda saxlamışdınız?**

– Düzdür, “Gülüstan” 50 bənddir. Mən onu sevə-sevə əzbərləmişdim və həmişə sonacan səsləndirirdim. Məmməd Arazdan, Xəlil Rzadan da şeirlər deyirdim. Orada olan hər kəs məni “şeir deyən uşaq” kimi tanıyardı. Deməli, proseslərin getdiyi zaman poemanın müəllifi Bəxtiyar Vahabzadəyə bir məktub yazmışdım. Qeyd etmişdim ki, sizin “Gülüstan” poemanızı hər kəs sevir. Araz çayının sahilində bu poemanı səsləndirəndə hər kəs alqışlayır. Bəxtiyar Vahabzadə də bir az sonra cavab yazmışdı, məktubun da içərisində Bakıdakı ev ünvanını və telefon nömrəsini qeyd edərək bildirmişdi ki, nə vaxt Bakıya yolun düşsə, bizə gələrsən, səninlə görüşüm.

**– Getdiniz və...**

– Elə oldu ki, 1990-cı ildə atamın işi ilə əlaqədar birgə Bakıya getməli olduq. Və Bakıda atam Bəxtiyar müəllimə zəng vurdu, dedi ki, gəlmişik. O da bizi evinə dəvət elədi. Getdik, bizi çox xoş, gülərüzlə qarşıladı. İlk söhbətimiz sərhəddəki vəziyyətlə bağlı oldu. Həmin dövrdə informasiyalar indiki kimi əlçatan deyildi. Yəni televiziyadan, mətbuatdan hər xəbəri ala bilmirdin. Bəxtiyar müəllim ilk olaraq, sərhədin necə açılmasını xəbər aldı. Atam başladı bu haqda məlumat verməyə, orada səsləndirilən şüarlardan, çadırların qurulmasından, hər iki tərəfdən qohum-əqrəbalarını axtaranlardan danışdı. Atam danışdıqca Bəxtiyar Vahabzadə çox kövrəlmişdi. Sonra birdən qayıtdı ki, orada şeir deyən bu uşaq idi, hə? Cavab verdim ki, bəli, mən idim. Dedi ki, “Gülüstan”dan bir-iki kuplet de, qulaq asım sənə.

Atam da dedi ki, Bəxtiyar müəllim o qədər uzaq yolu əziyyət çəkib Naxçıvandan gəlmişik, deyirsə, qoy elə hamısını desin. Bəxtiyar Vahabzadə gülümsədi və əli ilə işarə etdi ki, başla. Deməli, ayağa qalxdım, çünki alışmışdım, oturduğum yerdə şeir deyə bilmirdim. Başladım poemanı yüksək səslə, əl hərəkətləri ilə deməyə. Bir də gördüm şeir dediyim yerdə Bəxtiyar müəllimin ailə üzvləri hamısı gəlib qapının astanasından mənə qulaq asırlar. Gözüm sataşdı ki, mən poemanı səsləndirdikcə Bəxtiyar Vahabzadənin gözləri dolur... Nə isə bunu dedim qurtardım. Bəxtiyar müəllim ayağa qalxdı, yaxınlaşıb üzümdən öpdü və əlini uzadıb rəfdən bir kitab götürdü – “Gəlin açıq danışaq” kitabı idi, o illərdə yeni çapdan çıxmışdı. Titul səhifəsini açıb belə bir cümlə yazdı: “Əziz Ramil Sadıqov üçün. Millətimizə layiq kişi olasan”. Aşağı hissədə də tarixini qeyd edərək avtoqrafı imzaladı.

Atam da ayağa qalxdı və dedi ki, Bəxtiyar müəllim, biz də sizə bir hədiyyə gətirmişik. Sonra götürdüyümüz çantanın içərisində taxtadan düzəldilmiş bir qutu çıxartdı. Qutunun da içərisində sərhəddən kəsib götürdüyümüz iki ədəd, təxminən, 15-20 santimetr uzunluğunda tikanlı məftili Bəxtiyar müəllimə uzatdı. Bəxtiyar müəllim bunu görəndə yenidən kövrəldi... Vallah, həmin anı təsvir edəcək sözləri tapmaqda çətinlik çəkirəm. Qayıtdı ki, mən həyatım boyu heç vaxt belə dəyərli hədiyyə almamışam... Nə isə sonra bir az da söhbətləşdik və sağollaşaraq ayrıldıq. Sonradan öyrəndim ki, böyük şairimiz mənim ona göndərdiyim məktubu və Araz sahilində şeir dediyim zaman çəkilən fotoşəklimi Ədəbiyyat Muzeyinə hədiyyə edib.

**– Bir fotoşəkildə isə sizi Ulu öndər Heydər Əliyevlə yanaşı şeir deyərkən görürük.**

– Mənim ümummilli liderimiz Heydər Əliyevlə ilk görüşüm rəhmətlik Xəlil Rza və Mikayıl Mirzə Naxçıvana gələndə olub. Həmin vaxt həm Şəhidlər xiyabanında şeir demişəm, həm də Naxçıvan Dövlət Dram Teatrının binasında bir görüş keçirilirdi, tam xatırlamıram nə ilə bağlı idi. Həm də o görüşdə şeir deməli olmuşdum. Sonda Ulu öndər adəti üzrə səhnə arxasına keçib hər kəslə görüşdü, məni çıxışıma görə təriflədi, sonra yanına çağıraraq əllərini arxadan çiynimə qoyaraq, başladı kollektivlə söhbət etməyə.

Həmin kadrlar Naxçıvan Televiziyasının arxivində qalır. Yəni artıq Ulu öndər də məni şeir deyən uşaq kimi tanıyırdı. Həmin görüşdə Mikayıl Mirzə də haqqımda xoş sözlər dedi, mənə uğurlar arzuladı. Yaxşı yadımdadır ki, həmin dövrdə Naxçıvanda keçirilən bir çox tədbirlərə məni dəvət edirdilər ki, şeirlər səsləndirim.

**– Bəs nəyə görə sonra bu yolu davam etdirmədiniz?**

– Sonradan mən fəaliyyətimi fərqli sahədə davam etdirdim. Amma bütün bunlarla yanaşı, şeirə, poeziyaya həvəsim mənim uşaqlıq dövrümdə bu cür maraqlı xatirələrin yaranmasına səbəb olmuşdu. Fəxr edirəm ki, bu il şəxsən görüşüb tanış olduğum böyük şairimiz Bəxtiyar Vahabzadənin anadan olmasının 100 illiyi ölkəmizdə geniş şəkildə qeyd olunur. Azərbaycanın istiqlal şairini böyük hörmətlə yad edir və bildirmək istəyirəm ki, bu unudulmaz insanın yaradıcılığı həmin dövrdə milli təfəkkürümüzün formalaşmasında böyük rol oynamışdır. İnanıram ki, Bəxtiyar Vahabzadə yaradıcılığı bundan sonra da gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayacaqdır.

***Söhbəti hazırladı:***
***Səbuhi HƏSƏNOV***

# İtkin şəhid doğulduğu torpağa qovuşdu



**Avqustun 29-da Birinci Qarabağ müharibəsinin daha bir itkin şəhidi - Sumbat Nüdrət oğlu Əliyev Füzuli rayonunda dəfn olunub.**

Əvvəlcə rayonun Aşağı Kürdmahmudlu kəndində vida mərasimi keçirilib. Cənazə namazı qılınıb, şəhidlərin ruhuna dualar oxunub. Sonra şəhid hərbi orkestrin müşayiətilə kənd qəbiristanlığında torpağa tapşırılıb, dualar oxunub.

Qeyd edək ki, Sumbat Əliyev 1966-cı ildə Füzuli rayonunun Aşağı Kürdmahmudlu kəndində anadan olub. O, Birinci Qarabağ müharibəsi zamanı könüllü olaraq döyüşlərə qoşulub. 1993-cü ilin aprel ayında Füzulinin Qacar kəndi ərazisində gedən döyüşlər zamanı itkin düşüb. Torpaqlarımız işğaldan azad edildikdən sonra S.Əliyevin qalıqları Xocavənd rayonunun Zoğalbulaq kəndində aşkarlanıb.

*Tofiq Cavadov – 100*

# *Küləklərə qoşulub gedən rəssam*




**Onun ömrü küləklərlə həsbi-halda keçib. Abşeronun, Xəzər sahilinin xəzrisi, gilavarı yol yoldaşı, rəsmlərinin “baş qəhrəmanı”, elə taleyinin də son uğurlayıcısı olub. Rəssam Tofiq Cavadovun tablolarında dəli rüzgarlar dil açıb danışıb, gah həzin nəğməsi, gah qorxunc vıyıltısı ilə “Mən də varam” deyib...**

Tofiq Mirhaşım oğlu Cavadov (Mircavadov) 7 fevral 1925-ci ildə küləklər şəhəri Bakıda anadan olub. Sovet Ordusunda hərbi xidmət keçdikdən sonra, 1948–1952-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbinin rəngkarlıq fakültəsində oxuyub. Burada Əyyub Məmmədov, Əbdül Xalıq, Əyyub Hüseynov və Baba Əliyev kimi tanınmış rəssamlardan dərs alıb. Cavadovun sənət yolu 1950-ci illərin 2-ci yarısından neorealizm mərhələsi ilə başlayıb. Onun bu dövrə aid əsərləri əsasən neft və ağır sənayeyə həsr olunmuşdu. “Neftçilər”, “Sənaye mənzərəsi”, “Operator qız”, “Neftçi”, “Poladəridən sexdə” və “Poladəridənin portreti” tabloları həmin illərin məhsuludur.

Rəssamın təxminən 30 yaşından sonrakı yaradıcılığını bir növ Buzovna dövrü adlandırmaq olar. Bu mərhələdə o, “Buzovnada küçə”, “Kənd mənzərəsi”, “Buzovna aşırımı” və digər gözəl mənzərələrini yaradıb, “Avtoportret” əsərini çəkib. Bir ara “Göyərçin” uşaq jurnalının bədii tərtibatı ilə məşğul olub.

Yazıçı-publisist Sara Oğuz Nəzirova yazırdı ki, Tofiq Cavadov keçən əsrin 50-ci illərinin sonunda Azərbaycan incəsənətinə qəfil əsən külək kimi daxil olmuşdu. “Onun şaqraq rənglərinin ekspressiyası, durğunluğu, kəsafəti qovan külək təzəliyi, təravəti ilə təsviri sənətimizə həkk olunmuşdu. Nikbin akkordlarla çağlayan, bəzən qələbə marşı, bəzən də bütöv bir simfoniya tək səslənən rəngkarlıq dünyası ilə mədəniyyətimizin, təbiətimizin, həyatımızın ümdə qatlarına sirayət etməyə çalışmışdı. Duyğusuna, mövzu seçiminə görə Tofiq Cavadov Azərbaycanın ən realist rəssamıdır desək yanılmarıq. Sözün əsl mənasında sevimli Abşeronunun qaynar təbiətinin, Qara şəhər, Ağ şəhər – Bakı mənzərəsinin, Sumqayıt sənaye səltənətinin sərt, dəmir-polad qüdrətinin məğzini verməkdə heç kəslə müqayisəolunmaz, əvəzsiz sənətkardı. XX əsrin Azərbaycan paytaxtının ən dəqiq, yaşarı obrazını tutmaq məhz Tofiq Cavadovun yaradıcılığına nəsib olub desək, mübaliğə etmiş olmarıq. Özü də necə?! Ən müasir, təkrarolunmaz, rəssamın mücərrəd, fiqurativ obrazlarla ifadə etdiyi reallıq”.

Ondan 2 yaş böyük olan qardaşı Mircavad, 2 yaş kiçik olan xalası oğlu Rasim Babayev tanınmış rəssamlar olublar. Həyat yoldaşı Validə Sarıcalinskaya ilə rəssamlıq məktəbində bir yerdə oxuyub. Heykəltəraş Fazil Nəcəfov da onların nəslindən idi.

Mircavad Tofiqin neorealist üslubda çəkdiyi sənaye yönümlü rəsmlərini bəyənmirmiş. Yəni aralarında sənət qütbləşməsi varmış. Amma bir gün Mircavad qardaşının emalatxanasına baxarkən molbertdə yarımçıq qalmış tablonun təsirindən şaşırmışdı: Əncir ağacının budaqlarından yapışmış, çovğunda çabalayan qadınların paltarlarını xəzrinin vıyıltısı göyə sovururdu. Qadınların əlləri budaqlarda güclə davam gətirirdi. Sanki onları axirət küləyi ağuşuna almışdı. Mircavad evə dönərək anasına deyib ki, gör, oğlun nə yaradıb! O tablo yox, rekviyemdir!

Təəssüf ki, sonralar sənətşünasların “Külək” adlandırdıqları həmin yarımçıq monumental əsər Tofiqin kətan üzərində küləklə son dialoqu olub. Sənətə təzəlik gətirən, yaradıcı ruhu oyadan, əsərlərinin baş qəhrəmanı olan külək rəssamın tale qəzavatına dönüb, acı dolu qasırğa törədib: Tofiq Cavadov 1963-cü ilin avqust ayında, 38 yaşında Moskva–Serpuxovo elektrik qatarında bir vaqondan digərinə keçərkən küləyin təsirindən büdrəyərək ara sahəyə yıxılıb və həyatını itirib.

Qəribədir ki, “Avtoportret” əsərində rəssam öz fərdi obrazını da küləyin təcavüzü ilə bir kompozisiyaya daxil edibmiş. Hazırda Nyu-Yorkun Metropoliten muzeyində saxlanılan, özünü motosikletin sükanından yapışmış halda çəkdiyi portreti ora gedən hər kəsin diqqətini cəlb edir. Rasim Babayevin gəzinti zamanı çəkdiyi bir fotoda da Tofiq küləklə əlbəyaxa halda təsvirlənib. Elektrik dirəyi, təzə əkilmiş tinglərin düzüldüyü təpənin fonunda dayanmış Tofiqin qoyun-qoltuğunu külək doldurub. O, qiyamət qoparan küləyin qabağında güclə durur. Yenə də külək...

Ölümündən 2 ay sonra açılmış ilk və yeganə fərdi sərgisinin ekspozisiyası – 50 əsəri gələcəyin necə böyük bir rəssamının əldən və eldən getdiyini bəlirlətdi. Təsellimiz budur ki, rənglərinin ekspressiv dinamikası, tablolarının parlaq təsiri sayəsində Tofiq Cavadov təkcə keçən əsrin deyil, bu günün də rəssamı kimi ürəklərdə yaşayır.

***Əli NƏCƏFXANLI***
***XQ***

## *Hər kitab bir dünyadır*

## “İraq-türkman folkloru və ədəbiyyatı”




**AMEA Folklor İnstitutunun təşkilatçılığı ilə görkəmli İraq-türkman tədqiqatçısı Əta Tərzibaşının anadan olmasının 100 illiyi münasibətilə bu adda kitab nəşr olunub.**

Kitabda respublikanın müxtəlif elm və təhsil müəssisələrindən, eləcə də İraqdan və Türkiyədən olan alim və tədqiqatçıların Əta Tərzibaşının geniş elmi araşdırmalarının təhlilinə, həmçinin İraq-türkman folklorunun və ədəbiyyatının ayrı-ayrı problemlərinin işıqlandırılmasına həsr olunmuş məqalələri toplanıb.

Məqalələrdə İraq-türkman elmi-ədəbi fikrinin inkişafında müstəsna yer tutan, türkman folkloru, ədəbiyyatı, mətbuatı, mədəniyyətinə qiymətli araşdırmaları ilə töhfələr verən Əta Tərzibaşının yaradıcılığı diqqətlə təhlil edilib, eləcə də İraq-türkman və Azərbaycan folkloru və ədəbiyyatına dair ayrı-ayrı mövzular elmi-nəzəri aspektdə tədqiqata cəlb olunub.

“Elm və təhsil” nəşriyyatında işıq üzü görən 440 səhifəlik kitabın elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Afaq Ramazanova, tərtibçiləri isə filologiya üzrə fəlsəfə doktoru, dosent Səkinə Qaybalıyeva və filologiya üzrə fəlsəfə doktoru Elnarə Hüseynqızı-Əmirlidir.

## Şifahi və yazılı sözümüz

**Bu yaxınlarda çap olunan “Şifahi sənət və yazılı ədəbiyyat” kitabında Muxtar Kazımoğlu şifahi sənətin özünəməxsusluğunu önə çəkir, folklor və yazılı ədəbiyyatın müqayisəsi kontekstində bir çox polemik rakursa zəmin yaradır.**

Kitabda “Yazılı sənətdə fərdi üslub sənətkarlığın mühüm göstəricisi olduğu halda, şifahi sənətdə sənətkarlığın başlıca göstəricisi “kollektiv şüur”un, xalq arasında məlum və məşhur olan folklor qəliblərinin qabarıq ifadə edilməsindən ibarət olur”, – kimi əsaslar sıralayan tədqiqatçı şifahi və yazılı sənətin poetik sistemi arasında oxşar və fərqli cəhətləri müəyyənləşdirir. David Metrişin “söz sənətinin bu iki qoluna – folklora və yazılı ədəbiyyata vahid metasistemin tərkib hissələri kimi baxmaq lazımdır”, – fikri ilə razılaşsa da, həmin makrosistemin daxilindəki mikrosistemləri araşdırmağı zəruri hesab edir və bunun üçün janr mübadiləsini hər iki tərəf arasındakı sərhədlərin təminedici faktoru kimi götürür:




“Yazılı ədəbiyyat şifahi söz sənətindən bayatı, qoşma, gəraylı və s. kimi janrları alıb, əvəzində qarşı tərəfə müxəmməs, müsəddəs, qəzəl və s. kimi janrları ötürür. Müxəmməs, müsəddəs və qəzəllər şifahi söz sənətində bayatı, qoşma və gəraylıların dilində səslənməyə başlayır. Bayatı, qoşma və gəraylılar yazılı ədəbiyyata xalq danışıq dilinin koloritini və xalq düşüncəsini gətirir.

AMEA Folklor İnstitutu Elmi Şurasının qərarı ilə çap olunmuş kitab filoloqlar, tələbələr və söz sənəti ilə maraqlanan hər kəs üçün maraqlıdır.

***Ə.DOSTƏLİ***
***XQ***

*Xaricdən gələn sorağımız*

# Laləyə bənzəyən qızımız

## *Lankasterdə təhsil alan doktorant Lalə Kərimova xalqımızı ləyaqətlə təmsil edir*

**Elimiz-obamız hər zaman elmə, savada, bilik adamına dəyər verib, belə şəxsləri hörmətli tutub. İmişli rayonunda da ziyalı ailələr, nəsillər çoxdur. Bu bölgədə adları, əməlləri xoş sözlə, rəğbətlə çəkilən nəsillərdən biri də Kərimovlardır.**



Nəslin ağsaqqalı Kərim Kərimov hələ 1966-cı ildə pedaqogika üzrə müdafiə edib. O vaxtdan onu hörmətlə "alim-pedaqoq" deyə çağırıblar. Kərim müəllim sıravi müəllimlikdən rayon təhsil şöbəsinin müdiri vəzifəsinədək yüksəlib. El ağsaqqalı, fədakar pedaqoq kimi ad-san qazanıb. Əvvəlcə övladları onun yolunu davam etdiriblər, indi isə nəvələri bu şərəfli peşənin daşıyıcılarıdır.

Lalə rəhmətlik Kərim Kərimovun oğlu Azər müəllimin övladıdır. O, 2007-ci ildə İmişli şəhər N.Şirinov adına 5 saylı şəhər orta məktəbi bitirəndən sonra Azərbaycan Dillər Universitetinin ingilis dili fakültəsinə daxil olub. Burada 4 il ərzində ingilis dili və ədəbiyyatını sevə-sevə, mükəmməl surətdə öyrənib.

ADU-da ingilis dilini isə çox tez və rahat öyrəndi. İndi o, doğma dili ilə yanaşı, rus və ingilis dillərində səlis danışır. Lalənin ingilis dilini mükəmməl öyrənməsi onun pedaqoqların da diqqətini özünə cəlb edib. Onlar Jalə haqqında söz düşəndə fəxrlə dedilər:

–Lalə çox istedadlı gəncdir. Kaş siz onu Şekspirin sonetlərini orijinalda əzbərdən deyəndə öz gözlərinizlə görüb eşidərdiniz. O, həqiqətən, ingilis dilinin incəliklərini doğma dilimizin ruhu, ahəngi qədər hiss edib duya bilir.

ADU-nu bitirəndə Bakıda Jalənin işə düzəlmə ilə problemi olmayıb. Əvvəlcə "Kaspi" liseyində, sonra "CELT Colleges" şirkətində, daha sonra isə Heydər Əliyev adına Müasir Təhsil Kompleksində çalışıb. Bir müddət "Xəzər" və "Qərbi Kaspi" universitetlərində tələbələr qarşısında mühazirələr oxuyub. Adlarını sadaladığım bütün bu kollektivlərdə sadəliyi, səmimiyyəti, xeyirxahlığı ilə hamının sevimlisinə çevrilib.

Lalə Kərimova yüksək motivasiyalı xanımdır, əldə etdiyi uğurlarla kifayətlənməyi ağlına belə gətirmir. Onu dilçiliklə yanaşı, ölkəmizin ictimai-siyasi həyatında cərəyan edən hadisələr də çox maraqlandırır. Bu sahələrdə də daim biliklərini zənginləşdirməyə cəhd edir. Bu məqsədlə 2017-ci ildə sənədlərini Azərbaycan Diplomatik Akademiyasının (ADA) magistraturasına verib və ilk cəhddən bu nüfuzlu ali təhsil olacağına qəbul olunub.

Deyirlər ki, elmdə son dayanacaq olmur. Daim öz üzərində çalışmalı, yeni zirvələr fəth etməlisən. Lalə yeni bilgilər, məlumatlar almağa çox meyillidir. Onu xüsusilə Qərb və Şərq sivilizasiyasında qadının rolu və vəzifələri problemi çox məşğul edir. Yaxşı bilir ki, Azərbaycanın gələcək inkişaf və tərəqqisi qadınların cəmiyyətdəki rolundan və nüfuzundan asılı olacaq.

Lalə "qadın və cəmiyyət problemi"ni araşdırmaq fikrinə çoxdan düşmüşdü. O, bir dəfə bu mövzuda elmi iş müdafiə etmək üçün Böyük Britaniyada doktoranturada oxumaq arzusunda olduğunu atasına bildirdi. Azər müəllim əvvəlcə etiraz etdi. Atanın öz məntiqi var idi: "Düşündüm ki, uzaq, yad ölkədir, qohum-qardaşdan aralıda Lalə üçün çətin olar!". Amma sevimli qızının israrlı xahişlərindən sonra ata "yumşalaraq" razılıq verdi.

Burada bir məqamı vurğulamağa ehtiyac var. Azər müəllim ömrü boyu müəllim işləyib, halal zəhməti ilə ailəsini dolandırıb. Təbii ki, qızının xaricdə, Birləşmiş Krallıq kimi zəngin bir dövlətdə oxumasını maddi cəhətdən təmin etmək üçün onun imkanları yox idi.

Amma xoşbəxtlikdən çıxış yolu tapıldı. Bəlli oldu ki, Azərbaycan dövləti istedadlı, perspektivli gənclərin dövlət hesabına təhsil almaları üçün xüsusi proqram qəbul edib. Məhz həmin proqram çərçivəsində müsabiqədən qalib çıxmış Lalə Kərimova hazırda Birləşmiş Krallığın nüfuzlu Lankaster Universitetinin doktoranturasında təhsil alır.

Lalə 3 illik doktorantura pilləsinin artıq 1-ci ilini arxada qoyub. Onun oradan da xoş sorağı gəlir. Deyirlər ki, Lalə ağlı, zəkası, kreativliyi ilə fərqlənir. Onu həm təhsil aldığı ali məktəbdə, həm də Birləşmiş Krallığın digər universitetlərində tez-tez təşkil olunan simpozium və konfranslara dəvət edirlər. Təklif və tövsiyələrinə diqqət kəsilirlər.

Lalə bu ilin 9-13 iyul tarixlərində İspaniyanın Barselona şəhərində qadınların cəmiyyətdə rolu ilə bağlı keçirilən konfransda maraqlı məruzə ilə çıxış edib. Qərb və Şərq sivilizasiyalarında ziyalı qadın mental tipləri arasındakı fərqlər və bunları doğuran səbəbləri izah edib. O, əmindir ki, qlobal inkişaf ayrı-ayrı xalqların milli-mənəvi, əxlaqi dəyərlərinə qarşı çıxmamalı, ən azı onlara hörmətlə yanaşmalıdır. Bu ilin 8-12 sentyabr tarixlərində Serbiyanın paytaxtı Belqradda keçiriləcək konfransa da dəvətlidir. Hansı ölkədə, hansı şəhərdə olmasından asılı olmayaraq, məqam düşən kimi doğma müstəqil ölkəmizin şanlı tarixi, mədəniyyəti, xüsusilə də Bakının, Şuşanın gözəllikləri barədə ürəkdolusu söz açır.

Qəzetimiz üçün bu yazını hazırlayarkən Jalə ilə "Vatsap" vasitəsilə əlaqə saxladım. Məlum oldu ki, o, bu günlərdə dissertasiya işi ilə bağlı gərgin tədqiqatlarını davam etdirir və bu sahədə elmi araşdırmalarını mümkün qədər tez başa çatıdırmaq fikrindədir. Gənc həmsöhbətim Lankesterdəki həmkarları barədə də həvəslə söz açdı.

Lalədən Bakıda, İmişlidəki doğmalarından ən çox kimlər üçün darıxdığını soruşdum. Nədənsə, o, birdən-birə tutuldu. Anladım ki, o, həmin an onun üçün ən əziz olan varlığı, 5 il əvvəl vaxtsız dünyasını dəyişən anası Gülnarə xanımı xatırlayıb. Onun kövrəldiyini hiss edib özümü qınadım, dərhal mövzunu dəyişməyə tələsdim:




–Jalə, ingilis qızları, xanımları ilk tanışlıq zamanı sənə ən çox hansı sualı verirlər?

–Adımı soruşurlar, mənasını biləndə gülümsəyirlər. "Həqiqətən, laləyə bənzəyirsən" deyirlər!

Lalə bu cavabı verəndə gülümsədi. Bütün gözəl, abırlı, ismətli Azərbaycan qızları, gəlinləri, xanımları kimi Laləyə də ürəkdən gülmək, sevinmək və sevilmək çox yaraşır. Allah qorusun!

***Məsaim ABDULLAYEV***
***XQ***

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti

AÇIQ TENDER ELAN EDİR

XÜSUSİ MODUL TİPLİ KONTEYNERLƏRİN satın alınması ilə əlaqədar şərtlər toplusunu əldə etmiş və tenderdə iştirak etmək istəyən təchizatçılar müraciət məktubunu (imzalanıb möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədini təqdim etdikdən sonra satınalma predmeti üzrə uyğunluq sənədlərini, tender təklifini və tender təklifinin təminatını təqdim etməlidirlər.

Müsabiqədə iştirak etmək üçün qeyd edilən elektron poçt vasitəsilə əlaqəli şəxsə müraciət edilməlidir.

İştirak haqqının ödənilməsi üçün:

İştirak haqqı: 350 (üç yüz əlli) manat (ƏDV daxil).

Hesab nömrələri:
AZ57İBAZ38050019449345061205 (AZN);
AZ47İBAZ38150018409345061205 (USD);
AZ27IBAZ38150019789345061205 (EUR);
AZ64İBAZ38150018109345061205 (RUR).
VÖEN: 9900007721
Bank: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin "Nərimanov" filialı
Kod: 805711
VÖEN: 9900001881
Müxbir hesab: AZ-03NABZ01350100000000002944
S.W.I.F.T. Code: İBAZAZ2X

İştirak haqqı müəyyən hallar istisna olmaqla geri qaytarılmır. Təchizatçıların sayının üçdən az olması səbəbindən satınalmanın ləğv edildiyi və həmin satınalma predmeti üzrə təkrar satınalma keçirilmədiyi təqdirdə təchizatçıların müraciətinə əsasən iştirak haqqı geri qaytarılır. Təchizatçıların sayının üçdən az olması və ya satınalmanın maliyyələşdirilməsinin dayandırılması hallarında satınalma ləğv edildikdə satınalma planında nəzərdə tutulmuş həmin satınalma predmeti üzrə təkrar satınalma keçirildiyi təqdirdə iştirak haqqını ödəyən təchizatçıların təkrar ödəniş etmədən satınalmada iştirakı təmin edilir.

Tender təklifi və təklifin təminatının təqdim olunmasına dair tələblər:

-tender təklifi (zərflərin açıldığı gündən etibarən azı 31 oktyabr 2025-ci il tarixinə qədər qüvvədə olmalıdır);

-5 000,00 (beş min) manat məbləğində bank təminatı (bank təminatının qüvvədə olma müddəti təklifin qüvvədə olma müddətindən ən azı 30 (otuz) bank günü çox olmalıdır);

-Təklif Azərbaycan dilində hazırlanmalıdır.

Tender təklifi və tender təklifinin bank təminatı möhürlənmiş zərfdə 12 sentyabr 2025-ci il, Bakı vaxtı ilə saat 12.00-dək Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi 230, "Azərbaycan Dəmir Yolları" QSC-nin Təchizat və təsərrüfat departamentinə (satınalma şöbəsi, 167 nömrəli otaq) təqdim edilməlidir.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqələndirici şəxs: Ruslan Əliyev, təchizat və təsərrüfat departamentinin satınalma şöbəsinin aparıcı mütəxəssisi.

Telefon nömrələri: +994 12 499-42-62, +994 77 322 48 34; e-mail: ruslan.eliyev@ady.az

Tender təklifləri 12 sentyabr 2025-ci il, Bakı vaxtı ilə saat 15.00-da Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi 230 nömrəli ünvanda açılacaqdır.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Qiymət və zəmanət müddəti.

Tender müşahidə şurasının 11 aprel 2025-ci il tarixli 1 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi (AZCON)" publik hüquqi şəxs və "AZCON"-un idarəetməsinə verilmiş dövlət müəssisələri, dövlət payı olan təsərrüfat cəmiyyətləri və publik hüquqi şəxslər tərəfindən məhsulların (mal, iş və xidmətlərin) vahid satınalınması qaydalarına uyğun keçirilir.

Zərflərin açılışında iştirakçıların səlahiyyətli nümayəndələri (notarial qaydasında təsdiqlənmiş sənədlə müvəkkil edilmiş şəxs) iştirak edə bilərlər.

Müraciət məktubu formasını və şərtlər toplusunu ady.az saytında "satınalmalar" bölməsindən əldə etmək olar.

***Satınalma Komissiyası***

*Xuntaçıların məhkəməsi*

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 29-da davam etdirilib.**



# Qarabağı Ermənistan silahlı qüvvələrinin işğal etməsi təsdiqini tapır

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclası təqsirləndirilən şəxs Bako Sahakyanın cinayət işi üzrə ibtidai istintaqa verdiyi ifadələrin və ona aid elan olunan digər sənədlərin səsləndirilməsi ilə davam etdirilib.

B.Sahakyan ibtidai istintaqda ifadəsində bildirib ki, o, 1993-1995-ci illərdə qondarma rejimin "müdafiə ordusu"nda "maddi-texniki təchizat üzrə qərargah rəisi" işləyib. 1994-cü ilin mayına qədər aparılan döyüş əməliyyatlarında hərbi qüvvələrin birbaşa təchizatının təmin olunmasında iştirak edib. O, 2015-2020-ci illərdə Şuşa şəhərində olan "S-300" raket kompleksini Ermənistanın Müdafiə Nazirliyinin göndərdiyini deyib.

Verilmiş ifadədə göstərilib ki, ümumiyyətlə, 2020-ci ildə baş vermiş 44 günlük müharibədən əvvəlki və sonrakı dövrdə silah-sursat, hərbi texnika və şəxsi heyət təminatı Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən bu ölkənin dövlət büdcəsi hesabına təmin olunub. Ermənistanın Müdafiə Nazirliyi qondarma rejimin "müdafiə nazirliyi"ni silah-sursat və digər hərbi təminatla təchiz edib.



dentinin müşaviri", 2021-ci ildə "xarici işlər naziri", 2023-cü ildə qondarma qurumun "prezidentinin müşaviri – qondarma qurumun prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi" təyin olunub. Qondarma rejimə silah-sursat yalnız Ermənistanın Müdafiə Nazirliyi vasitəsilə bu ölkədən göndərilib.

Ümumiyyətlə, silah-sursat və digər təminatlar Gorus-Laçın-Xankəndi, Basarkeçər-Kəlbəcər-Ağdərə-Xankəndi yolları ilə gətirilib. Rejimin maliyyə mənbəyi də yalnız Ermənistandan olub. Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində su elektrik stansiyalarından əldə edilən enerji, həmçinin taxıl və spirtli içkilər Ermənistana satılıb. Ermənistan vasitəsilə bir çox xarici ölkələrə də spirtli içkilər ixrac olunub.

D.Babayan 2007-2019-cu illərdə Bako Sahakyanla birlikdə müxtəlif ölkələrə səfər edərək qondarma rejimin "prezident administrasiyası"nın nümayəndəsi və tərcüməçi qismində görüşlərdə iştirak edib. Görüşlərin əsas məqsədi xaricdə yaşayan ermənilərin Azərbaycanın həmin vaxt işğal altında olan ərazilərində yaşayan ermənilərə maddi vəsait ayırmaları ilə bağlı olub.

Ərazilərin minalanması işlərinə isə 1994-cü ildən başlanılıb və "müdafiə nazirliyi" tərəfindən həyata keçirilib. Qondarma rejimin "ordusu"nun fəaliyyəti Ermənistan silahlı qüvvələrinin fəaliyyəti ilə inteqrasiya olunmuş şəkildə həyata keçirilib. İşğal altında saxlanılan rayon və şəhərlərdə, xüsusilə də Ağdamda və Füzulidə mövcud olmuş bütün daşınmaz əmlak qarət edilib.



Məhkəmədə təqsirləndirilən şəxs Qarik Martirosyanın vəkili öz səhhəti ilə əlaqədar müalicə aldığını əsas gətirərək, məhkəmədə iştirakına xitam verilməsini istəyib. Hakim təqsirləndirilən şəxsin etirazının olub-olmadığını soruşub, Q.Martirosyan isə etiraz etmədiyini bildirib. Məhkəmənin qərarı ilə təqsirləndirilən şəxs Qarik Martirosyanın müdafiəçisinin məhkəmədə iştirakına xitam verilib.

Bildirilib ki, Q.Martirosyana dövlət hesabına yeni müdafiəçi təyin olunması üçün qərarın surəti Azərbaycan Respublikası Vəkillər Kollegiyasına göndəriləcək.

Hakim Zeynal Ağayev bildirib ki, zərərçəkən şəxslərdən birinin vəkili Nəzrin Məmmədli ailə vəziyyəti ilə əlaqədar məhkəmə iclaslarında iştirak edə bilməyəcəyi və buna görə də cinayət işi üzrə iştirakına xitam verilməsi ilə bağlı onun müraciəti olduğunu qeyd edib. Müraciətə etiraz olmadığına görə, vəkilin iştirakına xitam verilib. Bildirilib ki, yeni nümayəndənin təyin edilməsi ilə bağlı qərarın surəti Vəkillər Kollegiyasına göndəriləcək.

Təqsirləndirilən şəxs David Babayan ibtidai istintaqa ifadəsində bildirib ki, o, 2020-ci ildə qondarma qurumun "prezidentinin müşaviri", ...

Məhkəmədə elan edilən, cinayət işi üzrə materiallara əsasən D.Babayan 2020-ci ildə 44 günlük müharibə zamanı, ondan sonrakı müddətlərdə qondarma rejimin "liderinin təmsilçisi" kimi Azərbaycan Respublikasına və onun vətəndaşlarına qarşı internet informasiya resurslarında 2021-ci il yanvarın 4-də açıq şəkildə bəyan edib: "Biz heç vaxt Azərbaycanın bir hissəsi olmayacağıq. Biz bir dövlətdə birlikdə yaşaya bilmərik. Bu, mümkün deyil! Qonşu kimi yan-yana yaşamağa məhkumuq, başqa çıxış yolu yoxdur. Amma mən azərbaycanlılarla bir dövlət daxilində, Azərbaycan dövlətinin bir hissəsi kimi yaşamaq imkanını görmürəm, çünki belə bir vəziyyətdə Artsax, sadəcə, mövcud olmayacaq".

Məhkəmə prosesi sentyabrın 1-də davam etdiriləcək.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 183 (30877) 30 avqust 2025-ci il, şənbə

## İDMAN

### Ölkəmiz UEFA reytinqində 2 pillə irəliləyib

**Azərbaycan UEFA reytinqində 2 pillə irəliləyib. Bu, "Qarabağ"ın UEFA Çempionlar Liqasının Liqa mərhələsinə vəsiqə qazanması ilə mümkün olub.**



Ağdamlılar pley-offda Macarıstan təmsilçisi "Ferentsvaroş"la iki oyunun nəticəsinə (3:1, 2:3) görə qitənin ən nüfuzlu klub turnirinin liqa mərhələsinə yüksəlməklə ölkənin əmsalını 21.000-ə çatdırıb. Bu da ölkəmizin 28-ci pillədən 26-cı pilləyə yüksəlməsinə səbəb olub.

25-ci pillədə Slovakiya (21.375), 27-ci yerdə isə Sloveniya (20.718) qərarlaşıb.

Qeyd edək ki, UEFA reytinqinə İngiltərə (95.005) başçılıq edir. Sonrakı yerləri İtaliya (84.660), İspaniya (78.953), Almaniya (78.953) və Fransa (67.962) tuturlar.

### III MDB Oyunlarında Azərbaycanı 340 idmançı təmsil edəcək

**III MDB Oyunlarında Azərbaycanı 23 idman növündə 340 idmançı təmsil edəcək.**

Ümumilikdə nümayəndə heyətinin sayı isə 475 nəfər olacaq. Ən çox Azərbaycan idmançısı cüdo və qılıncoynatmada – hər birində 32 nəfər olmaqla iştirak edəcək. Taekvondo və voleybol növlərində isə 28 idmançı mübarizə aparacaq.

Azərbaycanlı idmançılar, həmçinin komanda idman növlərində də çıxış edəcəklər: futbol, çövkən, voleybol və 3x3 basketbol. Bundan əlavə, bədii gimnastikada ölkəmiz qrup hərəkətləri komandası ilə təmsil olunacaq.

III MDB Oyunları 28 sentyabr – 8 oktyabr tarixlərində Azərbaycanın 7 şəhərində – Gəncə, Qəbələ, Mingəçevir, Göygöl, Xankəndi, Yevlax və Şəkidə keçiriləcək. Oyunların açılış və bağlanış mərasimləri Gəncə şəhər stadionunda baş tutacaq.

### "Təhlükəsiz idman hamı üçün!"

**Dünən Milli Olimpiya Komitəsinin inzibati binasında keçirilən "Təhlükəsiz idman hamı üçün" mövzusunda seminara yekun vurulub.**



Qurumdan verilən məlumata görə, seminarın ikinci günündə çıxış edən MOK-un İdman şöbəsinin baş məsləhətçisi, Təhlükəsiz idman üzrə Beynəlxalq Olimpiya Komitəsinin setifikatlaşdırılmış mütəxəssisi Vaqif Əliyev seminar iştirakçılarına fiziki tərbiyə müəlliminin səhvi, şagirdlərin zərərləri, psixoloji səhvlər, təlim (dərs) prosesində səhvlər, təşkilati və davranış səhvləri, xəsarət və nəticələrin nümunələri və digər mövzular barədə danışıb.

Təhlükəsiz idman üzrə məsləhətçi Ayan Xankişiyeva isə təlim iştirakçılarını qrup tapşırığı üzrə istiqamətləndirərək, onların mövzunu daha dərindən mənimsəməsi və təhlükəsizlik qaydalarını praktik şəkildə tətbiq etməsi ilə yanaşı, müzakirələrin aparılmasına da rəhbərlik edib.

Tədbirin sonunda seminarda iştirak edən təlimçilərə sertifikatlar təqdim edilib.

*Qabil YUSİFOĞLU*
*XQ*

✓ *Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinə məxsus 01792 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

✓ *"AZNET TECHNOLOGİES" MMC (VÖEN: 1308647091) "LİNKNET" MMC-nin (VÖEN: 2303674951) ona qoşulması şəklində yenidən təşkil olunduğunu bildirir.*

✓ *"Tərtər Kəndkimya" ASC-nin özəlləşdirmə planı (emissiya prospekti) itdiyi üçün etibarsız sayılır (VÖEN - 7200126401).*

*Futbol tariximizdən*

# Hücumda Kazbek Tuayevdir...

*Köhnə "Neftçi"– şöhrətli "Neftçi"*





**"Neftçi"nin SSRİ çempionatlarının güclülər dəstəsində böyük hesabla qazandığı qələbələrdən biri 1966-cı il oktyabrın 4-də qeydə alınıb. Onda hələ heç kim bilmirdi ki, daha 57 gün keçəcək və 30 noyabr axşamında Azərbaycan futbolunun flaqmanı xalqımızı tarixi nailiyyətlə sevindirəcək, çempionatın bürünc medalları ilk dəfə Bakıya gətiriləcək və bu, bütün respublikada toy-bayrama çevriləcək.**

Bakı komandasını fəxri kürsüyə aparan yolda ən inamlı addımlardan biri məhz oktyabrın 4-də Daşkəndin "Paxtakor" komandası ilə görüşdə atıldı və həmin payız axşamının qəhrəmanı 5:0 hesabı ilə başa çatan oyunda 3 qolun müəllifi, sağ cinah hücumçumuz Kazbek Tuayev oldu.

Bu, birbaşa stadionun tribunalarında 40 min azarkeşin, eləcə də yüz minlərlə televiziya tamaşaçısının ürəyindən olan qələbə idi. Azərbaycanlı futbol həvəskarlarının heç vaxt unutmayacağı həmin çempionatda 34 oyunda meydana çıxıb, 14 qol vuran K.Tuayev komandanın ən sərrast hücumçusu oldu.

Üç dəfə – 1963, 1966 və 1967-ci illərdə SSRİ-nin ən yaxşı 33 futbolçusu sırasına daxil edilmiş və "Neftçi"nin 88 illik tarixində komandanın ən güclü hücumçularından biri kimi yaşayan K.Tuayevin qarşıdakı noyabr ayında 85 yaşı tamam olacaq. Bu il həm də onun Prezident Heydər Əliyevin sərəncamı ilə 2000-ci ildə Vətənin yüksək mükafatı "Şöhrət" ordeni ilə təltif olunmasının 25-ci ilidir.

Müxtəlif illərdə "Neftçi"nin şərəfini qorumuş daha 4 futbolçunun Ələkbər Məmmədov, Anatoli Banişevski, İsgəndər Cavadov və Qurban Qurbanovun da "Şöhrət" ordeninə layiq görüldüklərini bu yazıda xatırlamaq, zənnimcə, yerinə düşər.

*Oqtay BAYRAMOV,*
*Əməkdar jurnalist*

## Musiqi qocalmanı ləngidir

**Alimlərin yeni araşdırması göstərib ki, musiqi ilə uzun müddət məşğul olmaq yaşlı insanların beynini gənc saxlayır və idrak tapşırıqlarını daha asan yerinə yetirməyə kömək edir.**



Adətən yaşlı insanların beyni hər hansı idrak tapşırığını yerinə yetirmək üçün gənclərə nisbətən daha çox neyronu işə salır. Bu, beynin qocalmaya uyğunlaşma üsuludur, amma əlavə enerji sərfiyyatı və yorğunluq yaradır.

Çin və Kanadadan olan alimlər öyrəniblər ki, musiqi təhsili beynin "idrak ehtiyatı"nı – yəni zədələnmələrə və yüklənmələrə uyğunlaşmaq qabiliyyətini artırır. Araşdırmanın nəticələri nüfuzlu "PLOS Biology" jurnalında dərc olunub. Təcrübədə 25 yaşlı musiqiçi, 25 yaşlı musiqi ilə məşğul olmayan və 24 gənc iştirak edib. Musiqiçi olanlar azı 32 il bu işlə məşğul olub, 23 yaşından əvvəl başlamış və son illərdə də məşqləri davam etdirmişdilər. Qalan iştirakçılar isə musiqi ilə ya heç məşğul olmamış, ya da çox az vaxt sərf etmişdilər.

Onlara səs-küylü fon şəraitində danışıq səslərini ayırmaq tapşırığı verilib. Beyin aktivliyi MRT ilə ölçülüb. Nəticələr göstərib ki, musiqi ilə uzun illər məşğul olan yaşlı insanların beyni həmyaşıd musiqiçi olmayanlardan daha gənc kimi fəaliyyət göstərir. Onların neyron aktivliyi yaşla bağlı dəyişikliklərdən daha az təsirlənib. Maraqlıdır ki, bu göstəricilər gənclərin beyninə daha çox oxşayıb.

Alimlər bildirirlər ki, musiqi ilə məşğul olmaq beynin ehtiyat gücünü artırır və qocalmanın təsirlərini zəiflədir. Bu araşdırma həm də göstərir ki, musiqi beynin necə işlədiyini və yaşlanma prosesində onun müdafiə mexanizmlərini daha yaxşı anlamağa imkan yaradır.

***XQ***



## Yupiterin yaşı neçədir?

**Yaponiyadan və İtaliyadan olan planetoloqlar Günəş sisteminin ən böyük planeti Yupiterin dəqiq yaşını hesablamağa nail olublar. Onlar kompüter modelləşdirilməsindən istifadə edərək müəyyən ediblər ki, Yupiter Günəş sisteminin yaranmasından təxminən 1,8 milyon il sonra formalaşmağa başlayıb.**

Tədqiqatçılar Yupiterin doğuluşunu canlandırmaq üçün xondr adlanan mikroskopik silikat kürəciklərinin davranışını əsas götürüblər. Bu hissəciklər milyardlarla il əvvəl planetesimalların - qədim kiçik kosmik cisimlərin - dərinliklərində yaranaraq kristallaşıb və sonradan meteoritlərin tərkibində günümüzə qədər gəlib çıxıb.

Alimlərin hesablamalarına görə, Yupiter əvvəlcə Mars böyüklüyündə, Yer kütləsinin təxminən 10 faizinə bərabər "embrion" halında olub. Onun cazibə qüvvəsi planetesimalların bir-biri ilə yüksək sürətlə toqquşmasına səbəb olub. Bu proseslər güclü partlayışları xatırladırdı: su buxarlanaraq kosmosa yayılır, silikat qayalar isə parçalanaraq xondrlara çevrilirdi.

Yeni modelləşdirmə göstərib ki, xondrların əsas hissəsi məhz Günəş sisteminin 1,8 milyon il yaşı olanda yaranıb. Bu, Yupiterin intensiv şəkildə qaz toplayaraq ölçülərini sürətlə böyütdüyü dövrə təsadüf edir. Nəticədə planet kütləsini artıraraq indiki nəhəngliyinə çatıb.

Bu gün Yupiter Yer kürəsindən 318 dəfə daha ağırdır və digər bütün planetlərin birgə kütləsindən 2,5 dəfə böyükdür.

Mütəxəssislərin fikrincə, oxşar proseslər Saturn kimi digər nəhəng planetlərin, hətta Günəş sistemindən kənardakı ekzoplanetlərin də yaranması zamanı baş verib. Hesablamalar göstərir ki, qaz nəhənglərinin formalaşması üçün orta hesabla bir-iki milyon il tələb olunur ki, bu da Yupiterin doğuluş vaxtı ilə üst-üstə düşür.

***S.ELAY***
***XQ***

## Hava

# *Bakıda və rayonlarda mülayim hava*

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətdən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 21-25, gündüz 31-36 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 millimetr civə sütunu, nisbi rütubət gecə 70-80, gündüz 35-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 21-25, gündüz 33-38, dağlarda gecə 10-15, gündüz 22-27 dərəcə isti olacaq.

***Q.ƏLİYEV***
***XQ***



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3603
SİFARİŞ 1734
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00